1 iyun 2018-ci il
№20 (8786)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**11 ixtisas üzrə 530 məzun**
⇨səh.2

**"Təhsil sosial mediada" layihəsinin iştirakçıları mükafatlandırılıb**
⇨səh.3

**Məktəbdaxili qiymətləndirmə**
⇨səh.8

**Dərslik necə yazılmalıdır...**
⇨səh.12

# Ali məktəblərə tələbə, yoxsa...

## Bir daha məktəbin məqsədi barədə



Abituriyentlərin 48.7 faizi imtahandan "2", 18.4 faizi "3", 22.9 faizi "4", 10 faizi "5" qiymət alıb. "Abituriyent" jurnalının 12-ci sayında Dövlət İmtahan Mərkəzinin (DİM) 2017/2018-ci tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili çap olunub. Bu göstəricilər cəmiyyətdə birmənalı qarşılanmayıb. Hətta təhsildə vəziyyətin ümidsiz olduğu qənaətinə gələnlər belə olub. Bəs, əslində, vəziyyət necədir?

DİM-in təhlillərinin nəticələrinə qayıdaq. Gəlin görək, 48.7 faizin məhz "2" alanlar olduğunu söyləmək nə qədər əsaslıdır?

Məlum olduğu kimi, qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. DİM-in təhlillərində 0-700 bal diapazonu şərti olaraq (0-199), (200-299), (300-499), (500-700) intervallarına bölünüb, ənənəvi "2","3","4","5" qiymətləri ilə analogiyası yaradılıb. Ortaya çıxan nəticə yuxarıda göstərilən kimi olub.

### Şərti bölgü

Əvvəla, ondan başlayaq ki, DİM-in təhlillərində 0-700 bal diapazonu şərti olaraq (0-199), (200-299), (300-499), (500-700) intervallarına bölünüb, ənənəvi "2","3","4","5" qiymətləri ilə analogiyası yaradılıb. Nəyə əsaslanaraq?

⇨Ardı səh.6

# Müəllimlər üçün yeniliklər

Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin ardınca müəllimlərin yerdəyişməsi, daha sonra işə qəbulu aparılacaq. Davamlı həyata keçirilən proseslər bəzi yeniliklərlə müşayiət olunur. Belə ki, bu il müəllimlərin işə qəbulu, yerdəyişməsi və müddətli müqavilə ilə işə götürülməsi ilə bağlı qaydalarda bəzi yeniliklər edilib. Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində pedaqoji kadrların işə qəbulunda yeni qaydalar və həmin qaydalardan irəli gələn məsələlərlə bağlı Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə "Azərbaycan müəllimi" qəzetinə müsahibə verib.

*- Bu yaxınlarda müddətli müqavilə ilə işləyən müəllimlərlə müsahibələr keçirildi. Nəticələri barədə məlumat verərdiniz.*

- Bəli, müddətli müqavilə ilə işləyənlərin müraciəti əsasında onlarla müsahibələr təşkil edildi. Bu məqsədlə martın 29-dan ölkədə sənəd qəbulu aparıldı. Tələb edilən meyarlara uyğun olduğunu hesab edən hər kəs müraciət edərək müsabiqəyə qatıldı. Əvvəlki illərdə buna bənzər layihələr olsa da, bu dəfə ümumtəhsil müəssisələrində müddətli müqavilə ilə işləyən müəllimlərin həmin yerlərə daimiləşdirilməsi mərkəzləşdirilmiş qaydada ilk dəfə reallaşdırıldı. Uyğun hesab edilənlərlə bağlı müsbət qərarlar verildi və onlar işlədikləri yerlərə daimi müəllim olaraq qəbul edildi.

*- Kimlər, hansı meyarlara görə uyğun hesab edildi?*

- Razılıqların verilməsi və namizədlərin müsahibəyə buraxılması üçün bir neçə meyar nəzərə alındı. Birincisi, 2016 və ya 2017-ci ildə keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqədə müvafiq keçid balını toplayan, pedaqoji istiqamət üzrə ali və ya orta ixtisas təhsili olanlar müsabiqəyə buraxıldı. Ən vacib meyarlardan biri də odur ki, müəllimlərin işlədiyi və daimiləşmək istədiyi yer 2017-ci ildə keçirilən müsabiqədə vakant yerlər siyahısında olub. Yəni, müsabiqə nəticəsində həmin yerləri bütün vətəndaşlar görüblər.

*- Bu meyarlardan kənara çıxılmadı?*

- Bəzi fənlərdə istisnalar oldu. İbtidai sinif, təsviri incəsənət, texnologiya, musiqi və fiziki tərbiyə fənlərində müsabiqəyə çıxarılmayan vakant yerlərə daimiləşdirilmə aparıldı. Həmin fənlər üzrə namizədlərin vakant yerləri tutma faizi, demək olar ki, bütün illər üzrə digər fənlərlə müqayisədə aşağı olur. Həmin fənlər üzrə vakant yerlər qalır və hər dəfə Təhsil Nazirliyi həmin yerlərə müddətli müqavilə ilə işə qəbul etməyə məcbur olur.

⇨Ardı səh.6

# Topladığı bala qane olmayanlar

## Müəllimlər diaqnostik qiymətləndirmədə nəticələrini yüksəltməkdə maraqlıdırlar

Azərbaycan Texniki Universitetinin idman sarayının qarşısında yenə qələbəlikdir. May ayının 26-dan binanın qarşısı dolub-boşalır. Çünki iyunun 2-dək ölkədə müəllimlərin bilik və bacarıqlarının növbəti diaqnostik qiymətləndirilməsi keçirilir. Bu məqsədlə qeydiyyatdan keçən 19 minə yaxın müəllim imtahan verir.

Artıq məlum olduğu kimi, 2014-cü ildən etibarən ölkə üzrə ümumilikdə 140 000-dək müəllim diaqnostik qiymətləndirmədən keçib. Beləliklə də, ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsinə yekun vurulub. Lakin builki imtahanlarda qeydiyyatdan keçən 19 min nəfərə qədər müəllim arasında indiyədək müxtəlif səbəblərdən diaqnostik qiymətləndirmədən keçməyənlər də var. Ümumiyyətlə, indiyədək diaqnostik qiymətləndirmədən keçən və aşağı bal toplayan müəllimlər, direktorlar, direktor müavinləri, gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri, eyni zamanda, yerli təhsili idarəetmə orqanlarında dövlət qulluğu vəzifəsində çalışanlar, metodistlər, ilk peşə-ixtisas təhsili müəssisələrində ümumtəhsil fənlərini tədris edən müəllimlər də qiymətləndirmədə iştirak edir.

### Diaqnostik qiymətləndirmə ona görə keçirilir ki...

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu nəzdində İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, əvvəllər az bal toplayan və yaxud topladığı balla qane olmayanlar bu il yenidən müraciət ediblər. Bu səbəbdən təkrar imtahan verənlər ilk dəfə iştirak edənlərdən daha çoxdur: "Əvvəllər iştirak edənlərin təkrar imtahan vermək istəməsi diaqnostik qiymətləndirmənin fəlsəfəsinə də uyğundur. Diaqnostik qiymətləndirmə ona görə keçirilir ki, müəllimlər daim öz nəticələrini yüksəltməkdə maraqlı olsunlar, daim öz üzərində çalışsınlar".

Qeyd edək ki, diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin iş yerinin dəyişdirilməsi zamanı nəzərə alınır. Müəllimlərin bilik və bacarıq səviyyələrinin müəyyənləşdirilməsi dərs yükünün rasional bölüşdürülməsinə xidmət edir. Yüksək nəticə göstərənlərin dərs yükü norması və əməkhaqqı, bununla da maddi rifahı yaxşılaşdırılır.

### Müəllimlər imtahan verir

Binanın çölündə də, içərisində də gözləyirlər. Həyəcan da öz yerində. Hamının çöhrəsindən gərginliyi oxunur. Qapıdan içəri girən oturmaq, öncə nəfəsini dərmək istəyir. Həyəcanları boşuna deyil. İmtahan verəcəklər. Uşaq deyillər ki?! Niyə həyəcanlansınlar ki? Bəlkə də məhz ona görə həyəcanlanırlar.

⇨Ardı səh.4



# Dünyanın ən güclü təhsil sistemləri

## 75 ölkə üzrə aparılan tədqiqatlarda 4 kriteriya əsas götürülüb

Səh.9

# Ana dilində ilk orta məktəb

1918-ci ilin 28 may tarixində Azərbaycan xalqının həyatında çox mühüm bir hadisə baş verdi. Şərqdə ilk müstəqil, demokratik, parlamentli Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında İstiqlal Bəyannaməsi elan edildi.

Cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti milli tariximizə ilk dəfə Azərbaycan türkcəsini dövlət dili elan edən və dövlət dilini təhsil müəssisələrinin əsas tədris dilinə çevirən, çağdaş ali təhsil və elm ocağı təsis edən, ilk milli məktəblər şəbəkəsi yaradan, ümumi icbari təhsilə keçid prosesinə başlayan, çoxsaylı müəllim seminariyaları və pedaqoji kurslar açan, dövlət himayəsində ilk məktəbəqədər tərbiyə müəssisələrinin əsasını qoyan, dövlət səviyyəsində 100 nəfər azərbaycanlı gənci xarici ölkələrin ali təhsil müəssisələrinə oxumağa göndərən, əlifba islahatı ilə Avropa mədəniyyətinə yaxınlaşmaq yolunda ilk addımlar atan demokratik, hüquqi, dünyəvi, sivil dövlət kimi daxil oldu. Elə buna görə də AXC hökumətinin tarixini tədqiq edən Qərb tədqiqatçıları o dövrün milli hökumətini "maarifçi hökumət" kimi dəyərləndirirdilər.

⇨Ardı səh.13

# "Bilik öyrətmənin ən yaxşı üsulu tədqiqatdır"

Mayın 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetində Pedaqoji Forumun artıq bir ənənəyə çevrilən növbəti dinləməsi keçirilib. Forumda təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyevin "Müəllim və pedaqoji təhsil" mövzusunda məruzəsi dinlənilib. Tədbirdə ADPU-nun rəhbərliyi, fakültə dekanları, kafedra müdirləri, professor-müəllim heyəti, təhsil mütəxəssisləri, pedaqoji sahədə tədqiqatlar aparan alimlər və pedaqoji ictimaiyyətin nümayəndələri, təhsil ekspertləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və təhsil sahəsindən yazan jurnalistlər iştirak ediblər.

Forumu universitetin tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanov açaraq məruzəçi Etibar Əliyevin fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verib. Bildirib ki, Etibar Əliyev 1986-cı ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirib. Təyinatla 1986-1991-ci illərdə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində elmi işçi, 1992-2002-ci illərdə Təhsil Nazirliyində aparıcı mütəxəssis vəzifəsində çalışıb. 2003-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun idrak nəzəriyyəsi və elmin fəlsəfəsi şöbəsində böyük elmi işçi vəzifəsində işləyir. 2000-ci ildə "Elmi idrakın inkişafında fiziki ideyaların rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi dərəcəsi alıb. "Məktəbli fəlsəfəsi", "Ədəbiyyat üzrə Nobel mükafatçıları", "Yeni təhsil, tərbiyə və elm antologiyası", "Bolonya bələdçisi", "Müasir təhsil texnologiyalarının tezaurusu", "Müəllimlərin peşəkar kompetensiyalarının inkişafına dəstək", "Səriştəli valideyn" kitablarının müəllifidir. "Azərbaycan multikulturalizmi: dərslik" kitabının elmi redaktorudur. Hazırda "Elmin tarixi" kitabını tamamlamaq üzrədir.

⇨Ardı səh.14

# 11 ixtisas üzrə 530 məzun

## *Prezident İlham Əliyev:* "ADA" Universitetində tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur"

**Yusif ƏLİYEV**

Mayın 26-da "ADA" Universitetində məzun günü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

"ADA" Universitetinin rektoru, xarici işlər nazirinin müavini, səfir Hafiz Paşayev dövlətimizin başçısına bu təhsil ocağının fəaliyyətinin genişləndirilməsi layihəsi ilə bağlı məlumat verib.

Qeyd edək ki, "ADA" Universiteti Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən ingilisdilli dövlət ali təhsil müəssisəsidir. Universitet müasir təhsil standartlarını əsas tutaraq qabaqcıl dünya təcrübəsini tətbiq edir, innovativ və qlobal dünyagörüşünə malik kadrlar hazırlayır. "ADA" Universitetində tələbə, müəllim və işçi heyətini 46 müxtəlif ölkədən olan insanların təşkil etməsi burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfə verir. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın 60 aparıcı universiteti ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar.

Burada 41 ölkədən 2200 tələbə təhsil alır ki, onlardan da 85 faizi bakalavr, 15 faizi isə magistr pilləsindədir. Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələri fəaliyyət göstərir. "ADA"da tələbələr bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə isə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti ixtisasları üzrə təhsil alırlar.

"ADA" Universitetinin prorektoru Fariz İsmayılzadə daha bir tədris ilinin uğurla başa çatdığını deyərək bildirib ki, bu gün universitetin məzunlarının nailiyyətləri, vətənpərvərlik ruhu təntənə ilə qeyd edilir.

Məzun günü təhsil müəssisəsinin professor-müəllim heyətinin səhnəyə çıxması ilə başlayıb. Sonra universitetdə təhsil alan əcnəbi tələbələr öz dövlət bayraqlarını gətiriblər. Daha sonra fəxri qarovul dəstəsi Azərbaycan bayrağını gətirib. Dövlət himni səsləndirilib.

Azərbaycan Prezidenti İlham Əliyev məzun günündə çıxış edib.

Çıxışına universiteti bitirmələri münasibətilə bütün məzunları təbrik etməklə başlayan Prezident burada aldıqları biliklərin onlara həyatda layiqli yer tutmaq üçün kömək edəcəyinə əminliyini bildirib. Dövlət başçısı universitetdə 41 ölkədən tələbələrin oxumasını burada təhsilin səviyyəsinin çox yüksək olmasını səciyyələndirən göstərici olduğunu deyib və bildirib ki, bu, doğrudan da, "ADA"nın qısa müddət ərzində çox yüksək nüfuz qazanaraq ölkəmizin aparıcı ali məktəblərindən birinə çevrildiyini göstərir. Prezident ona da əmin olduğunu söyləyib ki, "ADA"da təhsil alan tələbələr gələcəkdə ölkəmizin həyatında fəal rol oynayacaq, onun hərtərəfli inkişafına öz töhfələrini verəcəklər.

Bir neçə il bundan əvvəl özünün təşəbbüsü ilə Azərbaycan tələbələrinin xaricdə təhsil almaları üçün müvafiq proqram qəbul edildiyini, vəsait ayrıldığını və gənclərimizin dünyanın aparıcı ali məktəblərinə ezam olunduqlarını diqqətə çatdıran ölkə başçısı bu proqramın çox böyük faydası olduğunu, minlərlə Azərbaycan gəncinin xaricdə yüksək təhsil alaraq Vətənə qayıtdığını və bu gün ölkəmizin inkişafında fəal rol oynadığını vurğulayıb. Bildirib ki, ancaq əsas vəzifə Azərbaycanda təhsilin səviyyəsini artırmaqdan, onun beynəlxalq standartlara cavab verməsini təmin etməkdən ibarət olmalıdır. ""ADA" Universitetinin yaradılması bu məqsədi güdürdü. Bu gün tam əminliklə demək olar ki, burada tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur", - deyən Prezident İlham Əliyev "ADA"nın bütün professor-müəllim heyətinə, universitetin rəhbərliyinə gördükləri işlərə görə minnətdarlığını bildirib, onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Müxtəlif kürsülərdən dəfələrlə səsləndirilən "Təhsil hər bir dövlətin gələcəyidir" fikrinin həqiqət olduğunu bir daha diqqətə çatdıran Prezident deyib: "Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklər. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir. Mən əminəm ki, bizim gənclərimiz məhz bu istiqamətdə öz fəaliyyətlərini davam etdirəcəklər".

Ölkəmizdə savadlılığın səviyyəsinin, təxminən, 100 faizə yaxın olduğunu söyləyən dövlət başçısı, eyni zamanda, təhsillə bağlı olan islahatların, yeniliklərin öz nəticəsini verəcəyini və verdiyini deyib: "Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir və biz "ADA"nın timsalında, digər aparıcı ali məktəblərimizin timsalında bunu görürük".

Təhsilə göstərilən diqqətin ölkəmizin büdcə xərclərində də özünü büruzə verdiyini qeyd edən Prezident büdcə xərclərinin əsas hissəsinin təhsillə və müdafiə potensialımızla bağlı olduğunu söyləyib və bunu təbii adlandıraraq deyib: "Çünki biz müharibə şəraitində yaşayırıq və müdafiə xərcləri, əlbəttə ki, prioritet məsələ olmalıdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ümid edirəm ki, təhsilimizin səviyyəsi də bu hədəfə yaxınlaşacaqdır".

Prezident çıxışında Azərbaycan Diplomatik Akademiyası kimi yaradılan "ADA"da son illər görülmüş işlərdən, xüsusən də burada yeni proqramların tətbiqindən, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlardan razılığını bildirib: "Mən çox şadam ki, şəhərimizdə belə müasir təhsil şəhərciyi vardır. Mən "ADA"nın gələcək genişləndirmə proqramını da bəyənirəm. Azərbaycan dövləti, əlbəttə, bu məsələlərin həllinə diqqət yetirəcək və lazımi vəsait də ayrılacaq ki, bu işlər davam etdirilsin".

Prezident "ADA" Universitetinin əsas məqsədinin xarici siyasətlə bağlı kadrlar hazırlamaq olduğunu nəzərə alaraq xarici siyasətlə bağlı bəzi fikirlərini də diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanın xarici siyasəti prinsipial və müstəqil siyasətdir. "Hesab edirəm ki, buna görə biz beynəlxalq aləmdə böyük nüfuza malikik və bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi tanınır. Bizimlə hesablaşırlar, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin saylı getdikcə artır və bütün beynəlxalq arenalarda Azərbaycan öz milli maraqlarını müdafiə edir. Xarici siyasətimiz daxili siyasətimizin davamıdır və ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına və iqtisadi maraqlarımızın təmin edilməsi istiqamətinə hesablanan xarici siyasətdir". Bununla yanaşı Prezident onu da diqqətə çatdırıb ki, indiki şəraitdə bölgədə müstəqil siyasət aparmaq o qədər də asan məsələ deyil. "Ancaq bizim mövqeyimiz həmişə ondan ibarət olub ki, biz müstəqil siyasətimizlə xalqımızın maraqlarını təmin etməliyik. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündü,"- deyə dövlət başçısı bildirib.

Xarici siyasətin əsas məsələsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olduğunu deyən Prezident vurğulayıb ki, biz prinsipial mövqeyimizdən bir addım geri dönmürük və dönməyəcəyik. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bizim tarixi torpağımızdır. Beynəlxalq hüququn normaları da bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi təsdiqləyir və bu məsələ ilə bağlı mötəbər beynəlxalq təşkilatların bir çox qərar və qətnamələri vardır ki, onlar bizim mövqeyimizi daha da gücləndirir və münaqişənin həlli üçün hüquqi əsaslar yaradır: "Bu məsələ ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri qeyd-şərtsiz və dərhal icra olunmalıdır".

Dövlət başçısı bu məsələ ilə bağlı bundan sonra da prinsipial siyasət aparılacağını bildirib. Qeyd edib ki, biz bundan sonra da həm iqtisadi sahədə, həm ordu quruculuğu sahəsində və digər sahələrdə öz gücümüzü artıraraq münaqişənin həllini yaxınlaşdırmalıyıq.

Prezident çıxışında regional əməkdaşlıq formatlarının yaradılması istiqamətində atılan addımlardan da söz açıb, ölkəmizin təşəbbüsü ilə hazırda bölgədə dörd üç və dördtərəfli regional əməkdaşlıq formatının mövcud olduğunu deyib. Qeyd edib ki, bu formatlarda əməkdaşlıq onlarda iştirak edən bütün ölkələr üçün faydalıdır.

Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrinin uğurla icra edilməsinin regional vəziyyətdən də asılı olduğuna diqqət çəkən Prezident xarici siyasət konsepsiyamızda qarşılıqlı faydalı əməkdaşlığın xüsusi yer tutduğunu söyləyib. "Biz çox uğurlu enerji diplomatiyası aparırıq. Bizim nəhəng enerji layihələrimiz, o cümlədən böyük dərəcədə diplomatik səylər nəticəsində mümkün olmuşdur", - deyə dövlət başçısı bildirib.

Ölkəmizin enerji diplomatiyasının da çox uğurlu olduğunu və bunu bütün dünyanın etiraf etdiyini deyən dövlət başçısı Azərbaycanın nəinki regionun, həm də Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdiyini diqqətə çatdırıb və bir neçə gündən sonra rəsmi açılışı olacaq Cənub Qaz Dəhlizini tarixi qələbəmiz adlandırıb.

Prezident çıxışında vurğulayıb ki, bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. Azərbaycanda böyük quruculuq işləri aparılır. "Mən bilirəm ki, "ADA" Universitetində biznes fənlərə, iqtisadi fənlərə böyük diqqət göstərilir. Hesab edirəm ki, biz bu sahədə də çox təsirli nailiyyətlərə imza atdıq. Bu gün Azərbaycan iqtisadiyyatı tam daxili resurslar üzərində qurulmuş iqtisadiyyatdır, heç bir xarici maliyyə institutundan, yaxud da ki, xarici ölkədən asılı olmayan iqtisadiyyatdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə böyükdür. Biz istənilən vaxtda bütün borcları ödəyə bilərik".

Prezident İlham Əliyev son illər ölkəmizdə yaradılan sərmayə iqlimindən, yoxsulluqla, işsizliklə bağlı atılan addımlardan da danışıb. Qeyd edib ki, ölkəmizə son 15 il ərzində 230 milyard dollar sərmayə cəlb edilib, rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, inklüziv inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında üçüncü yerdəyik.

Dövlət başçısı çıxışının sonunda əmin olduğunu bildirib ki, bu gün ölkə qarşısında duran vəzifələr uğurla icra ediləcək. "Çünki bizim güclü iqtisadi potensialımız, çox müsbət beynəlxalq nüfuzumuz var. Çox dinamik cəmiyyətimiz, fəal gənclərimiz, çox bilikli vətəndaşlarımız və güclü siyasi iradəmiz var. Əsas vəzifə ondan ibarətdir ki, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin edilsin. Bu isə bax, bu gün burada əyləşən və bizim başqa ali məktəblərdə bu gün eyni tədbiri keçirən gənclərdən asılıdır. Bir daha demək istəyirəm ki, gənclər bizim gələcəyimizdir. Gələcəkdə ölkəmizin taleyi, müstəqilliyi, xoşbəxtliyi gənclərdən asılı olacaq. Ona görə gənclər daim Vətən sevgisi ilə yaşamalıdırlar, peşəkar, bilikli, Vətənə bağlı olmalıdırlar. Əminəm ki, bizim gənclərimiz bu yüksək meyarlara daim cavab verəcəklər".

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "100 ilin təfəkkürü, maarifi və dəyərləri" devizi altında keçirilən tədbirdə "ADA" məzunlarına həsr olunan videoçarx nümayiş olunub.

Sonra universitetin məzunu, biznes fakültəsinin iqtisadiyyat üzrə bakalavrı Azər Əliyev çıxış edib. Bütün məzunlar adından çıxış etməkdən şərəf hissi keçirdiyini deyən A.Əliyev qeyd edib ki, onun və digər məzunların "ADA" Universitetində keçirdiyi tələbəlik illəri çox maraqlı, sevincli və həyəcanlı olub.

O, bütün məzunlar adından "ADA" Universitetinin rəhbərliyinə, professor-müəllim heyətinə minnətdarlığını bildirib.

Daha sonra "ADA"nın tədris işləri üzrə prorektoru Vəfa Kazdal çıxış edərək universitet kollektivinin sevincini bölüşdüyü üçün Prezidentə minnətdarlığını bildirib, dövlət başçısının onlara daim dəstək, qayğı və etimad göstərdiyini deyib. Vurğulayıb ki, "ADA" Universiteti məhz bu dəstəyə və qayğıya arxalanaraq təhsil sahəsində bir neçə mühüm islahatlara imza atıb və imza atmaqda davam edəcək.







"ADA"nın missiyasından danışan prorektor qeyd edib ki, bu missiya beynəlxalq səviyyəli universitet olmaqla, milli ruhlu, savadlı və səriştəli, bəşəri vətəndaşlar yetişdirməkdir.

"ADA" Universitetinin rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayev məzun günündə dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, bunun hər bir məzunun həyatında unudulmaz xatirə kimi qalacağına əminliyini ifadə edib. Dövlət başçısının 2012-ci ildə ilk dəfə "ADA"ya gəldiyini və burada yeni kampusun açılışında iştirak etdiyini, təhsil ocağının fəaliyyət istiqamətlərinin genişləndirilməsi ilə bağlı tövsiyələrini verdiyini bildirən rektor deyib: "Həmin gün Prezidentimiz cəmi bir ixtisas üzrə 14 məzunu təbrik etmişdi. Bu gün isə o, təbrik sözlərini 11 ixtisas üzrə bitirən 530 məzuna ünvanladı. O zamanla müqayisədə tələbələrimizin sayını 115-dən 2200-ə çatdırmışıq. Bunların arasında 380 tələbə qaçqın və məcburi köçkün ailələrindəndir, 500 tələbəmiz isə Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş gənclərdir. Biz əsl beynəlmiləl ali məktəb yarada bilmişik - dünyanın 41 ölkəsinin nümayəndəsi burada təhsil alır. Mübadilə proqramı ilə tələbələrimiz "ADA"nın 60-dan çox xarici tərəfdaş universitetlərinə gedə bilirlər. Biz fəxr edirik ki, dövlətimizin başçısının etimadını doğrultmaqdayıq".

"ADA" Universitetinin tələbə və məzunlarının məşğulluq göstəricisinin 90 faizdən çox olduğunu deyən rektor bu gün informasiya texnologiyaları və mühəndislik fakültələrini bitirən ilk məzunların "Azərkosmos", "ASAN İnnovasiyalar Mərkəzi", "Azercell" və digər dövlət və özəl qurumlarda artıq öz biliklərini tətbiq etdiklərini qeyd edib. Bildirib ki, bu statistikadan kənar qalanlar isə ölkəmizdə və dünyanın mötəbər universitetlərində ali təhsillərini davam etdirəcəklər.

Rektor Hafiz Paşayev əmin olduğunu bildirib ki, universitetin məzunları bilik və bacarıqlarını Vətən uğrunda şərəf və ləyaqətlə tətbiq edəcək, Azərbaycanın ərazi bütövlüyü naminə dövlətimizin başçısının apardığı qətiyyətli siyasətə güc qatacaqlar.

Təhsil müəssisəsinin infrastrukturunun genişləndiyini, yeni akademik proqramların üzərində iş getdiyini, növbəti tədris ilindən hüquqşünaslıq üzrə bakalavr təhsilinə başlanılacağını deyən Hafiz Paşayev son illərdə universitetdəki elmi mərkəzlərin sayının artdığını, Xəzər Enerji və Ətraf Mühit Mərkəzi ilə yanaşı, Data Təhlilinin Tədqiqat Mərkəzinin, Avropa İttifaqı üzrə Bilik Mərkəzinin, "ADA" İnnovasiya və Start-up Mərkəzinin tələbələrə ölkədə strateji sahələri daha yaxından öyrənməyə imkan yaratdığını bildirib.

Universitetin rektoru Hafiz Paşayev onu da qeyd edib ki, hər bir ali məktəbin müvəffəqiyyəti onun müəllimlərinin keyfiyyətindən asılıdır. Bu isə "Xaricdə təhsil" Dövlət Proqramını yeni formada bərpa etmək zərurətini ortaya qoyur. Belə ki, istedadlı gənclərin dünyanın ən aparıcı universitetlərində magistr və doktorantura pillələrində təhsil alıb alim və müəllim kimi Vətənə dönmələri ölkə universitetlərinin uğurlu gələcəyini təmin edə bilər.

Sonra diplomların təqdim edilməsi mərasimi başlayıb.

Prezident İlham Əliyev məzunların bir qrupuna diplomları təqdim edib.

Qeyd edək ki, bu tədris ilində "ADA" Universitetində 11 ixtisas üzrə 530 tələbə məzun adını qazanıb. Bu il ilk məzunlarını buraxan ixtisaslar isə bakalavr pilləsi üzrə dövlət və ictimai münasibətlər, iqtisadiyyat, informasiya texnologiyaları və sistem mühəndisliyi, kompüter elmləri, magistr pilləsində isə təhsil üzrə menecment fakültələridir.

# Fransa Respublikasının naziri UFAZ-da olub

## Universitetdə Fransa Respublikası Avropa və Xarici İşlər Nazirliyi fondunun arxiv sərgisi açılıb

Mayın 27-də Azərbaycan-Fransız Universitetində (UFAZ) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Fransa Respublikası Avropa və Xarici İşlər Nazirliyi fondunun arxiv sərgisinin rəsmi açılış mərasimi keçirilib.

Tədbirdə Fransa Respublikası Avropa və xarici işlər naziri Jan-İv Lö Drian, Azərbaycan Respublikasının təhsil naziri Ceyhun Bayramov, Fransanın Azərbaycandakı səfiri Orelia Buşez, ölkəmizin Fransadakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev, Strasburq və Ren 1 universitetlərin rektorları, Kosmik Tədqiqatlar Milli Mərkəzinin prezidenti Jan-Iv Lö Gol, Airbus DS France-nın prezidenti Nikola Şamussi, "Azerkosmos"un prezidenti Rəşad Nəbiyev, tələbələr və KİV nümayəndələri iştirak ediblər.

Qonaqlar əvvəlcə Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş arxiv sərgisinin stendləri ilə tanış olublar.

Daha sonra nazirlər Fransanın "Thales", "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti, "Schneider Electric" şirkətləri ilə UFAZ arasında əməkdaşlıq memorandumunun imzalanması mərasiminə qatılıblar.

Mərasimdə çıxış edən təhsil naziri Ceyhun Bayramov qonaqları salamlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə təşkil edilən sərginin tarixi əhəmiyyətindən danışıb.



Azərbaycan və Fransa prezidentlərinin birgə təşəbbüsü ilə gerçəkləşdirilən UFAZ layihəsinin iki ölkə arasında əlaqələrin hərtərəfli inkişafında yeni bir mərhələ olduğunu bildirən nazir qeyd edib ki, layihənin uğurla davam etdirilməsi təhsil sahəsində unikal bir əməkdaşlığın nəticəsidir. Nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin UFAZ layihəsinə göstərdiyi diqqət və qayğını bu uğurun əldə olunmasında önəmli faktor kimi dəyərləndirib və UFAZ tələbələrinin akademik sahədə mübadiləsinin və gələcək fəaliyyətinin iki ölkə arasındakı münasibətləri daha da dərinləşdirəcəyinə inandığını bildirib.

Fransa Respublikası Avropa və xarici işlər naziri Jan-İv Lö Drian 28 may - Respublika Günü münasibətilə təbriklərini çatdırıb, Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıb.

Ölkələrimiz arasında təhsil sahəsindəki əlaqələrin və birgə əməkdaşlığın əhəmiyyətindən danışan fransalı nazir UFAZ-ın yaradılmasından böyük məmnunluq hissi keçirdiyini bildirib.

Sonra UFAZ-da təhsil alan tələbələrlə görüş keçirilib.

Azərbaycan-Fransız Universiteti (UFAZ) 2014-cü ilin sentyabrında keçirilən ikitərəfli görüşdə Azərbaycan Respublikası və Fransa Respublikası prezidentlərinin təşəbbüsü ilə yaranan layihədir.

UFAZ-da 4 ixtisas üzrə - geofizika mühəndisliyi, kimya mühəndisliyi, kompüter elmləri, neft-qaz mühəndisliyi ixtisasları üzrə tədris həyata keçirilir. UFAZ-a ilk tələbə qəbulu 2016-2017-ci tədris ilində həyata keçirilib. Hazırda universitetdə 284 tələbə təhsil alır. UFAZ məzunları iki diplom (Strasburq Universiteti və ADNSU, neft-qaz mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr Ren 1 Universiteti və ADNSU) alacaqlar.

# Təhsil naziri Almaniya Bundestaqının üzvü ilə görüşüb

Mayın 31-də təhsil naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının üzvü Nikolas Löbel ilə görüşüb.

Görüş zamanı Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar barədə qonağa məlumat verib.

# Cümhuriyyətin 100 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə Heydər Əliyev adına İdman-Konsert Kompleksində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.

Tədbirdə təhsil naziri Ceyhun Bayramov, dövlət və hökumət rəsmiləri, millət vəkilləri, tanınmış ziyalılar, ali məktəb rektorları, BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva, Təhsil Nazirliyinin nümayəndələri, BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri, rayon icra hakimiyyətlərinin başçıları, qeyri-hökumət təşkilatlarının və ümumi təhsil müəssisələrinin rəhbərləri, təhsil ekspertləri, şagirdlər, müəllimlər və KİV nümayəndələri iştirak ediblər.

Tədbir gənc nəslə cümhuriyyətin tarixini mənimsətmək, dövlətçilik ənənələrimizlə bağlı maarifləndirmə işini gücləndirmək, xüsusi istedada malik olan yaradıcı məktəbliləri ictimaiyyətə tanıtmaq, onlarda özünə inam, Vətənə məhəbbət, dostluq, birlik, humanistlik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərini tərbiyə etmək məqsədi ilə təşkil olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Daha sonra təhsil naziri Ceyhun Bayramov qonaqları salamlayaraq, AXC-nin 100 illiyi münasibəti ilə tədbir iştirakçılarını təbrik edib. C.Bayramov ölkə başçısı İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunduğunu müvafiq tədbirlərin təşkilinin gənclərə doğma respublikamızın tarixini, mədəniyyətini, milli irsini öyrətmək və sərbəst düşüncə tərzini formalaşdırmaq baxımından yüksək qiymətləndirdiyini bildirib.

Təhsil naziri qeyd edib ki, AXC-nin 23 aylıq fəaliyyəti dövründə bütün sahələrdə olduğu kimi təhsil sahəsində də mühüm əhəmiyyətə malik işlər görülüb. AXC-nin yaradılması dövlətçilik ənənələri inkişafında müstəsna rol oynayıb. Bu dövrdə dövlət rəmzləri təsdiq olunub, qadınlara seçki hüququ verilib, Azərbaycan dilində təhsil təşkil olunub, hərbi təhsilin əsası qoyulub, xaricə təhsil almaq üçün tələbələr göndərilib.

Nazir onu da qeyd edib ki, Cümhuriyyət dövründə Bakı Dövlət Universitetinin təsis olunması ilə Azərbaycanda gələcək ali təhsil şəbəkəsinin yaradılması üçün əsas qoyulub. Nazir çıxışının sonunda Azərbaycan xalqının müstəqillik ideyalarının daim yaşayacağına əminliyini bildirib.

Tədbirdə Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixindən, 1918-1920-ci illərdə mövcud olmuş AXC-nin fəaliyyətindən, XX əsrin sonlarında ölkənin öz müstəqilliyini yenidən bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin həyata keçirdiyi inkişaf strategiyasından, ümummilli liderin əsasını qoyduğu tərəqqi yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkənin inkişafındakı rolundan bəhs edən videoçarxlar nümayiş olunub.

Tədbirdə 2017-2018-ci tədris ilində paytaxt təhsilinin uğurları haqqında məlumat verilib, parlaq nailiyyətləri ilə fərqlənən şagirdlər təqdim olunub.

Konsert proqramında şagirdlər Azərbaycanın bir əsrlik müasir dövlətçilik tarixini ardıcıllıqla təcəssüm etdirən şeirlər səsləndirib, vətənpərvərlik mövzusunda mahnılar oxuyub və ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

# "Təhsil sosial mediada" layihəsinin iştirakçıları mükafatlandırılıb



**Rəşad ZİYADOV**

Mayın 31-də Təhsil Nazirliyində "Təhsil sosial mediada" layihəsi çərçivəsində təhsil işçilərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov və layihə iştirakçıları iştirak edib.

Tədbir iştirakçılarını salamlayan təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, "Təhsil sosial mediada" layihəsi Azərbaycanda təhsilin inkişafı ilə bağlı strateji hədəflərin reallaşdırılması sahəsində həyata keçirilən islahatyönlü tədbirlərin mahiyyətinin təbliğ və təşviqini gücləndirmək, həmin istiqamətdə aparılan maarifləndirmə işlərinin səmərəliliyini yüksəltmək, habelə bu prosesə ictimai dəstəyin genişləndirilməsini təmin etmək məqsədi daşıyır. Bu sahədə yüksək dəyərlərə xüsusi diqqət yetirmək lazım olduğunu deyən nazir müavini gənclərin tərbiyə olunması istiqamətində fəaliyyətin gücləndirilməsini çox önəmli məsələlər adlandırıb: "Ola bilsin ki, biz savadlı bir gənci formalaşdırırıq, amma onun mədəniyyət səviyyəsi aşağıdır. Gəlin görək cəmiyyətə bu nə dərəcədə xeyir verə bilər. Bizə lazımdır ki, onun savadı və mədəniyyəti də normal səviyyədə olsun". F.Qurbanov vurğulayıb ki, sosial media layihəsinin məqsədlərindən biri də cəmiyyətdə təhsil sahəsi haqqında düzgün fikir formalaşdırmaqdan ibarətdir: "Bu sahəyə düzgün münasibət olmalıdır. Təhsil ən həssas sahələrdən biridir".

Təhsil sahəsində aparılan yeniliklərdən danışan nazir müavini təhsilin maddi-texniki bazasından, təhsil müəssisələrinin müasir texniki vasitələr, avadanlıqlarla təmin olunmasından, müasir təhsil komplekslərinin tikilib istifadəyə verilməsindən, müəllimlərin işə qəbulu və onların bilik səviyyəsinin artırılmasından, müəllimlərin diaqnostik qiymətləndirmədən keçirilməsindən, onların sosial durumlarının yaxşılaşdırılması və Təhsil Nazirliyinin həyata keçirdiyi bir çox digər uğurlu layihələr barədə də məlumat verib. F.Qurbanov çıxışının sonunda iştirakçıları təbrik edərək onlara gələcək fəaliyyətində uğurlar arzulayıb.

Çıxış edənlər layihə ilə bağlı fikirlərini bölüşüb, aparılan islahatlara öz töhfələrini verməyə hazır olduqlarını bildiriblər.

Daha sonra iştirakçılar "Təhsil sosial mediada" layihəsi çərçivəsində təhsil sahəsində həyata keçirilən islahatyönlü tədbirlər haqqında ictimaiyyətdə obyektiv rəyin formalaşdırılması, bu sahədə səmərəli fəaliyyətlərinə görə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təşəkkürnaməsi" ilə təltif olunublar.

# Hədəf ən yüksək nəticədir

## Diaqnostik qiymətləndirmədə 4 müəllim 60 bal topladı

**Ruhiyyə DAŞSALAHLI**

Ötən həftə başlayan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi sabah yekunlaşacaq. Mayın 26-dan start verilən prosesdə 19 minə yaxın müəllim iştirak edir. Onlardan 4 nəfər ən yüksək - 60 bal toplayıb.

İlk yüksək nəticəni riyaziyyat müəllimi Vəfa Babayeva göstərib. Mayın 29-da imtahan verən gənc müəllim diaqnostik qiymətləndirməyə məhz 60 bal toplamaq üçün qatılıb: "2016-cı ildə Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək 55 bal topladım və Ağsu rayonu Dilman kənd orta məktəbində riyaziyyat müəllimi kimi işə başladım. 2017-ci ildə yerdəyişmə müsabiqəsində iştirak etdim. Hazırda Bakı şəhəri Sabunçu rayonu Maştağa qəsəbəsi 187 nömrəli tam orta məktəbdə fəaliyyətimi davam etdirirəm. Diaqnostik qiymətləndirməyə qatılmaya da bilərdim. Amma 60 bal toplamaq istəyirdim. Bu məqsədlə qeydiyyatdan keçdim və hədəfimə çatdım. Çox gözəl bir hissdir və bütün müəllimlərə bu hissi yaşamağı arzu edirəm".



Vəfa Babayeva



Leyla Paşayeva

Dünən, mayın 31-də isə daha 3 müəllim ən yüksək bal toplayıb. Onlardan ikisi ixtisasca ingilis dili, biri isə kimya-biologiya müəllimidir.

Müəllimlərdən biri, Kəlbəcər rayonu 97 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Leyla Paşayeva "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında bildirib ki, diaqnostik qiymətləndirmədə ilk dəfə iştirak edib: "Hamı diaqnostik qiymətləndirmədən keçib. Amma analıq məzuniyyətində olduğum üçün bunu edə bilməmişdim. Buna görə də çox həyəcanlı idim. Aprel ayından kurikuluma hazırlaşdım. Düzü, hər hansı xüsusi məqsədim yox idi. Hamı diaqnostik qiymətləndirmədən keçmişdi, mən də keçməliydim. İxtisasımla bağlı hər hansı şübhəm olmasa da, kurikulumla bağlı suallara cavab verə bilməməkdən qorxurdum. Eyni zamanda, yüksək nəticə göstərmək istəyirdim".

Peşəsini çox sevən Leyla müəllim uşaqlarla işləməkdən zövq aldığını deyib: "Uşaqlarla işləməyi çox sevirəm. Ona görə harada işləməyimin ciddi fərqi yoxdur. Ancaq 60 bal topladığıma görə əlimdə olan fürsəti də dəyərləndirmək fikrindəyəm. Yerdəyişmə üzrə müsabiqəyə qatılacağam. Bakı məktəblərinin birində işləmək istəyirəm".

İngilis dili müəllimlərindən ikincisi, Qəbələ rayonu Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Mədinə Qasımova diaqnostik qiymətləndirmədə ikinci dəfə iştirak edib və 60 bal toplayıb. "Keçən dəfə 55 bal toplamışdım. Ucqar kənddə çalışıram. Ən yüksək nəticə əldə etmək istəyirdim. Ona görə ikinci dəfə də imtahanlara qatıldım. Artıq 18 ildir ki, bu məktəbdə müəllim işləyirəm. Düşünürəm ki, hər müəllim daim öz üzərində çalışmalıdır. Peşəmiz elə peşədir ki, həmişə məlumatlı, hazırlıqlı olmaq tələb olunur bizdən. Diaqnostik qiymətləndirmədən keçmək mənim üçün xüsusi hazırlıq tələb etmirdi. İşimi sevirəm və dərsə hər gün hazırlaşıram. Hər gün hazırlaşdığım bir işdən imtahan vermək çətin olmadı".



Mədinə Qasımova



Ziyafət Məmmədov

Biləsuvar rayonunun Yuxarı Cürəli kənd tam orta məktəbinin kimya müəllimi Ziyafət Məmmədov builki imtahanlarda yüksək bal toplayan ilk kişi müəllim olub: "Ötən il biologiya üzrə diaqnostik qiymətləndirmədən keçərək 54 bal toplamışdım. Məni qane etmirdi bu göstəricim. Bu dəfə kimyadan qatıldım. Həm həyəcanlı idim, həm də uzaq yol getmişdim, yorğundum. Buna baxmayaraq, imtahanda həyəcan da, yorğunluq da yaddan çıxdı. Orada şərait də çox yaxşıdır. Hər cür rahatlığımız təmin olunub".

Ziyafət müəllim deyir ki, müəllimləri imtahanda ən çox narahat edən kurikulumdur: "Dərsi kurikulumun tələblərinə uyğun keçmək üçün şərait olmur. Ancaq mümkün qədər tətbiq etməyə çalışırıq".

Ziyafət müəllimin də hədəfi 60 bal olub. Rayonda ən yüksək bal toplayan müəllim olmağı qarşısına məqsəd qoyan 36 yaşlı müəllimin bu, ilk birinciliyi də deyil: "Tibb Universitetinə daxil olmaq istəyirdim. Qəbul imtahanlarında 570 bal topladım. Bu balla həmin il rayondan ali məktəbə daxil olan ən yüksək nəticə məndə idi. Ancaq həmin bal Tibb Universitetinin ödənişli ixtisaslarında oxumağıma imkan verirdi. Mən də ancaq dövlət sifarişli yerləri seçmişdim və Bakı Dövlət Universitetinə daxil oldum".

Hazırda Biləsuvar rayon mərkəzindən 15 kilometr məsafədə yerləşən kənddə çalışan Ziyafət müəllim hədəfinə çatdı: "Ən yüksək bal toplamaqda qərarlı idim. Həmin yüksək bal 61 olsaydı, 60 bala yenə qane olmazdım".




# Təhsil nazirinin müavini Avropa Ali Təhsil Məkanı nazirlərinin konfransında iştirak edib

## Konfransda üzv ölkələr arasında ali təhsil sahəsində növbəti 10 il üçün ortaq dəyərlərin müəyyənləşdirilməsi müzakirə olunub

Təhsil nazirinin müavini Firudin Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Ali Təhsil Məkanı nazirlərinin konfransında və Bolonya Siyasəti Forumunda iştirak etmək məqsədi ilə Fransanın Paris şəhərində rəsmi səfərdə olub.

Nümayəndə heyətinin tərkibinə Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov, Beynəlxalq əlaqələr sektorunun müdiri Tural Əhmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov və Bakı Dövlət Universitetinin SABAH qruplarının III kurs tələbəsi Nigar Hüseynova daxildir.

İki gün davam edən tədbiri mayın 24-də açıq elan edən Fransa Respublikasının ali təhsil, tədqiqat və innovasiyalar naziri xanım Frederique Vidal 1998-ci ildə qəbul olunmuş Sorbon bəyannaməsindən sonra Avropa Ali Təhsil Məkanında əldə olunmuş uğurlardan bəhs edib.

Açılış mərasimində Fransa Respublikasının Baş naziri Eduard Filip, YUNESKO-nun Baş katibi Odri Azulay, Təhsil, Mədəniyyət, Gənclər və İdman üzrə Avropa komissarı Tibor Navraksis iştirak edib. Tədbirə həmçinin, 48 ölkənin təhsil üzrə rəhbər şəxsləri, ixtisaslaşmış regional və beynəlxalq təşkilatların nümayəndələri qatılıb.

Konfransda üzv ölkələr arasında ali təhsil sahəsində növbəti 10 il üçün ortaq dəyərlərin müəyyənləşdirilməsi, mümkün çağırışların aydınlaşdırılması və qarşılıqlı dialoqun gücləndirilməsi məqsədi ilə müzakirələr aparılıb.

Tədbirdə çıxış edən nazir müavini Firudin Qurbanov ölkəmizin 2005-ci ildə qoşulduğu Bolonya prosesi çərçivəsində təhsil sahəsində aparılan islahatlar, onların müsbət nəticələri haqqında məlumat verib, o cümlədən Azərbaycan-Fransız Universiteti timsalında həyata keçirilən ikili diplom proqramını xüsusilə vurğulayıb. Eyni zamanda Firudin Qurbanov "EXPO-2025" çərçivəsində ölkəmizin irəli sürdüyü insan kapitalı mövzusuna diqqəti cəlb edib və ölkələri Azərbaycanın namizədliyini dəstəkləməyə çağırıb.

Nazirlərin görüşündə Bolonya çərçivəsində üzv ölkələrin üzərinə götürdüyü öhdəliklərin icra vəziyyətini özündə ehtiva edən hesabat təqdim olunub, üzv ölkələrin əldə etdiyi uğurlar təqdir edilib və mövcud çağırışların həlli istiqamətində zəruri addımların atılmasının əhəmiyyəti vurğulanıb.

Səfər çərçivəsində nümayəndə heyəti Parisdə Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin təşkil etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.

Səfər çərçivəsində Firudin Qurbanov Fransa Respublikasının ali təhsil, tədqiqat və innovasiyalar naziri Frederik Vidalla görüşüb. Görüşdə Azərbaycan və Fransa arasında mövcud təhsil əlaqələrinin genişləndirilməsi, ikili diplom proqramlarının yaradılması, sosial elmlər sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat proqramlarının və nəşrlərin həyata keçirilməsi müzakirə olunub. Müzakirələr zamanı əvvəllər də uğurla təşkil olunmuş Azərbaycan-Fransa universitetlərarası forumunun keçirilməsinin davam etdirilməsi təşəbbüsü irəli sürülüb.

Nazir müavini Rumıniyanın milli təhsil naziri Valentin Popa və Belarus Respublikasının təhsil naziri İqor Karpenko ilə də ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı təhsil sahəsində əlaqələrin cari vəziyyəti və inkişafı, o cümlədən ölkələrimizin ali təhsil müəssisələri arasında əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Topladığı bala qane olmayanlar

## Müəllimlər diaqnostik qiymətləndirmədə nəticələrini yüksəltməkdə maraqlıdırlar


Aydın Tağıyev


Rüxsarə Mirzəyeva


Zamin Əlirzayev


Ruslan Abbasov


Zərif Mehdiyeva


Nurbala Əliyev

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

İmtahan hər yaşda həyəcanvericidir. Hələ imtahan verənlərin müəllimlər olduğunu nəzərə alsaq, hər kəsdə müşahidə edilən imtahan gərginliyi ikiyə vurulmalıdır.

### İmtahan nəzarətçiləri

Diaqnostik qiymətləndirmənin təşkilində Təhsil Nazirliyinin İnsan resursları şöbəsi və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun İnsan Resursları Mərkəzinin əməkdaşlarından ibarət 13 nəfərlik komanda işləyir. İmtahana güclü nəzarət olduğu ilk andan müşahidə edilir. Necə deyərlər, həm havadan - kameralar vasitəsilə, həm də yerdə - "Bir" Tələbə-könüllü proqramının könüllüləri tərəfindən.

Hər zalda kameralar quraşdırılıb. Böyük zalda 12, kiçik zalda 5 kamera işləyir. 3 kamera isə qeydiyyat bölməsində baş verənləri yaddaşına yazır. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini Fəxri Qurbanovun sözlərinə görə, kameraların qeydə aldıqları həm mərkəzi panelə ötürülür, həm də yaddaşda saxlanılır. Panelə ötürülən görüntülər sayəsində baş verənləri anındaca görmək mümkün olur.

### "Bir" könüllüdən 100 könüllü

İmtahan prosesinə "Bir" Tələbə-Könüllü Proqramının 100 könüllüsü cəlb edilib. Budur, könüllülər toplaşıblar. Məşvərət keçirirlər. Düzgün nəzarət etmək üçün kimin nə edəcəyi planlaşdırılır. Hər sırada 4 könüllü hərəkət edir. Onlar sadəcə köçürülmə hallarına, imtahan verənlərin öz aralarında danışmağına mane olmaq üçün sıralarda gəzişmirlər. Lazım gələrsə, müəllimlərə kömək edirlər. Deyəsən, daha çox texniki dəstək üçün müəllimlər onlara üz tutur. İstənilən sorğuya həvəslə cavab verirlər. Çöhrəsində təbəssüm olan könüllülər həyəcan dolu heç bir sualı cavabsız buraxmırlar.

### Direktor könüllülər

Ancaq nəzarətçi könüllülər arasında 2 nəfər də var. Onlar bir ailədir. Ruslan və Zərif cütlüyü öz istəyi ilə nəzarətçilər arasında yer alıb. Tələbə-könüllülərdən daha sərt görünən cütlüyün davranışındakı fərqliliyin səbəbi məlum olur. Onların hər ikisi direktordur. Ər-Ruslan Abbasov Ağdam rayon 65 nömrəli tam orta məktəbin direktorudur: "2013-cü ildən məktəb direktoru işləyirəm. Ötən ildən təsdiq olunmuşam. Ailəliklə təhsil işçisi olduğumuz üçün Təhsil Nazirliyinin İnsan resursları şöbəsinə müraciət edərək, könüllü nəzarətçi olaraq prosesə qatıldıq. Direktor kimi imtahan verib 23 bal imtahandan, 15 bal isə essedən toplamışam. Şəffaf prosesin nəticəsindən yararlanmışam. Öz bacarığım sayəsində direktor təyin edilmişəm. Mənim üçün yaradılan bu şəraitə görə dövlətimin qarşısında özümə borc bilirəm ki, bir işin qulpundan yapışaq. Bu şəffaf layihəyə nəzarətçi kimi qatılmaqla köməyimiz dəyəcəyini düşündük".

R.Abbasovun sözlərinə görə, imtahanlarda elə bir şəffaf sistem qurulub ki, burada hər hansı neqativ amilin baş verməsi mümkün deyil: "Sistemin mükəmməlliyinin özüm imtahan verəndə də müşahidə etmişdim. İndi nəzarətçi olaraq proseslə daha yaxından tanış oldum".

Ruslan müəllimin həyat yoldaşı Zərif Mehdiyeva Ağdam rayon 14 nömrəli Texniki fənlər təmayüllü məktəb-liseyin direktorudur: "İmtahan verib müsabiqədə 31 bal toplamışdım. 1 il əvvəl imtahan verdiyim bu zalda nəzarətçi olmaq da həyəcanlıdır. Birincidə, idarəetmədə öz bacarıqlarımı nümayiş etdirməyə çalışmağın həyəcanı idi. İndi isə obyektiv, şəffaf bir prosesin tətbiqində mənim də əməyim, iştirakım olacaq deyə həyəcanlanıram".

### İlk seans, ikinci cəhd, nəticəsi ilə barışmayanlar...

Müəllimlər diaqnostik qiymətləndirmədə 90 dəqiqə ərzində 60 test tapşırığına cavab verirlər. 40 test tapşırığı ixtisasa, 20 test tapşırığı isə metodika, təhsil strategiyaları və kurikuluma aiddir. İlk günün ilk seansı başa çatır. Müəllimlər zalı tərk edirlər. Nəticəsi ümidlərini doğruldan da var, doğrultmayan da.

**Müəllimlərə ayrılan 90 dəqiqə tamam oldu. Bəziləri "bitdi" düyməsini özü basdı, Rüxsarə xanım kimi bəzilərinə də vaxtın bitdiyini sistem xəbər verdi. Hamı hazırlaşıb çıxsa da, Rüxsarə müəllim narahatdır. Könüllüyə yaxınlaşıb, "Ən yüksək bal toplayan neçə oldu?", - deyə soruşur. Diaqnostik qiymətləndirmədə bu seansda ən yüksək 53 bal qeydə alındı. Bunu eşidən Rüxsarə xanımın əhvalı yenidən pozuldu.**

Aydın Tağıyev Gədəbəy rayonu Qızılqaya kənd tam orta məktəbinin müəllimidir. Qarabağ müharibəsi döyüşçüsü, ikinci qrup əlildir.17 ildir ibtidai sinif müəllimi işləyir. İkinci dəfə diaqnostik qiymətləndirmədən keçir. Bu dəfə 45 bal toplayıb: "Birinci dəfə az toplamışdım. Kompüterim yox idi. Kompüter aldım, öz üzərimdə işlədim. Bacarmadıqlarımı öyrəndim, informasiya texnologiyalarını mənimsədim. Bu gün də gəlib bacardıqlarımı nümayiş etdirdim".

"Taleyüklü imtahan deyil", - deyib keçməyin. Bu imtahanda həyəcan keçirən, gözləri dolan, hətta göz yaşlarını saxlaya bilməyənlər də var.

Budur, bütün könüllülər onun başına yığılıb. Hamısı onu sakitləşdirməyə çalışır. Cavablarının hamısının qeydə alınmadığından narahatdır. Vaxtı bitib və 49 bal toplayıb. Bu bal onu qane etmir: "Hamı məndən 60 bal gözləyir. Necə ola bilər axı?".

Rüxsarə Mirzəyeva Bərdə şəhər 8 nömrəli tam orta məktəbdə müəllim işləyir. Özünü yoxlamağa, daha doğrusu, təsdiq etməyə gəlib. Diaqnostik qiymətləndirmədə 60 bal toplayacağına şübhə etmirmiş: "Bu nəticə ilə heç barışmıram. Vaxtım bitdi".

Bəli, vaxt bitdi. Müəllimlərə ayrılan 90 dəqiqə tamam oldu. Bəziləri "bitdi" düyməsini özü basdı, Rüxsarə xanım kimi bəzilərinə də vaxtın bitdiyini sistem xəbər verdi. Hamı hazırlaşıb çıxsa da, Rüxsarə müəllim narahatdır. Könüllüyə yaxınlaşıb, "Ən yüksək bal toplayan neçə oldu?", - deyə soruşur. Diaqnostik qiymətləndirmədə bu seansda ən yüksək 53 bal qeydə alındı. Bunu eşidən Rüxsarə xanımın əhvalı yenidən pozuldu.

Könüllü Nurbala Əliyev müəllimə görə narahat olub: "Zorla sakitləşdirmişik. Məndən də soruşmuşdu. Demişdim ki, 49-dan yuxarı toplayan olmayıb. 53 bal toplayanın olduğunu eşidib yenidən ağlayacaq".

Rüxsarə xanım tək deyil. Onun kimi gözləri dolub çıxan çoxdur. Bəlkə istədiyi yerdəyişməyə nail ola bilməyəcək, bəlkə də çox ehtiyacı olsa da, dərs saatlarını artıra bilməyəcək. Bu səbəblərin heç biri olmaya, Rüxsarə xanım kimi, sadəcə, özünü təsdiq edə bilmədiyinə təəssüflənə də bilərlər. Bir sözlə, hər göz yaşlının ayrı səbəbi var. Ancaq burada həlledici olan ballardır.

Ballar isə fərqlidir. Bu seansda olmasa da, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirməsində 60 bal toplayan olub. Riyaziyyat müəllimi Vəfa Babayeva, ingilis dili müəllimləri Leyla Paşayeva və Mədinə Qasımova, kimya müəllimi Ziyafət Məmmədov hamıdan fərqləndilər.

Budur ikinci seans başlayır. Müəllimlər içəri daxil olur, qeydiyyatdan keçir, sonra zallara yönləndirilir. Zamin Əlirzayev axına qarışıb imtahan zalına keçir. Onun da burada olma səbəbi ilə maraqlanırıq. Yerdəyişmə istəyir. Lerik rayon Çayrut kəndində 15 ildir müəllim işləyir. İkinci dəfədir ki, diaqnostik qiymətləndirmədə iştirak edir. İlk dəfə 30 bal toplayıb. Bu dəfə hədəfi 45 baldır: "Kəndimizdəki digər məktəbə yerimi dəyişmək istəyirəm. Hazırda çalışdığım məktəbdə şagirdlərin sayı azdır. Bu da maaşımın az olmasına səbəb olur. Həm də digər məktəb yaşadığım yerə yaxındır. Hər gün Yuxarı Çayrutdan Aşağı Çayruta gedirəm".

### Müəllimlərə tibbi yardım

Tibbi briqada da burdadır. İmtahan həyəcanı səhhətinə təsir edən müəllimlərə ilk yardım göstərmək üçün dəvət ediliblər. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırovun sözlərinə görə, müəllimlərin işə qəbulu imtahanlarında olduğu kimi, diaqnostik qiymətləndirilməsi məqsədilə həyata keçirilən imtahanlarda da tibbi briqada dəvət edilib. Bunun üçün Səhiyyə Nazirliyinə müraciət edilib. İmtahan prosesində və ya gözləmə zamanı hər hansı ehtiyac yaranarsa, müəllimlərə tibbi yardım göstərilir. Tibbi personalın verdiyi məlumata görə, hələlik ciddi problem yaranmayıb: "Arterial təzyiqin ölçülməsi üçün müraciət çox olur. Başqa hər hansı ciddi narahatlıq qeydə alınmayıb".

# Professor Nərgiz Paşayeva: Oksford Universitetində imzalanan kontraktı elm, təhsil və mədəniyyət sahələrində Azərbaycanda “Əsrin kontraktı” adlandırmaq olar





Mayın 23-də İngiltərə ilə Azərbaycan arasında elmi, mədəni və humanitar sahələrdə mühüm tarixi hadisə baş verib. **2013-cü ildən Oksford Universitetində fəaliyyətə başlamış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Universitetin tərkibində daimi mövcudluğu haqqında kontrakt imzalanıb.**

AZƏRTAC xəbər verir ki, imzalanma mərasimi Universitetin protokoluna əsasən XV əsrdə yaradılmış bu ali təhsil ocağının Klarendon Kollecində keçirilib. Kontraktı Oksford Universiteti tərəfindən bu ali məktəbin vitse-kansleri, Amerika İncəsənət və Elmlər Akademiyasının, Amerika Filosoflar Cəmiyyətinin və Britaniya Akademiyasının üzvü, İrlandiya Kral Akademiyasının fəxri üzvü və Edinburq Kral Cəmiyyətinin üzvü professor Luiz Riçardson, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzi tərəfindən Mərkəzin Azərbaycan tərəfdən rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun *(www.bfsac.org.uk)* Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva imzalayıblar. Müqaviləyə əsasən Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəz olaraq, Universitetin ayrılmaz bir hissəsi kimi, daimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, Oksford Universitetinin vitse-kansleri professor Luiz Riçardson 7 il ərzində Şotlandiyanın Sent-Andryus Universitetinin rektoru vəzifəsində çalışıb. 2016-cı il yanvarın 1-dən Oksford Universitetinin vitse-kansleri vəzifəsini tutur. İxtisasca alim-politoloq olan professor Riçardson İrlandiyanın Dublin şəhərindəki Triniti Kollecinin tarix üzrə bakalavr pilləsini bitirib, Kaliforniya ştatının Los-Anceles Universitetində siyasi elmlər üzrə magistr, sonra isə Harvard Universitetində magistr və doktorluq dərəcələri alıb. Professor Riçardsonun tədqiqat işlərində terror təhlükələrinə xüsusi diqqətin yetirilməsi və beynəlxalq təhlükəsizlik məsələləri araşdırılır. Professor Riçardsonun tədrisə və müəllimlik peşəsinə bağlılığı Harvard Universitetində işlədiyi müddətdə ona Levenson və Abramson mükafatlarını qazanmağa imkan verib. Onun tədqiqat işləri elmi dairələrdə geniş şəkildə tanınıb və professor Riçardson müharibələrin qarşısının alınması və bütün dünyada sülhün bərqərar olunması sahəsindəki xidmətlərinə görə Samner mükafatına, eləcə də Harvard Universitetinin İncəsənət və Elmlər Ali Məktəbinin 100 illik Medalına layiq görülüb. Professor Riçardson Şotlandiyanın Aberdin və Sent-Andryus universitetlərinin, Dublindəki Triniti Kollecinin və İrlandiyanın Belfast Kral Universitetinin, Rusiyanın Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun və Qərbi Hindistan Universitetinin fəxri doktorudur.

Professor Nərgiz Paşayevanın və Oksford Universitetinin vitse-kansleri Luiz Riçardsonun imzaladıqları müqavilə Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəzi olaraq, Universitetin ayrılmaz bir hissəsi kimi, bu qədim və dünyada tanınmış təhsil ocağında daimi fəaliyyət göstərməsinin rəsmiləşdirilməsi Mərkəzin Universitetindəki akademik uğurundan irəli gəlir. Nəticə olaraq 2013-cü ildən həyata keçirilməyə başlanan, Azərbaycanın və Qafqazın dil, mədəniyyət və tarixini öyrənmək üçün nəzərdə tutulan beşillik elmi-tədris və tədqiqat proqramına əsaslanır. Artıq Mərkəz Oksford Universitetinin daimi bir hissəsi kimi beynəlxalq elmi dairələr, müəssisələr və intellektual informasiya daşıyıcıları tərəfindən şərtsiz qəbul olunur.

**İmzalanmış müqavilənin bəndlərindən birində Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının verilməsi qeyd olunub.** Onu da xatırladaq ki, bir qədər əvvəl — aprelin 23-də akademik Nərgiz Paşayevanın Oksford Universitetinin Bodleyn Kitabxanasının *(www.bodleian.ox.ac.uk)* direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun Antik Kitab və Nadir Əşyaların Qorunması Cəmiyyətinin üzvü Riçard Ovendenlə keçirilən görüşü zamanı bu təklif qarşı tərəfdən çox müsbət qarşılanıb.

İmzalanan sənəd, həmçinin Bodleyn kitabxanalarında Yaxın Şərq və İslam kolleksiyaları bölməsinin kitabxanaçısına dəstək verəcək və bu vəzifəni icra edən şəxsə Azərbaycan dilini öz fəaliyyət sahəsinə əlavə etmək imkanı yaradacaq. Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin dəstəyi ilə Mərkəzin fəlsəfə doktoru proqramı üzrə hazırlıq keçən tədqiqatçıları, tələbələr və kənardan dəvət olunan araşdırmaçılar üçün xüsusi bir oxu zalı da yaradılacaq. Bundan əlavə, Britaniya Fondunun dəstəyi Bodleyn kitabxanalarına Azərbaycandan və Qafqazdan olan nadir və əhəmiyyətli materiallarla öz kitab fondlarını artırmağa imkan verəcəkdir. Şərqşünaslıq İnstitutu çərçivəsində Fondun dəstəyi sayəsində üç fəlsəfə doktoru (DPhil) təqaüdünün ayrılması imkanı yaranacaq, eləcə də tədqiqatçı alimlərə, müxtəlif tədbirlərin proqramlarına, həmçinin idarəetmə məsələlərinə dəstək verəcəkdir və Oksford Universitetinin Türk Dilləri Bölməsində Azərbaycanın rəsmi dili olan Azərbaycan dili ilə tanış olmaq və dili öyrənmək istəyən tələbələr üçün təlimatçı vəzifəsinin yaradılmasına imkan verəcək.

Beləliklə, imzalanan bu mühüm müqavilə Azərbaycan ilə Böyük Britaniya arasında qarşılıqlı münasibətlərin elmi, humanitar, mədəni və digər sahələrdə inkişafının yeni və vacib bir mərhələsidir və heç şübhəsiz ki, bu razılaşma Azərbaycan elmi və mədəniyyəti tarixinə qızıl hərflərlə yazılacaq. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Elmi Mərkəzin dünyanın ən qədim və nüfuzlu təhsil ocaqlarından olan Oksford Universitetində daimi qaydada, Universitetin ayrılmaz hissəsi olaraq fəaliyyət göstərməsi Nizami Gəncəvi Elmi Mərkəzinin 5 il ərzində ədəbiyyat, tərcüməçilik, tarix, arxeologiya, tədris və mədəniyyət sahələrindəki ciddi və gərgin akademik əməyinin məntiqi nəticəsidir.

Oksford Universitetinin ən məşhur və nüfuzlu inzibati binalarından olan və ən yüksək qonaqların rəsmi qəbulları üçün nəzərdə tutulan Klarendon binasında keçirilən imzalanma mərasimindən əvvəl akademik Nərgiz Paşayeva və Oksford Universitetinin vitse-kansleri Luiz Riçardson arasında fikir mübadiləsi aparılıb. Akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə 2013-cü ildə Oksford Universitetində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin fəaliyyəti geniş müzakirə olunub.

Bildirilib ki, Nizami Gəncəvi adına Elmi Mərkəz Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin Universitetin təkcə şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir. Həmçinin Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun 2017-ci ilin yanvarında Londonda 1852-ci ildə əsası qoyulmuş Viktoriya və Albert Muzeyində keçirilmiş təqdimat mərasimi də xatırlanıb. Fond Birləşmiş Krallıqda elm və mədəniyyət sahələrində Azərbaycan və Qafqazla bağlı aparılan bütün işlərin davamlı, uğurlu, perspektivli olmasını və beynəlxalq akademik səviyyəsini təmin etmək məqsədilə şəffaf və ədalətli dəstək üçün yaradılıb. Qeyd edilib ki, bu gün imzalanan müqavilənin reallaşmasına Britaniya Fondu da öz dəstəyini verib.

Tədbirdə çıxış edən Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın həqiqi üzvü, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri professor Nərgiz Paşayeva tədbir iştirakçılarını salamlayaraq bu cür tanınmış və nüfuzlu alimlərin bugünkü imzalanma mərasiminə dəstəyini və marağını məmnunluqla qarşıladığını qeyd edib. Professor Nərgiz Paşayeva Oksford Universiteti nəzdində 2013-cü ildən fəaliyyət göstərən Nizami Gəncəvi Mərkəzinin, Azərbaycanın tarixi, mədəni, mənəvi irsinin öyrənilməsi və təbliğində aparılan işlərin və ölkəmiz üçün vacib olan bu Mərkəzin elmi-strateji məqsədlərinin əhəmiyyətini vurğulayaraq deyib: **“Beş il əvvəl Oksford Universitetinə gələndə buradakı fantastik atmosfer və insanlar bizi heyran etdi. Azərbaycanı və Qafqazı öyrənən, Nizaminin adını daşıyan yeni elmi mərkəzin yaradılması ideyası yarandı. Mərkəzin həmin andan Oksford Universitetində davamlı, daimi mövcudluğu məqsəd olaraq qarşıya qoyuldu. Azərbaycan elmi və mədəniyyəti Qafqazın bir hissəsi kimi Oksford Universitetində tədqiqat obyektinə çevrilmək imkanı aldı. Müxtəlif, dəyişik elmi yanaşmalara, müasir nəzəri metodologiyalara, istedadlı insanlara və dialoqa yeni yol açıldı. Bu gün imzalanan kontraktı, belə böyük hadisəni elm, təhsil və mədəniyyət sahələrində Azərbaycanda “Əsrin kontraktı” adlandırmaq olar. Bu fərəhli gün Azərbaycan tarixinin ən parlaq səhifələrindən olan AXC-nin 100 illik yubileyinə və müsəlman Şərqində birinci Demokratik Respublika yaradan parlaq insanların əziz xatirəsinə ithaf olunur”.**

Qeyd edək ki, postsovet müsəlman respublikaları arasında Azərbaycan birinci olaraq Oksford Universitetində öz daimi funksional mərkəzini yaratdı və təsdiq etdi. Bəşər tarixinin təcrübəsi göstərir ki, böyük elm aləminə daxil olmadan sanballı və fundamental elmi nailiyyətlər əldə etmək mümkün deyil.

Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun iranşünaslıq üzrə aparıcı professoru, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Britaniya tərəfdən rəhbəri Edmund Hersiq deyib: **“Oksfordda Qafqaz və Orta Asiya ilə bağlı tədqiqatların uzun bir tarixi var və Bodleyn Kitabxanasında bölgədən gətirilən çoxlu sayda kitablar və əlyazmalar toplanıb. Lakin bu günə qədər bu bölgənin öyrənilməsi ilə məşğul olan bir mərkəz olmayıb və bu ərazidə yerləşən və daha məşhur olan böyük imperiyalar bu ölkələri hər zaman öz kölgələrində saxlamağa meyilli olublar. Bu imzalanma Oksford Universitetinə, ilk növbədə, Azərbaycanı, Qafqazı və Mərkəzi Asiyanı davamlı şəkildə tədqiqat obyektinə çevirməyə imkan verəcək. Belə ki, Mərkəz burada işləmək üçün ən yaxşı tədqiqatçı tələbələri və araşdırmaçıları cəlb edəcəkdir. Bütün bunlar gələcəkdə bu sahənin yalnız Şərqşünaslıq İnstitutu deyil, həm də Universitetin digər qurumlarında daha da inkişaf etdirilməsinin təməlini qoyacaq”.**

Tədbirdə fəxri qonaqlar arasında bir-biri ilə ünsiyyət yaradan görkəmli elm və mədəniyyət nümayəndələri, siyasi və ictimai xadimlər var idi. Onlar Azərbaycanı və Qafqazı öyrənən Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin layihələrinin həyata keçirilməsi ilə bağlı müzakirələr aparırdılar. Səmimi ab-hava tədbirin xüsusi əhəmiyyətindən xəbər verirdi. Vurğulanırdı ki, Oksford Universitetində indiyə qədər Azərbaycanla bağlı bu məzmunda və bu səviyyədə tədbir keçirilməyib.

İmzalanma günündə Birləşmiş Krallığın elmi-akademik dairələrinin nüfuzlu üzvləri, Oksford Universitetinin Bodleyn Kitabxanasının direktoru, Amerika Filosoflar Cəmiyyətinin üzvü, Londonun Antik Kitab və Nadir Əşyaların Qorunması Cəmiyyətinin üzvü Riçard Ovenden, Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin professoru, Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Britaniya tərəfdən rəhbəri Edmund Hersiq *(www.orinst.ox.ac.uk/research/nizami-ganjavi/people)*, qədim İslam tarixi üzrə dünyanın tanınmış alimlərindən olan, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü professor Robert Hoyland, Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun rəhbəri professor Mark Smit, Britaniya Lordlar Palatasının üzvü, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü Lord Malcolm Bryus, Oksford Universitetinin Vadham Kollecinin İdarə Heyətinin rəhbəri, Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Ken Makdonald, Oksford Universitetinin inkişaf departamentinin direktor vəzifəsini icra edən, professor Entoni Qrin, Oksford Universitetinin professoru, şərqşünas alim Culiya Bray, Bodleyn Kitabxanasının Şərq bölməsinin rəhbəri doktor Gilliyan Evison, Oksford Universitetinin humanitar elmlər departamentinin rəhbəri Karen O'Breyn, həmçinin Azərbaycandan olan fəxri qonaqlar - Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Akif Əlizadə, AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin dekanı, professor Vasim Məmmədəliyev, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru və AMEA humanitar elmlər bölməsinin akademik katibi professor Teymur Kərimli, Bakı Dövlət Universitetinin ümumi dilçilik kafedrasının müdiri akademik Nizami Cəfərov iştirak ediblər.

İmzalanma mərasiminin sonunda Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri professor Nərgiz Paşayeva Oksford Universitetinin vitse-kansleri professor Luiz Riçardsona xatirə olaraq Azərbaycanın böyük xeyriyyəçisi və mesenat Hacı Zeynalabdin Tağıyev haqqında kitabı və Bakının keçmiş Nikolayev küçəsindəki Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binasında (hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918-ci il dekabrın 7-də keçirilmiş ilk iclası təsvir olunan şəkli hədiyyə etdi. Professor Luiz Riçardson da öz növbəsində professor Nərgiz Paşayevaya Oksford Universitetini əks etdirən rəsm əsərini hədiyyə verdi.

Onu da qeyd edək ki, rəsmi hissədən əvvəl professor N.Paşayeva Oksford Universitetinin alimləri və digər qonaqlarla birgə Bodleyn Kitabxanasının qədim hissələrindən olan Horton zalında və Qərb Kitabxanasında oldular, Bodleyndə saxlanan ən qədim əlyazmaların kolleksiyası və onların qorunması mərkəzinə baş çəkdilər. Olduqca maraqlı keçən bu gəzintidə qonaqları Bodleyn Kitabxanasının inkişaf departamentinin rəhbəri Eleyn Gallagher müşayiət edib.

Gəzinti başa çatdıqdan sonra tədbir iştirakçıları Vadham Kollecinin “Trapp rum” adlanan zalında rəsmi nahara dəvət olundular.

Oksford Universitetinin 1610-cu ildə Doroti Vadham tərəfindən mərhum həyat yoldaşı Nikolas Vadhamın vəsiyyətinə uyğun olaraq yaratdığı və Oksfordun mərkəzi hissəsində yerləşən məşhur Vadham Kollecində olduqca səmimi keçən rəsmi nahardan sonra, qeyd olunduğu kimi, görüş Oksford Universitetinin Klarendon adlanan binasında rəsmi imzalanma mərasimi ilə davam etdi. Klarendon binası Nikolas Hoksmurun dizaynı əsasında inşa edilib və birinci dərəcəli tikinti binası hesab olunur.

2018-ci il mayın 23-də Oksford Universitetində imzalanan bu kontraktı, sözün həqiqi mənasında, böyük mədəni-tarixi və humanitar hadisə kimi “Əsrin kontraktı” adlandırmaq olar. Bu hadisə Azərbaycan akademik elmi fikrinin və tarixi irsinin dünya elminə inteqrasiyasına sanballı töhfə verəcəyinə, gələcəkdə yeni yollar və imkanlar açacağına böyük inam yaradır.



# Ali məktəblərə tələbə, yoxsa...

## Bir daha məktəbin məqsədi barədə

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

DİM-dən verilən açıqlamaya görə, ölkənin təhsil sistemində tətbiq olunan ənənəvi qiymətləndirmə “5” ballıq hesablama şkalasına əsaslanır. Pedaqoji ölçmə nəzəriyyəsinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təsdiq etdiyi qiymətləndirmə meyarlarına əsasən, tədris proqramının müəyyən hissələrini mənimsəyən şagirdin biliyi bu bal şkalasına uyğun qiymətləndirilir. Qəbul imtahanlarının nəticəsinin qiymət şkalası isə 700 baldır. Ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələrinin “5” ballıq şkalaya gətirilməsi nisbi və şərti xarakter daşıyır. Bu, sadəcə olaraq, illər üzrə qəbul nəticələrinin inkişaf dinamikasının daha asanlıqla müqayisə edilməsinə imkan verən bir nümunədir.

Əslində, DİM-in də qeyd etdiyi kimi, şərti olan bu bölgü ilə bağlı da fikirlər birmənalı deyil. Bu iki fərqli şkala niyə, nəyə əsaslanaraq eyniləşdirilir?

DİM-dən sorğumuza cavab olaraq bildirilib ki, abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi üçün qəbul imtahanlarında istifadə olunan test bloklarına mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilir. Şərti olaraq sadə tapşırıqların cavablandırılması 200-299 bal “3”, digər tapşırıqların cavablandırılması isə 300-499 bal “4” və 500-700 bal “5” qiymətinə gətirilir.

Təhsil Nazirliyi Təhsilin inkişafı proqramları şöbəsinin müdiri E.Əmrullayev bu izahatla razılaşmır. O hesab edir ki, bu bölgünün heç bir nəzəri və elmi əsası yoxdur: “Eyniləşdirmənin hər hansı qanunverici sənədə uyğunluğu yoxdur. Sadəcə olaraq uzun müddət ənənəvi şəkildə şərh edilib. Hesab edirəm ki, bu cür müqayisə doğru deyil. Şərti olaraq biz də tamamilə fərqli bölgü apara bilərik”.

Təhsil üzrə ekspert Nadir İsrafilovun fikrincə, Dövlət İmtahan Mərkəzinin neçə illərdir tətbiq etdiyi şərti bölgü də, qurumun açıqlamaları da, hətta iki ildir ki, ali məktəblərə qəbul imtahanlarının ilk sessiyasının məktəb proqramı başa çatmadan keçirilməsi də xüsusi məqsədlərə hesablanıb: “5 ballıq şkala ilə 700 ballıq şkalanın nə elmi, nə nəzəri, nə praktiki, ümumiyyətlə, heç bir əsası yoxdur. Amma bu heç nəyə əsaslanmayan şərti bölgü uzun illərdir ki, DİM-in elmi-statistik təhlillərinin əsasını təşkil edir. Qurum “2” alanların sayının artmasında xüsusilə maraqlı görünür. Belə olmasaydı, yazda ali məktəblərə qəbul imtahanları keçirilməzdi. Bilirsiniz ki, təhsil ili iyunun 14-də bitir, DİM artıq ali təhsil müəssisələrinə qəbul imtahanları keçirib. Dəfələrlə apelyasiya komissiyasında iştirak etmişəm. Bununla bağlı şikayətlərə tez-tez rast gəlinir. Komissiyaya gələnlər imtahanda hələ təhsil proqramına görə keçilməmiş mövzulardan salındığını və bu səbəbdən nəticələrinin aşağı düşdüyünü qeyd edirlər. Bu tip şikayətləri göz önünə gətirəndə, belə düşünməmək qeyri-mümkün olur”.

### Əslində, vəziyyət ümidvericidir

Ümid verən isə odur ki, DİM təhlilləri nəticəsində ortaya çıxan rəqəmlər həm də təhsildə irəliləyişin göstəricisidir. Elə götürək son iki ili. 2017-ci ildə keçirilən imtahanlarda abituriyentlərin 48.7 faizi şərti olaraq “2”, 18.4 faizi “3”, 22.9 faizi “4”, 10 faizi “5” qiymət alıbsa, 2016-cı ildə keçirilən imtahanlarda bu göstəricilər, uyğun olaraq, 55.4 faiz, 16.7 faiz, 19.4 faiz, 8.4 faiz olub. Son iki ilin müqayisəsindən belə görünür ki, 2017-ci ildə “2” qiymət alanların faizi nisbətən azalıb, “3”,“4” və “5” qiymət alanların faizi isə artıb.

### Məktəbin qarşısında universitetlərə tələbə hazırlamaq kimi tələb qoyulmayıb

Hər il yaxşı nəticə göstərənlərin faizinin artması, bal toplaya bilməyənlərin faizinin aşağı düşməsi onu göstərir ki, əslində, təhsildə vəziyyət nəinki ümidsizdir, əksinə, hər il qeydə alınan dinamik inkişaf var. Bu, məsələnin bir tərəfi. Məsələnin başqa tərəfi isə odur ki, “2” alanların sayının artıb-azalması məktəbdə həyata keçirilən islahatlara kölgə salmaq üçün bəhanə ola bilməz. Çünki məktəbin məqsədi yaxşı qiymət alanlar nəsli, ali təhsil müəssisələrinə tələbə yetişdirmək deyil. Məgər məktəbi bitirən hər kəs, yaxud böyük əksəriyyət yüksək bal toplamalıdır?

Məlumdur ki, təhsilin keyfiyyəti cəmiyyətdə çoxdandır ki, ali məktəbə qəbul imtahanlarının nəticələri ilə ölçülür. Hər il tələbə olan və olmayan abituriyentlərin nəticələri gündəmə gələndə bu məsələnin də müzakirəsi başlanır. Təhsilin səviyyəsi, məktəbin vəzifələri geniş müzakirələrə, sərt tənqidlərə tuş gəlir. Halbuki təhsil qanunvericiliyi ilə bağlı heç bir rəsmi sənəddə məktəbin qarşısında ali təhsil müəssisələrinə tələbə hazırlamaq kimi tələb qoyulmayıb. Təhsil eksperti Nadir İsrafilov fikrini belə ifadə edir: “Ən əsas məsələ ondan ibarətdir ki, kurikulum təhsilin milli konsepsiyasıdır. Burada yazılıb ki, ənənəvi tədris planından fərqli olaraq kurikulumlar şəxsiyyətyönümlüdür. Bundan əlavə, təhsil qanunvericiliyi ilə bağlı heç bir rəsmi sənəddə məktəbin qarşısında ali məktəbə tələbə hazırlamaq kimi tələb qoyulmayıb. Təhsil sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin kompleksidir. Buna baxmayaraq, yenə də məktəbin işinə “neçə uşaq nə qədər bal toplayıb?”, “neçəsi ali məktəbə daxil olub?” suallarıyla zərbə vurmağa çalışırıq. Baxışımız dəyişməlidir. Məktəb şəxsiyyətyönümlü vətəndaş hazırlamalıdır”.

Elə isə biz niyə hər il eyni səhvləri edirik? Hər il bu məsələ mütləq gündəmə gəlir və hamı məktəbin üstünə düşərək akademik göstəricilərin aşağı olmasına görə təhsil sistemini qınayır. N.İsrafilov bu sualın cavabı olaraq hesab edir ki, ölkədə mövcud olan qiymətləndirmə mexanizmi biliyin qiymətləndirməsinə imkan verir. Şəxsiyyətyönümlülüyün qiymətləndirmə kriteriyası yoxdur. Elə məktəb var ki, 5 şəhid verib. Heç kim bunun hesabatını aparmır. Məktəblərin yetişdirdiyi vətənpərvər, torpağına və millətinə bağlı, əsl vətəndaş mövqeyi olan, milli dəyərlərinə önəm verən insanların qiymətləndirilməsi üçün bir mexanizm yoxdur. Əmək adamlarını da məktəb yetişdirir. Pambıqçılıq, kənd təsərrüfatını inkişaf etdirən ölkə insanını da məktəb yetişdirir”.

**Bir sözlə, məktəbin reytinqində artıq sadəcə buraxılış imtahanlarının nəticələrini əsas götürmək kifayət etmir. Yaradıcılıq, akademik, beynəlxalq olimpiadalarda nəticələr, idman sahəsində (peşəkar və ya həvəskar olmağı fərq etməz) nailiyyətlər, kütləvi idmanda komandalarla iştirak və s. məktəblərin qiymətləndirilməsində nəzərə alınır. Odur ki, “2” alanların sayına ilişib qalmaq yox, müasir məktəbin qarşısında duran vəzifələrə baxmalıyıq.**

N.İsrafilov hesab edir ki, məqsədimiz təhsildə keyfiyyətə nail olmaq yox, baldır: “Bal dalınca qaçmaq son nəticədə şagirdlər arasında psixoloji problemlərin yaranmasına da səbəb olur. Qəbul imtahanları zamanı yeniyetmələr arasında intihar hallarının artması məhz bunun nəticəsidir”.

### Sosial mediada müzakirələr

DİM-in statistik təhlilləri sosial mediada da birmənalı qarşılanmır. Müzakirələrdə yaranan səs-küy içərisində fərqli düşüncə sahibləri də ortaya çıxır. Məktəbdən yüksək bal toplayanlarla bağlı çoxsaylı tələblərin yanında ara-sıra fərqli yanaşma sərgiləyənlər də olur. Təhsil, test üsulu ilə qəbul və başqa məsələlər cəmiyyətin hər kəsimini maraqlandırır və narahat edir. Odur ki, müzakirələrə qatılanlar arasında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədovun fikri maraqlı oldu: “Dəfələrlə yazmışam. Testdə yüksək nailiyyət çox yaxşıdır. Amma bu, hələ bilik göstəricisi deyil. Bu, xüsusi qabiliyyətdir. Əzbərləmək qabiliyyəti. Mən bir dəfə xahiş etdim ki, yüksək bal toplayanların sonrakı uğur hekayələri barədə məlumatı olanlar yazsın. Heç kəs heç nə yazmadı. Amma minimum balla ali məktəblərə qəbul olunub sonradan ciddi uğur qazananlar tanıyıram”.

S.Məmmədov hesab edir ki, ali məktəbə qəbul asan olmalıdır, oxumaq və məzun olmaq isə çətin: “Bu olmayınca, qabaqcıl təhsil olmayacaq”.

### Müasir məktəbdən gözləntilər

Bəli, yüksək akademik göstəricisi olanlar bir məktəbin başının ucalığıdır. Ancaq birdəfəlik qəbul etməliyik ki, məktəbin akademik göstəriciləri onun reytinqi müəyyənləşdirilərkən nəzərə alınan meyarlardan sadəcə biridir. Bəs, başqa meyarlar hansılardır?

Məlum olduğu kimi, Təhsil Nazirliyi tərəfindən hər il IX və XI siniflərdə keçirilən buraxılış imtahanlarının nəticələri təhlil edilir və ölkənin bütün məktəblərinin reytinq siyahısı hazırlanır. Bu dərs ilindən başlayaraq, Təhsil Nazirliyində ümumi təhsil müəssisələrinin reytinq cədvəli hazırlanarkən başqa meyarlar da nəzərə alınır. Reytinq cədvəlində yeri müəyyənləşdirilərkən məktəbin nəinki təmirli olması, yerləşdiyi ərazinin sosial-iqtisadi vəziyyətinə də baxılır.

Təhsilin keyfiyyət göstəricilərinin ildənilə artdığını şagirdlərin beynəlxalq yarışlarda əldə etdiyi nailiyyətlər də təsdiq edir ki, bu da məktəbin reytinqi müəyyənləşdirilərkən nəzərə alınan əsas meyarlardandır. Azərbaycan məktəblilərinin beynəlxalq yarışlarda nümayiş etdirdiyi bilik və bacarıqlar əvvəlki illərlə müqayisədə çox yüksəkdir.

Bir sözlə, məktəbin reytinqində artıq sadəcə buraxılış imtahanlarının nəticələrini əsas götürmək kifayət etmir. Yaradıcılıq, akademik, beynəlxalq olimpiadalarda nəticələr, idman sahəsində (peşəkar və ya həvəskar olmağı fərq etməz) nailiyyətlər, kütləvi idmanda komandalarla iştirak və s. məktəblərin qiymətləndirilməsində nəzərə alınır. Odur ki, “2” alanların sayına ilişib qalmaq yox, müasir məktəbin qarşısında duran vəzifələrə baxmalıyıq.



# Müəllimlər üçün yeniliklər

## Dəyişikliklər təhsil sahəsində çalışan və vəzifədə yüksəliş gözləyənlərin kənarda qalmasının da qarşısını alacaq

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Bununla əlaqədar həmin yerlər güzəştli kateqoriya kimi qəbul edildi və müəllimlərin daimi əsaslarla işə qəbul olunmasına razılıq verildi.

*- Neçə nəfər daimiləşdirildi?*

- Ümumiyyətlə, 477 nəfər namizəd işlədikləri təhsil müəssisələrində daimiləşdirildi. 121 nəfər həvəsləndirmə tədbirlərinin tətbiq edilmədiyi məktəblərə qəbul edildi. Yəni, şəhər, rayon mərkəzləri və qəsəbələrdəki məktəblərin müəllimləri oldular. Yerdə qalan 356 nəfərin həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi məktəblərdə daimi işləməsinə razılıq verildi.

*- Onlarla yeni müqavilələr nə vaxtdan imzalanacaq?*

- Bu dərs ili artıq başa çatır. Həmin müəllimlərlə növbəti tədris ilindən müqavilələrin bağlanması ilə bağlı təhsil müəssisələrinə müvafiq qərarlar göndəriləcək.

*- Müddətli müqavilə ilə işə qəbulda da dəyişiklik var?*

- Bəli, az əhəmiyyətli olmayan bir dəyişiklik də müddətli müqavilə ilə işə qəbulun mərkəzləşdirilməsidir. Əvvəllər müddətli müqavilə ilə işə qəbulu yerli təhsili idarəetmə orqanları həyata keçirirdi. Artıq bu da mərkəzləşdirilmiş qaydada nazirlik tərəfindən həyata keçiriləcək.

*- Hazırda müəllimlərin diaqnostik qiymətləndirilməsi həyata keçirilir. 2016 və ya 2017-ci illərdə müəllimlərin işə qəbulu imtahanlarına qatılanlar və topladığı bala qane olmayanlar indiki diaqnostik imtahanlara qatıla bildimi?*

- Əvvəllər az bal toplayan və yaxud topladığı bala qane olmayanlar bu il yenidən müraciət ediblər. Bu səbəbdən təkrar imtahan verənlər diaqnostik qiymətləndirmədə ilk dəfə iştirak edənlərdən daha çoxdur. Əvvəllər iştirak edənlərin təkrar imtahan vermək istəməsi diaqnostik qiymətləndirmənin fəlsəfəsinə də uyğundur. Diaqnostik qiymətləndirmə ona görə keçirilir ki, müəllimlər daim öz nəticələrini yüksəltməkdə maraqlı olsunlar.

*- Qoşa ixtisaslı müəllimlər hər iki fənn üzrə imtahanda iştirak edə bilərmi?*

- Mümkündür. Ötən il müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirməsi zamanı tələblərdən biri bu idi ki, müəllim tədris apardığı fənn üzrə imtahan verməlidir. Qoşa ixtisaslı müəllimlər ötən il iştirak etdiyi ixtisasla yanaşı, ixtisası olan digər fənlə də diaqnostik qiymətləndirmədə iştirak edə bilərlər.

*- Tərbiyəçi müəllimlər diaqnostik qiymətləndirmədən keçirilirmi?*

- Xeyr.

*- Diaqnostik qiymətləndirmədə kimlər iştirak edə bilər?*

- Bilik və bacarıqların diaqnostik qiymətləndirilməsində o şəxslər iştirak edə bilər ki, onlar müddətsiz müqavilə əsasında ümumi təhsil müəssisələrində və ilk peşə-ixtisas təhsili müəssisələrində müəllim vəzifəsində işləyirlər. Bundan əlavə, ümumi təhsil müəssisələrinin direktor, direktor müavini və gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri də qiymətləndirilmədə iştirak edirlər. Təhsili yerliidarəetmə orqanlarında dövlət qulluğu və metodist vəzifələrində işləyənlərin də qiymətləndirilmədə iştirakına icazə verilib.

*- Diaqnostik qiymətləndirmədən keçənlərin arasında yerdəyişmə istəyənlər çoxluq təşkil edir. “Müəllimlərin yerdəyişməsi üzrə qaydalarda yeniliklər daha çoxdur”, - deyə bilərikmi?*

- Yeni təsdiq edilən qaydalarda ən ciddi dəyişikliklər yerdəyişmə müsabiqəsinə aid oldu. Ötən ildən başlayaraq müəllimlərin iş yerinin eyni rayon (şəhər) daxilində dəyişdirilməsi müsabiqəsi də mərkəzləşdirilmiş qaydada Təhsil Nazirliyi tərəfindən keçirilməyə başlandı. Xronoloji baxımdan ilk olaraq həmin müsabiqə, daha sonra isə iş yerinin bir rayondan (şəhərdən) digərinə dəyişdirilməsi üzrə müsabiqələr keçirildi. Cari ildən etibarən həmin müsabiqələr eyni vaxtda vahid çərçivədə keçiriləcək.

*- Yerdəyişmədə müəllimin hansı balı nəzərə alınır?*

- İkinci dəyişiklik bununla bağlıdır. Müəllimlər yerdəyişmədə istədiyi balla iştirak edə bilərlər. İşə qəbul imtahanında topladığı balla, yaxud diaqnostik qiymətləndirmənin əsasında müsabiqəyə qatıla bilərlər. İki dəfə diaqnostik qiymətləndirmədə iştirak edibsə, istədiyi nəticəni təqdim edə bilər. Bu dəyişikliklə müəllimlərə göstərdiyi ən yaxşı nəticə ilə müsabiqəyə qatılmaq şansı verilib. Qeyd etməliyəm ki, bu şans yalnız yerdəyişmədə qüvvədədir. Dərs yükü bölgüsü üçün müəllimin son qatıldığı müsabiqənin nəticəsi əsas götürülür. Ən başlıca dəyişiklik isə güzəştli kateqoriyanın müəyyən edilməsidir.

*- Bu kateqoriya əvvəl də vardı.*

- Bəli. Dəyişikliklərdən sonra güzəştlər bəlli bir çərçivəyə salındı. Artıq onlara verilən üstünlük hüququ meyarlar şəklindədir. Hansı halda nə qədər güzəşt tətbiq olunacağı yeni qaydalarda müəyyən edilib. Sırf bu məqam yerdəyişmə ilə bağlı həyata keçirilən ən ciddi dəyişikliklərdən biridir.

*- Üstünlük hüququ hansı meyarlarla müəyyən olunacaq?*

-Yerdəyişmə zamanı əsas götürülən göstərici müəllimin işə qəbul üzrə müsabiqədə, yaxud diaqnostik qiymətləndirmədə topladığı baldır. Amma namizədin əri, ya da arvadı hərbiçidirsə, yaxud şəhid ailəsinin üzvüdürsə, namizədin topladığı bal 1.1 əmsalına vurularaq hesablanacaq. Məsələn, namizədin müsabiqədə iştirak etdiyi bal 50 baldır. Namizəd, tutaq ki, şəhid ailəsinin üzvü olduğunu sənədlərlə təsdiq edərsə, onda onun 50 balı 1.1 artım əmsalı ilə 55 bal kimi hesablanacaq. Başqa bir üstünlük isə iş yerini yaşayış və ya qeydiyyatda olduğu və yalnız həvəsləndirmə tədbirinin tətbiq edildiyi əraziyə dəyişmək istəyənlərə verilir. Belə ki, tutaq ki, Qəbələnin Tikanlı kəndində yaşayan müəllim həmin kənd məktəbindəki vakant yeri seçərək iş yerini həmin məktəbə dəyişmək istəyirsə, məhz ona üstünlük veriləcək və onun balı 1.05 artım əmsalına vurularaq hesablanacaq. Bunun mahiyyəti də ondan ibarətdir ki, biz kənd sakinlərinə üstünlük veririk və əminik ki, onlar iş yerini dəyişmək istəməyəcəklər. Yəni, bununla həmin vakant yer üçün daimi kadr tapırıq.

*- Yerdəyişmədə keçid balı nəzərdə tutulurmu?*

- Yerdəyişmədə keçid balı bir az fərqlidir. Təcrübəyə əsaslanaraq deyə bilərik ki, yerdəyişmə üçün də keçid balı işə qəbul üçün nəzərdə tutulan keçid balı ilə demək olar ki, eyni olur. Yəni yerdəyişmədə də vakant yerlərin keçid balı elə işə qəbul zamanı tələb olunan keçid balına uyğun gəlir.

*- Yaşa görə həvəsləndirmə tədbirlərinə cəlb edilməyən müəllimlərə yerdəyişmə icazəsi verilir?*

- Mövcud qaydaya əsasən, həvəsləndirmə tədbirlərindən yararlanan müəllimlər nəzərdə tutulmuş müddət ərzində iş yerini dəyişə bilməz. Lakin ailə vəziyyəti ilə əlaqədar olaraq, nəzərdə tutulmuş müddət başa çatmadan da müəllimlərin yerdəyişmə üzrə müsabiqəyə qatılmasına icazə verilir. Yaşa görə həvəsləndirmə tədbiri tətbiq edilməyən müəllimlərin iş yerinin dəyişdirilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmayıb.

*- Direktor müavinlərinin işə qəbulundakı dəyişiklik nə ilə izah olunur? Burada əsas məqsəd nədir?*

- Direktor müavinlərinin işə qəbuluyla bağlı edilən dəyişikliyə əsasən, bu, iki formada həyata keçiriləcək. Birincisi, hazırda ümumi təhsil müəssisələrində işləyən müəllimlər vəzifədə yüksəliş yoluyla direktor müavini olmalıdır. Azı 3 il müəllim işləyən, pedaqoji istiqamət üzrə ali təhsil alan və müəllim kimi fəaliyyət göstərən şəxs direktor müavini seçilə bilər. Yəni, direktor müavinləri yalnız işləyən müəllimlərdən seçilir. Müəllim işləmiş, sonradan başqa işə keçmiş şəxslərin direktor müavini götürülməsi nəzərdə tutulmur. Bu da sosial lift effekti yaradır. İnsanların vəzifədə yüksəlməsi üçün əlavə imkan deməkdir. Dəyişiklik neçə illərdir işləyən və vəzifədə yüksəliş gözləyənlərin kənarda qalmasının qarşısını alacaq.

Direktor müavini seçməyin ikinci yolu isə müsabiqə yoludur. Təhsil Nazirliyinin razılığı əsasında yerli təhsili idarəetmə orqanları mərkəzləşdirilmiş qaydada proqram təminatından istifadə edərək müsabiqə keçirə bilərlər.

# "Heç kimin imtahanlara müdaxilə imkanı yoxdur"

Rektor danışır



III söhbət

## *Gülçöhrə Məmmədova:* "Bəzi hədəflərə nail olmaq üçün doğru bildiklərimizdə israrlı olmalıyıq"

**Ruhiyyə DAŞSALAHLI**

Sağlam mühit müasir universitet üçün əsas şərtlərdəndir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova rəhbərlik etdiyi dövrdə buna nail ola bilibmi? Bu istiqamətdə qarşısına çıxan maneələr çoxdurmu?

Rektorla söhbətimizin bu hissəsində sağlam mühit, sağlam düşüncə formalaşdırmaq üçün rəhbərlik etdiyi təhsil müəssisəsində həyata keçirdiyi tədbirlərdən danışdıq.

*– Müasir təhsil sistemində sağlam mühit çox önəmlidir. Azərbaycanda bir neçə ildir ki, təhsildə, xüsusən ali təhsil pilləsində bu amilə xüsusi önəm verilir. Bu istiqamətdə hədəflərinizə çata bilirsinizmi? Üstəlik, orta yaş və yaşlı nəslin nümayəndələrinin üstünlük təşkil etdiyi bir kontingentlə işlədiyinizi nəzərə alsaq, sovet təhsil mühitindən qalan bir çox neqativ amillə mübarizə aparıb müasir təhsil mühiti yaratmaq yəqin elə də asan deyil.*

– Bu, çox vacib məsələdir. Ölkə universitetlərinin hər biri ilə bağlı cəmiyyətdə müəyyən fikir formalaşıb. Yəni hər universitetin öz reytinqi var. Düşünürəm ki, universitetimizlə bağlı rəyi məndən yaxşı bilərsiniz. Çalışırıq ki, universitetimizin işindən, həyatından neqativ amillər, sağlam mühitə mənfi təsir edəcək məqamlar tamamilə çıxsın. Bunun üçün də çox iş görürük. Universitetə rəhbərlik etdiyim ilk illərdən bu istiqamətdə, sözün əsl mənasında, mübarizə aparıram. Əsas fəaliyyətimiz ona yönəlib ki, müəllim-tələbə münasibətləri yüksək səviyyədə olsun. Tələbə universitetdə özünü rahat hiss etsin, işgüzar mühitdə oxusun və formalaşsın. Bilsin ki, bu universitetdə ancaq öz biliyi, öz bacarığı ilə oxuya bilər. Bir sözlə, uzun illərdir ki, bütün səylərimiz buna yönəlib.

### Dəqiq qiymətləndirmə kriteriyaları olarsa...

*– Bu səylər nədən ibarətdir və nəticə veribmi?*

– İlk növbədə, imtahan prosesini nəzarətə götürmüşük. İmtahan sessiyası iki cür keçir. Tələbələrə test bankı verilir, onlar semestr boyu həmin test bankı üzrə imtahanlara hazırlaşa bilərlər. Amma imtahanlarda əzbərçilikdən qaçmaq üçün testlərə həmin banklarda olmayan açıq suallar da, analoji suallar da salırıq. Buna əminəm ki, hər bir tələbə test imtahanında öz biliyinə uyğun qiymət alır. Tam obyektiv, tam şəffaf imtahanlara nail olmuşuq. Qiymətləndirmə də kompüter tərəfindən aparılır və ora heç bir müdaxilə edilmir. Yəni, nə işçi, nə də müəllimin hər hansı müdaxilə imkanı yoxdur. İmtahanlarımızın ikinci hissəsi yazılı olur. Tələbələrin yazı işi şifrələnərək yoxlanması üçün müəllimlərə təqdim edilir. Çalışırıq ki, qrupların işini müxtəlif müəllimlər yoxlasınlar. Bu işə kafedra müdirlərini də cəlb edirik. Şifrələr yalnız qiymətləndirmə aparıldıqdan sonra açılır və kimin qiymətinin neçə olduğu o zaman bəlli olur. Burada da şəffaflığı təmin etmişik. Ancaq insan olan yerdə subyektivlik də var. Bəzən bir cavaba müəllimlər müxtəlif bal verə bilər. Amma bunun da qarşısını almağa çalışırıq. Dəqiq qiymətləndirmə kriteriyaları olarsa, insan amilinin təsirinin azalacağını düşünürük. Bütün qüvvəmizi ona cəmləşdirmişik ki, tələbə yalnız öz bilik və bacarığı ilə qiymət ala, sadəcə oxuyaraq universiteti bitirə biləcəyinə əmin olsun. Bu məsələdə heç kimin köməyinə arxayın ola bilməz.

*– Elə isə maraqlıdır, bəs, xahişlərlə necə mübarizə aparırsınız? Zəng edib tələbələrinizdən birinə özünüzün kömək etməyinizi istəyən dost-tanışa nə deyirsiniz?*

– Mən mübarizə aparmıram. Həmin şəxslərə izah etməyə çalışıram ki, yaxınının yaxşı mütəxəssis olmasını istəyirsə, onunla daha ciddi olmağımızı xahiş etməlidir, oxumamasına göz yummağımızı yox.

*– Nədənsə, izahınızın az təsir etdiyinə daha çox inanıram.*

– Mənimlə razılaşanlar da olur, razılaşmayanlar da. Hətta küsürlər də. Ancaq nə etmək olar? Bəzi hədəflərə nail olmaq üçün doğru bildiklərimizdə israrlı olmalıyıq.

### Plagiat inkişafın, yeniliyin düşmənidir

*– Təhsildə keyfiyyətdən danışanda ilk ağla gələn amillərdən biri plagiat olur. Xüsusən, internet əsrində bu istiqamətdə vəziyyət pisləşib. İstənilən materialda plagiat çıxır, ya tamamilə, ya da qismən. Plagiatla mübarizə apara bilirsiniz?*

– Plagiatla mübarizə aparırıq. Hətta bir plagiat şirkəti ilə müqavilə bağlamışıq. Bütün dissertasiyalarımızı, məqalələrimizi plagiat yoxlamasından keçiririk. Keçən ildən başlayaraq, magistr dissertasiyalarımızı da həmin proqramdan keçirib sonra müdafiəyə buraxırıq. Plagiat inkişafın, yeniliyin düşmənidir. Onunla mübarizəyə çox ciddi yanaşmaq lazımdır. Plagiata son qoymaq üçün elmi jurnallarımızda da xüsusi tələblər qoymuşuq. Universitetimizin 5 elmi jurnalı var. Onların qarşısında məsələ qəti qoyulub: çap olunanlar arasında plagiat olmamalıdır!

*– "Plagiat.pl" şirkətinin direktoru Əli Təhməzov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində universitetlərin öz tələbələrinə elmi işi plagiatdan tam təmizlənənə qədər yoxlamadan keçirməyə şərait yaradıldığını demişdi...*

– Plagiat şirkəti ilə bağladığımız müqaviləyə əsasən, tələbəyə bir dəfə bu şans verilir. Magistr işini bir dəfə yoxlamadan keçirir, plagiat çıxırsa, işi tələbəyə qaytarırıq ki, yazısını plagiatdan təmizləsin. Bunu etməmək mümkün də deyil. Yəni təklif edirsiniz ki, plagiat tapılan bütün tələbə və magistrlərimizi universitetdən qovaq? Plagiat sistemi pulsuz bir şans verir. Amma həmin sistemdən ödənişli olaraq ikinci, üçüncü dəfə də istifadə etmək olar.

**Çalışırıq ki, universitetimizin işindən, həyatından neqativ amillər, sağlam mühitə mənfi təsir edəcək məqamlar tamamilə çıxsın. Bunun üçün də çox iş görürük. Universitetə rəhbərlik etdiyim ilk illərdən bu istiqamətdə, sözün əsl mənasında, mübarizə aparıram. Əsas fəaliyyətimiz ona yönəlib ki, müəllim-tələbə münasibətləri yüksək səviyyədə olsun.**

### Gənclərimizdə idmana həvəs yoxdur

*– Məktəblilərin idman nailiyyətləri daha yaxşıdır, nəinki tələbələrin. Təhsil Nazirliyində idmanda böyük nailiyyətləri olan gənclərin ali məktəblərə qəbulunun asanlaşması və uğurlarının universitetlərdə də davam etməsi üçün tədbirlər düşünülür. Universitetinizdə Xalq artisti Roza Cəlilovanın rəhbərliyi ilə "Buta" rəqs ansamblı, Şən və hazırcavablar qrupu, Aydın Ağamalıyevin rəhbərliyi ilə Xalq çalğı alətləri ansamblı, Debat intellektual gənclər klubu - (breyn - rinq) fəaliyyət göstərir, hətta beynəlxalq tədbirlərdə universitetinizi təmsil edirlər. İdman sahəsində də uğurlarınız varmı?Ali məktəb olaraq AzMİU idmançı tələbələrinə dəstək verə bilirmi?*

– Əlbəttə, idmanla məşğul olan tələbələrimiz də var, onların idman etmələri üçün ayrıca idman korpusumuz da. Həmin korpusda tennis, mini-futbolla məşğul olmaq üçün hər cür şərait yaradılıb, trenajorlar qurulub. Elə bu şəraitin olması onların həvəslənməsi, universitetin dəstəyini hiss etmələri üçün böyük amildir. Amma başqa yolları da sınaqdan çıxarırıq. Bu məqsədlə mütəmadi təbliğat aparırıq. Hər il universitetə qəbul olunan tələbələrlə görüşlərimdə onlara ilk tövsiyəm məhz bununla bağlı olur. Onlara mütləq idmanla məşğul olmalarını məsləhət görürəm. İdmanın müsbət cəhətlərindən danışıram. İdmanın onlara verə biləcəyi üstünlükləri sadalayıram. İdman gənclərin insan kimi formalaşmasında çox böyük əhəmiyyətə malikdir. Bu baxımdan bu amilə bizim universitetdə xüsusi diqqət var. Amma idmanı kütləvi şəkildə hamıya sevdirməyə, düzü, nail ola bilmirik. Təəssüf edirəm ki, gənclərimizdə idmana həvəs, demək olar ki, yoxdur. Yəni idmanı ali təhsil müəssisələrində, konkret desəm, bizim universitetimizdə kütləviləşdirmək o qədər də asan deyil.

*– Bəs, gənclər nəyə daha həvəslidirlər?*

– Təəssüf ki, indi gənclər hardasa oturmağa, kompüter və ya telefonla məşğul olmağa daha çox vaxt ayırırlar. Ancaq bu o demək deyil ki, idman sahəsində heç bir uğurumuz yoxdur. Universitetin fəal yığma komandaları mütəmadi olaraq yarışlara qatılır. Güləşin müxtəlif növlərində özünü sınayan və uğur qazanan gənclərimiz çoxdur. Qeyd edim ki, güləşlə həvəslə məşğul olurlar. Güləşin iki növü üzrə, o cümlədən mini-futbol üzrə komandalarmız fəaliyyət göstərir. Həmin komandalar Bakıda keçirilən yarışlarda kifayət qədər fəal iştirak edir, yüksək yerlər tuturlar. Elə bu ay Türkmənistanın Azərbaycandakı səfirliyi ölkəmizin ali məktəb tələbələri arasında futbol yarışı təşkil etmişdi. AzMİU komandası bu yarışda uğurla iştirak etdi. Komandamız futzalda B qrupunda ADNSU və BANM-ı udaraq finala çıxdı. Amma finalda 5-4 hesabı ilə Bakı Mühəndislik Universitetinə uduzaraq bu turniri 2-ci yerdə başa vurdu. Oyunlar universitetimizin meydançalarında keçirildi. Çox istərdim ki, hər tələbəmiz idmanla məşğul olsun. Onlardan böyük gözləntilərimiz də yoxdur. Bizim üçün vacib deyil ki, çətin tapşırıqlar yerinə yetirsinlər, böyük yarışlara çıxıb ciddi nailiyyətlər qazansınlar. Sadəcə, bədən tərbiyəsi ilə də məşğul olsalar, hər tələbəmiz idmanı gündəlik həyatına daxil etsə, bunu özümüzün uğurumuz sayarıq. Tələbələrimizin həvəsini artırmaq, idmanı onların həyatının ayrılmaz hissəsinə çevirmək üçün əlimizdən gələni etsək də, bu məsələdə passivdirlər və bu da məni qane etmir.

*– Tələbələrinizdən başqa nə gözləntiləriniz var? Görüşlərinizdə onlara əsas tövsiyəniz, tələbələrinizdən istəyiniz nə olur?*

– İstər qəbul olunan kimi birinci kurs tələbələri ilə, istərsə də fakültələrdə təşkil edilən ayrı-ayrı görüşlərdə onlara hüquqlarını bilmələrini, tələb etmələrini söyləyirəm. Bizim onlardan ən böyük gözləntimiz məhz budur. Həmişə vurğulayıram ki, kompüter və dil biliklərini inkişaf etdirsinlər. Bu, onların inkişafı baxımından lazımdır. İdmanla məşğul olmalıdırlar, bu da onların sağlamlığı üçün önəmli şərtdir.

### Əsas məqsədimiz odur ki, onları unutmayaq, unutdurmayaq

*– Şəhid tələbələriniz arasında həm azadlıq mübarizəsinin qəhrəmanları, həm də torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olanlar var. Təhsilin məqsədinin vətənpərvər, dövlətinə və millətinə bağlı şəxsiyyət yetişdirmək olduğunu nəzərə alsaq, bu məsələyə diqqət yetirməmək mümkün deyil. Bu istiqamətdə nə edə bilmisiniz, nə etməyi düşünürsünüz?*

– Memarlıq və İnşaat Universitetində tərbiyəvi işin əsasında məhz bu istiqamət dayanır. Universitetimizdə torpaqlarımızın bütövlüyü uğrunda canından keçən çoxsaylı şəhidimiz var. Əsas məqsədimiz odur ki, onları unutmayaq, unutdurmayaq. Müstəqilliyimizin də, ərazi bütövlüyümüzün də kimlərin çiyinləri üzərində dayandığını və onları hər zaman qiymətləndirəcəyimizi hamı bilməlidir. Universitetin binasında şəhidlər guşəsi yaratmışıq. Burada milli qəhrəmanlarımızla, həm 20 Yanvar faciəsində, həm də Qarabağ uğrunda savaşlarda şəhid olanlarla bağlı məlumatlar yerləşdirilib. Milli qəhrəman və qəhrəmanlıq göstərərək şəhid olan tələbələrimizin xatirəsini mütəmadi anırıq. Onlarla bağlı filmlər göstərilir. Ayrı-ayrı fakültələrdə də şəhidlərimizin xatirəsi anılır. Bəzi fakültələrimizdə şəhid tələbələrimizə həsr olunan guşə yaradılıb. Məsələn, memarlıq fakültəsinin tələbəsi ikən Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olan Fuad Əsədovun həmin fakültədə barelyefi var. Nəqliyyat fakültəsində, o cümlədən başqa fakültələrdə də həmin fakültədə təhsil alan, təhsili yarımçıq qalan, yaxud məzun olan şəhid tələbələrimizin büstü qoyulub. Bu cür tədbirlərlə universitetimizə daxil olan gənclərə onlardan əvvəl bu təhsil müəssisəsində oxuyan və ərazi bütövlüyümüz, azadlığımız uğrunda canından keçənləri tanıtdırdığımızı düşünürük. Bununla çalışırıq ki, tələbələrimizdə milli dəyərləri, torpağa bağlılığı, xalqa sevgi hissini inkişaf etdirək. Mart soyqırımı ilə əlaqədar tələbələrimiz qrup şəklində Qubaya getdilər. Orada soyqırım qurbanlarını ziyarət etdilər. Həmin qrupların içərisində əcnəbi tələbələrimiz də vardı. Bu istiqaməti vacibliyinə görə ilk sıraya qoymuşuq və hesab edirəm ki, hələ görüləcək işlərimiz çoxdur.

---



# 700 bal toplayan abituriyent "UNEC-də 1 gün" layihəsində

## O, yeni dərs ilindən bu ali məktəbdə oxuyacaq

Dövlət İmtahan Mərkəzinin II ixtisas qrupu üzrə keçirdiyi qəbul imtahanlarında 700 bal toplayan Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın şagirdi Cahan Həşimzadə "UNEC-də 1 gün" layihəsində iştirak edib.

UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbində maliyyə ixtisası üzrə təhsil almaq istədiyini bildirən Cahan Həşimzadə universitetə hazırlaşdığı gündən hədəfinin UNEC olduğunu açıqlayıb: "UNEC-in nailiyyətlərini yaxından izləyirəm. Seçimimin UNEC olmasının səbəbi çoxdur. Burada təhsilin daha keyfiyyətli olduğunu düşünürəm, imtahanların şəffaf və obyektiv təşkil olunması məni cəlb edir. Universitetə 600-dən yüksək bal toplayaraq qəbul olunan hər kəsə və imtahan sessiyasında fakültə fərqi olmadan hər kurs üzrə ən yüksək nəticə göstərən 15 tələbəyə xüsusi təqaüd verilməsi əladır. Bilirəm ki, 4 il ərzində 2 diplomu ancaq UNEC-də qazana bilərəm. Valideynlərim də UNEC-i tövsiyə edir. Bir sözlə, mənim arzum sadəcə tələbə adını deyil, UNEC tələbəsi adını qazanmaq olub. Son iki il ərzində ən yüksək nəticə göstərən abituriyentlərin seçimi də məhz UNEC idi, hədəfim uğrunda rəqabətin güclü olduğunu bilirdim, ən yüksək nəticəni göstərməliydim. Çalışdım və bacardım!".

C.Həşimzadə ötən tədris ilində 700 bal toplayaraq UNEC-ə qəbul olan Cavad Əliyev və Arzu Məmmədzadə ilə də görüşüb. UNEC-in tələbələri ona beynəlxalq və ikili diplom proqramları, Elektron Universitet Modeli, tədris prosesi barədə ətraflı məlumat veriblər. Bildiriblər ki, UNEC dünyanın qabaqcıl universitetləri olan London Universiteti/London İqtisadiyyat Məktəbi və Fransanın Monpelye Universiteti ilə ikili diplom proqramı həyata keçirir.

C.Həşimzadə ilə birlikdə imtahanlardan 600-dən yüksək bal toplayan dostları da UNEC-in bir günlük tələbələri olublar. C.Həşimzadə DİM-in keçirəcəyi ikinci imtahanlara qatılacaq dostlarına kömək etdiyini də bildirib.

Onlar ingilis dilində iqtisadiyyata giriş fənnini dinləyiblər.

Beynəlxalq İqtisadiyyat Məktəbində unudulmaz bir gün keçirdiyini bildirən Cahan Həşimzadə və dostları yeni tədris ilinə UNEC-də başlayacaqlarını bildiriblər.

# Məktəbdaxili qiymətləndirmə



**Xaləddin NİFTƏLİYEV,**
*Yevlax Şəhər Təhsil Şöbəsi Metodkabinetinin direktoru*

## Müəllimlərin üzləşdikləri çətinliklərdən çıxış yolunu nədə axtarmalıyıq?

Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə təhsil nazirinin 02.09.2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq olunmuş "Müvəqqəti təlimat" əsasında aparılır. Mövcud təlimatın təhsil prosesinə düzgün tətbiq olunmaması təhsilalanlar, təhsilverənlər, hətta valideynlər arasında fikir ayrılığına və narazılıqlara səbəb olur. Odur ki, tez-tez müzakirə obyekti olan qiymətləndirməyə münasibət bildirmək hər birimizin borcudur. Mənə gorə, məktəbdaxili qiymətləndirmənin hər hansı bir növünün ləğvi müzakirə obyekti olmamalıdır, ona görə ki, məqsədləri müxtəlifdir. İndi tətbiq edilən qiymətləndirmə mexanizmləri dünya təcrübəsindən bəhrələnməklə hazırlanmış və yəqin ki, asan başa gəlməmişdir. Dərsliklər və müəllim üçün metodik vəsaitlər də müasir qiymətləndirməyə uyğun yazılmışdır. Müəllimlərin məlum çətinlikləri isə göz qabağındadır. Bunu heç kim inkar etmir. Bəs, çıxış yolunu nədə axtarmalıyıq?

Diaqnostik qiymətləndirmədə müəllimlərin çətinliyi yoxdur.

Dərs ilinin, tədris vahidinin və dərsin əvvəlində aparılır, rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər şagirdin portfoliosunda saxlanılır. Üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir. Məqsədi ilkin səviyyəni müəyyənləşdirməkdir.

Formativ qiymətləndirmədə müəllim səviyyələr üzrə rubriklər hazırlamalı, ona uyğun olaraq "Müəllimin qiymətləndirmə dəftəri"ndə rum rəqəmi ilə, məktəbli kitabçasında isə sözlə gündəlik qiymətləndirmə aparmalıdır. Məqsədi təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, problemləri müəyyən edib aradan qaldırmaqdan ibarətdir.

Rubrikin hazırlanması müəllimdən xüsusi vaxt və yüksək elmi-metodiki hazırlıq tələb edir. Müəllim üçün metodik vəsaitlərdə mövzular üzrə rubriklər verildiyi halda, müəllim nə üçün onu təkrar hazırlamalıdır? Sinifdəki şagirdlərin səviyyəsini qiymətləndirmə apararkən də nəzərə ala bilər.

Standartların həm sinif jurnalında, həm də "Müəllimin qiymətləndirmə dəftəri"ndə təkrar yazılmasının mənası nədir?

Odur ki, "Müəllimin qiymətləndirmə dəftəri"nin sadələşdirilməsi onun əməyini xeyli yüngülləşdirə bilər. Bu dəftərdə şagirdlərin adı və səviyyələrlə qiymətinin məktəbli kitabçasında isə həmin qiymətin səviyyəyə uyğun sözlə yazılması kifayət edər. Hətta formativ qiymətləndirmə dəftərlərində mövzunun adının belə yazılmasına, məncə, ehtiyac yoxdur. Çünki mövzu da, standart da rəsmi dövlət sənədi olan sinif jurnalında yazılır. Əlavə olaraq, müəllim öz dəftəri əsasında hər bir şagirdin yarımillər ərzində fəaliyyətinin qısa təsvirini də hazırlayıb portfolioda saxlayır. Yarımillər ərzində fəaliyyətin qısa təsviri kimi müəllimin məktəbli kitabçasında qiymət yazarkən istifadə etdiyi ifadələrin cəmini və özunun əlavələrini məqsədəuyğun hesab etmək olar.

Məlumdur ki, hər bir müəllimin fəaliyyətində başlıca yeri dərsə hazırlıq tutur. Bunun üçün müəllimlər gündəlik plan tərtib edirlər. Həmin planda dərsin mərhələlər üzrə təhlili verilir. Müəllim üçün metodik vəsaitlə həmin planı tutuşdursaq, təxminən, eyni məzmunun şahidi olarıq. Bu halda, yersiz əmək sərf etməyin nə mənası var? Müəllimin asudə vaxtı çox olmalıdır ki, o, öz əməyini resursların hazırlanmasına və ya internet vasitəsi ilə qabaqcıl təcrübədən istifadə etməklə öz dərsinə yeniliklərin gətirilməsinə sərf edə bilsin.

Rəsmi qiymətləndirmə olan, hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq aparılan kiçik summativ qiymətləndirmədə isə müəllimlər daha çox təminatdan şikayətçidir. İndiki qaydada işləmək üçün hər bir müəllimin iş otağında kompüter və printer olmalıdır. Bunu təmin etmək çox böyük vəsait tələb edir. Belə şəraitdə müəllimlərin bir qismi testlərin çoxaldılmasını şagirdlərə həvalə edir. Bu isə valideynlərin haqlı narazılığına səbəb olur. Bütün bunların yaranmasının başlıca səbəbi müəllimlərin, hətta məktəb rəhbərlərinin bütün üsul və vasitələrdən çox test üsuluna üstünlük verməsidir.

"Müvəqqəti təlimat"ın 4.3-cü maddəsində KSQ vasitələrinin fənni tədris edən müəllim tərəfindən hazırlandığı göstərilir. Şifahi sorğu və ya layihə summativ qiymətləndirmə üsulu deyilmi? Vasitələri uyğun olaraq şifahi sorğu üzrə qeydiyyat vərəqi və şagirdlərin təqdimatı, müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli ola bilər.

Müəllimlər nə üçün bu üsul və vasitələrdən istifadə etmirlər? Müəllimin testlə apardığı KSQ ilə şifahi apardığı KSQ-nin mahiyyətcə nə fərqi var? Hamımız müəllimik. Tutaq ki, apardığımız bir KSQ-də 5 nəfər şagird "qeyri-kafi" qiymət aldı. Həmin qiyməti olduğu kimi jurnala köçürəcəyikmi? İnanmıram, heç özümə də. Müxtəlif vasitələrlə həmin şagirdlərin nəticələrini ya onların layiq olduqları, ya da müəllimin onun üçün nəzərdə tutduğu qiymətə çatdırıb onu jurnala yazacağıq. Deməli, biz hansı qiymət meyarı tətbiq etsək də qiymətləndirmənin tənzimləyicisi, şkalası müəllimdir. Odur ki, Kiçik Summativ Qiymətləndirmələrin şifahi aparılmasını daha faydalı hesab edirəm.

Burada dərslik müəlliflərinin, metodik vəsaitləri hazırlayanların da üzərinə məsuliyyət düşür. Onlar müəllimlərə yalnız testlərin nümunələrini verməklə bu üsulu tövsiyə, məktəb rəhbərləri də göstərişlərə əsaslanıb tələb edirlər.

Mövcud "Qaydalar"a əsasən, müəllim bölmə və ya dərsə uyğun suallar, meyar cədvəli hazırlayıb həmin suallar əsasında şifahi sorğu və ya şagirdin təqdimatı ilə KSQ-lər apara bilər, sualları və cədvəli öz portfoliosunda saxlayar. Şifahi sorğuya aid cədvəli tərtib etmək üçün A-4 vərəqinin bir üzündə KSQ-nin nömrəsi, fənn və şagird haqqında məlumatlar, suallar, digər tərəfində isə bütün şagirdlərin soyadı və adı, hər sual üzrə qiymət yerləri cədvəlləşdirilir. Yekunda orta qiymət çıxarılır və həmin qiymət jurnala köçürülür.

Böyük summativ qiymətləndirmələrin aparılması isə məktəb rəhbərlərinə aiddir. Hətta, BSQ-nin özü də "kiçik imtahan" formasında komissiya tərəfindən verilmiş suallar əsasında, müəllim tərəfindən onların nəzarəti ilə şifahi sorğu və ya layihə üsulunda aparıla bilər.

Məsələnin maliyyə tərəfi də yetərincə dəyərlidir. Summativ qiymətləndirmələrin test üsulu ilə aparılması zamanı ölkə üzrə sərf olunan kağız, texniki xərclər, enerji sərfiyyatı və əməyi dəyərləndirsək, KSQ-lərin şifahi aparılması milyonlarla vəsaitə qənaət etmək deməkdir.

# Şagirdlərdə hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi əsas hədəflərdəndir



**Kamal FƏRƏCOV,**
*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı*

## Bu, şagirdlərdə qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslər yaradır

Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, müasir dövrdə müəllimlərin ən böyük və birinci dərəcəli vəzifəsi şagirdlərdə vətənpərvərlik hisslərini gücləndirmək, onlara vətən üçün yaşayıram fikrini təlqin etməkdir. Milli-mənəvi dəyərlərimizin öyrənilməsində, qorunub saxlanılmasında və inkişaf etdirilməsində ümumtəhsil məktəblərində şagirdlərə aşılanan vətənpərvərlik tərbiyəsi mühüm rol oynayır. Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar - müstəqil vətənimizin keşikçiləri məktəblərimizdə tərbiyə alır və formalaşır. Azərbaycan xalqı bütün zamanlarda gələcəyimiz olan gənc nəslin öz vətəninə, xalqına, soykökünə, ata-babalarımızın bizə miras qoyduğu adət- ənənələrimizə sədaqət və hörmət ruhunda tərbiyə olunmasına böyük məsuliyyətlə yanaşmışdır. Danılmaz faktdır ki, ümumtəhsil məktəblərində təbliğ olunan vətənpərvərlik ideyaları şagirdlərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslər yaradır. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qeyd etdiyi kimi, "Bizim təhsilimizin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq vətənpərvər gənclər yetişdirməkdir. Bununla yanaşı, təhsilimizin məqsədi Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü yetişdirməkdir". Bu gün məktəblərimizdə təkcə bilik, savad verilmir, həm də gənclərə vətənpərvərlik hissi aşılanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq şagirdlərdə vətənpərvərlik ruhunu yüksəltmək üçün muzeylərlə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılır, qədim və zəngin tarixi, mədəniyyəti özündə yaşadan yurd yerlərimizə, tarixi abidələrimizə ekskursiyalar təşkil olunur. Azərbaycanın bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərin keçdiyi şərəfli döyüş yolları, dövlət atributlarımız - bayrağımız, gerbimiz, himnimiz şagirdlərə sevdirilir.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Silahlı Qüvvələrimizin kadr potensialının artırılması və peşəkar zabitlərin yetişdirilməsi məqsədilə 1998-ci ildən muxtar respublikamızda fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialının bazasında 27 fevral 2004-cü il tarixdə Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyinin yaradılması haqqında sərəncam imzalamışdır. Hərbi liseyin yaradılması tarixən Naxçıvan torpağının dünyaya bəxş etdiyi Kəngərlilər kimi peşəkar, təcrübəli, igid və qorxmaz generallar nəslinin davamçılarının yetişməsinə imkan yaratmışdır. Muxtar respublikamızda qədim hərb sənəti ənənələrini yaşatmaq, ixtisaslı və peşəkar kadr hazırlığını daha da təkmilləşdirmək məqsədi ilə yaradılmış Hərbi Lisey müasir informasiya texnologiyaları ilə təmin olunmuş, kursantların hərbi təhsilin sirlərinə dərindən yiyələnməsi üçün lazımi şərait yaradılmışdır. Bu gün liseydə vətənpərvər, yüksək təhsilli, fiziki cəhətdən sağlam və intizamlı gənclər yetişdirilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində şagirdlərin hərbi təhsilə marağını daha da artırmaq, onlarda stimul yaratmaq məqsədilə tərtib edilmiş qrafikə uyğun olaraq Hərbi Liseyə ekskursiyalar təşkil edilmişdir. Ekskursiya zamanı şagirdlər liseydə yaradılmış şəraitlə əyani şəkildə tanış olmuş, kursantlarla birlikdə keçilən dərslərdə iştirak etmişlər.

Muxtar respublikada ordu quruculuğu sahəsində görülən məqsədyönlü və ardıcıl tədbirlər gənclərin hərbi təhsilə olan marağını xeyli artırmışdır. Bunun nəticəsidir ki, Hərbi Liseyə və Xüsusi Təyinatlı Ali təhsil müəssisələrinə qəbul olan şagirdlərin sayı ilbəil artır. 2017-ci ildə Xüsusi Təyinatlı Ali təhsil müəssisələrinə sənəd verənlərdən 1 nəfər Fövqəladə Hallar Akademiyasına, 11 nəfər Sərhəd Xidməti Akademiyasına, 2 nəfər Polis Akademiyasına, 4 nəfər Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına, 1 nəfər Daxili Qoşunların Ali Hərbi Məktəbinə, 1 nəfər Dənizçilik Akademiyasına, 8 nəfər Milli Aviasiya Akademiyasına qəbul olmaqla ümumilikdə 28 nəfəri tələbə adını qazanmışdır.

Son illər muxtar respublikamızda tikilib istifadəyə verilən yeni məktəb binaları laboratoriyalar, kitabxanalar, elektron lövhəli siniflərlə yanaşı, dünya standartlarına cavab verə biləcək hərbi kabinetlərlə daha da zənginləşdirilmişdir. Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisinin yüksək səviyyədə təşkil edilməsi üçün ümumtəhsil məktəblərində hərbi kabinələri dövlət atributlarımız, milli qəhrəmanların portretləri, milli ordumuzda istifadə olunan silah və hərbi texnikanın sökülüb-yığılmasını və onlardan istifadə qaydalarını əks etdirən stend və güşələrlə, eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilmişdir. Bu fənnin tədris olunmasının əsas məqsədi gəncləri ölkənin müdafiəsinə hazırlamaq, Azərbaycan Respublikası Konstitusiyasından və qanunlarından, Silahlı Qüvvələrin nizamnamələrinin tələblərindən irəli gələn vəzifələri öyrənməli, gələcəyin əsgərləri və peşəkar zabitləri olacaq şagirdlərin hərb sahəsi üzrə yüksək bilik və bacarıqlara yiyələnməsindən, onlarda vətənpərvərlik ruhunun gücləndirilməsindən ibarətdir.

Hər il mütəmadi olaraq Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram", "Şahin", "Sərhəd" hərbi-idman oyunları keçirilir. Bu oyunlar gənclərin fiziki cəhətdən sağlam böyüməsinə, hərbi-vətənpərvərlik tərbiyəsinin geniş şəkildə təbliğ olunmasına, kütləvi şəkildə hərbi-idman oyunlarına cəlb edilməsinə, onlarda vətənə sevgi və məhəbbət hissinin aşılanmasına öz müsbət təsirini göstərir. Muxtar respublikamızın sərhədyanı bölgələrində yerləşən ümumtəhsil məktəblərində şagirdlərin vətənimizin tarixinə, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyə olunması, onlarda sərhədçi peşəsinə marağın artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında ümumtəhsil məktəblərimizin "Sərhəd" hərbi-idman oyunları sahəsində əldə olunan nailiyyətləri xüsusi yer tutur. 2017-ci ildə Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin komandası Lənkəran rayonunda keçirilən "Sərhəd" hərbi-idman oyununun respublika mərhələsində muxtar respublikamızı uğurla təmsil etmiş və I yerə layiq görülmüşdür. Bu sahədə əldə olunan uğurlar davamlı xarakter almış, "Vətənin müdafiəsinə hazıram" poliatlon üzrə muxtar respublika birinciliyində qalib gələn Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin komandası Xaçmaz rayonunda keçirilən yarışda respublika birincisi olmuşdur. Bununla yanaşı Şərur rayonunun Oğlanqala kənd tam orta məktəbinin komandası "Vətənin müdafiəsinə hazıram" poliatlon üzrə Mingəçevir şəhərində keçirilən yarışda uğurla iştirak etmiş və respublika ikincisi olmuşdur.

Bu gün məktəblərimizin qarşısında qoyulan ən ali məqsəd şagirdlərə hərbi vətənpərvərlik hissini aşılamaq, onları vətənimizin fəal müdafiəsinə hazırlamaq, həmişə ayıq-sayıq olmaq, daim öz üzərlərində çalışıb bilik və bacarıqlarını daha da artırmaq, vətənimizin hərbi qüdrətini hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün məktəblə ailənin birliyi nəticəsində uşaqlarda vətənə, xalqa məhəbbət hissinin aşılanması davamlı olaraq həyata keçirilməlidir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun birgə təşkilatçılığı ilə hərbi rəhbərlərin ordu quruculuğu sahəsində bilik və bacarıqlarının mütəmadi olaraq artırılması, hərbi texnikanın sirlərinə yaxından bələd olması, eyni zamanda şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların hərbi xidmətə psixoloji və fizioloji cəhətdən hazırlığının yüksək səviyyədə təşkil edilməsində hərbi rəhbərlərin rolunun daha da gücləndirilməsi məqsədilə təlim-məşq toplantıları keçirilmişdir. Muxtar respublika rəhbərliyi tərəfindən hərbi rəhbərlərə yüksək səviyyədə diqqət və qayğının göstərilməsi, onların pulsuz mövsümi geyim formaları ilə təmin olunması, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin təhsildə xüsusi nailiyyətləri olan müvafiq fənn müəllimlərinin əməyinin qiymətləndirilməsi çağırışaqədərki hazırlıq rəhbərlərinin öz işlərini günün tələbləri səviyyəsində qurmasına, bilik və bacarıqlarının artırılmasına geniş imkan yaradır.

Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Fəaliyyət Planında qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar olaraq şagirdlərin kitabxanalara cəlb edilməsi, onların fiziki sağlamlığının daim nəzarətdə saxlanılması, şagirdlərə yüksək səviyyədə psixoloji xidmətin göstərilməsi, qloballaşan dünyamızda gənc nəslin xarici dil fənninə olan marağının daha da artırılması aktual məsələlər, dərslərin müasir təlim metodları ilə keçirilməsi və təhsil sahəsində qəbul edilmiş yeniliklər müzakirə olunur. Eyni zamanda nazirliyin əməkdaşları mütəmadi olaraq muxtar respublikanın ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi səviyyəsinin yüksəldilməsi, çağırışaqədər hazırlıq rəhbərlərinin fəaliyyətinin gücləndirilməsi, onların ixtisasları üzrə bilik və bacarıqlarının daha da artırılması məqsədilə metodiki köməklik göstərir, məktəb kollektivinin, valideynlərin və şagirdlərin iştirakı ilə seminarlar təşkil edir, gənc nəslin torpağa və millətə sədaqət ruhunda tərbiyə olunması istiqamətində maarifləndirici tədbirlər həyata keçirirlər.

# Dünyanın ən güclü təhsil sistemləri

## 75 ölkə üzrə aparılan tədqiqatlarda 4 kriteriya əsas götürülüb

*Təhsil dünyada olduqca əhəmiyyətli hesab olunan amillərdən biridir, lakin o, hələ də hər ölkədə eyni səviyyədə deyil. Qərblilər elə hesab edir ki, onların təhsil sistemi ən yaxşısıdır, lakin bu, belə olmaya da bilər. Beləliklə də dünyanın ən güclü təhsil sistemi hardadır?*

Böyük Britaniyanın təhsil xidmətləri göstərən “QS World University Rankings” agentliyinin ən son tədqiqatı dünyanın ən yaxşı təhsil sistemlərinə həsr olunub. Reytinqə əsasən Amerika Birləşmiş Ştatları 2018-ci il üzrə dünyanın ən yaxşı təhsil sisteminə malik ölkələrin sıyahısına başçılıq edir. QS reytinqi bütün dünyada ali təhsil sistemlərini müqayisə edib və onları 4 əsas kriteriya üzrə qiymətləndirib: sistemin gücü (universitetlər reytinqlərdə necə işləyirlər), əlyetərliyi (bu ölkədə insanlar asanlıqla ali təhsilə giriş imkanı əldə edə bilirmi), aparıcı ali təhsil müəssisəsi (ölkənin ən yaxşı universiteti nə dərəcədə yaxşı işləyir) və iqtisadi kontekst (ali təhsilə milli investisiyaların təsiri). Mümkündür ki, Birləşmiş Ştatların dörd əsas göstəricidən hər biri üzrə mükəmməl nəticəyə nail olması təəccüblü deyil. Birləşmiş Krallıq 4 göstərici üzrə ilk 5-likdə ikinci yerdə təmsil olunub. Digər ölkələrdən Sinqapur və Çin bəzi göstəricilər üzrə daha yaxşı nəticələr nümayiş etdiriblər. Məsələn, Sinqapur reytinqdə bir göstərici üzrə 4-cü yeri tutub. Çin isə iqtisadi kontekstdə ikinci yerdə qərarlaşıb. Builki tədqiqata toplam olaraq 75 ölkə cəlb olunub, onlardan 50 ölkə reytinqdə yer alıb. Reytinq hazırlanarkən ali təhsilin inkişafına daha çox investisiyalar qoyan və universitet təhsilinin yüksək əlyetərliyi ilə seçilən ölkələr diqqətdə saxlanılıb. Reytinqlə daha ətraflı *https://www.topuniversities.com/system-strength-rankings/2018* səhifəsindən tanış olmaq olar.

### Reytinqin metodologiyası

*Sistemin gücü.* Bu göstərici ölkənin bütün müvafiq kriteriyalara cavab verən ali təhsil müəssisələrinin effektivliyinin qiymətləndirilməsi yolu ilə bütövlükdə milli ali təhsil sisteminin ümumi durumunu əks etdirir. Məhz ayrıca götürülmüş bir ölkə üçün bu göstərici QS versiyasına görə dünyanın ən yaxşı 700 universitet arasına daxil olan ali məktəblərin sayının bu ali məktəblərin orta reytinq əmsalına bölünməsi yolu ilə hesablanır. Hədəf hər ölkənin qlobal reytinqdəki yerini tam surətdə təqdim etməkdir.

*Əlyetərlik.* İkinci kateqoriya ali məktəbin əlyetərliyi ilə əlaqədardır, bu isə indiki dövrdə ən aktual məsələ hesab olunur. Çünki hazırda bütün ölkələr dünya səviyyəli ali təhsil almaq üçün əlyetərlik imkanlarını genişləndirməyə çalışırlar. İstənilən ölkə üçün birinci dərəcəli vəzifə beynəlxalq aləmdə tanınan universitetlərdə tələbə yerlərinin yetərli sayının təmin olunmasıdır. Bu göstərici QS versiyasına görə dünyanın 500 ən yaxşı ali təhsil müəssisəsi siyahısına daxil olan universitetlərdə yerlərin sayının bu ölkə əhalisinin ümumi sayına bölünməsi yolu ilə əldə olunur. Bu göstəricidə hədəf ölkə sakinlərinin dünya səviyyəli universitetlərdə yer almaq imkanlarını yüksəltməkdir.

*Aparıcı ali təhsil müəssisəsi.* Beynəlxalq birlikdə əlçatan maliyyə vəsaitlərinin ölkənin ali təhsil sisteminə daxil olan bütün müəssisə və təşkilatlar arasında bərabər bölməyin və yaxud bütün diqqətin yalnız dünya səviyyəli bir univertsitetə yönəldilməsinin zəruriliyi mübahisə mövzusudur. Ölkənin aparıcı universitetinin öz mövqeyini birbaşa investisiyalar sayəsində və ya ölkənin başqa təhsil müəssisələri ilə rəqabət hesabına gücləndirməsindən asılı olmayaraq belə bir ali məktəbin mövcudluğu konkret ölkənin bütün ali təhsil sisteminin ümumi reytinqini yüksəldir. Bu, müvafiq ölkənin aparıcı universitetinin beynəlxalq səhnədə müvəffəqiyyətini əks etdirən standartlaşdırılmış göstəricidir. Bu göstərici belə bir ilkin şərtə əsaslanır ki, ölkənin aparıcı ali təhsil müəssisəsinin effektivliyi ümumi təhsil sistemi üçün kreditdir.



*İqtisadi kontekst.* Heç də bütün ölkələr və ya onların ali təhsil müəssisələri maliyyə mənbələrinə bərabər girişə malik deyil. Ölkənin iqtisadi inkişafının səviyyəsindən başqa, ali təhsilin maliyyələşdirilməsində müəyyən mədəniyyət və ənənələrin mövcudluğunu da nəzərə almaq lazımdır, məsələn sahə üzrə maliyyələşdirmə və ya məzunların ianələri. Bu göstəricidə iki əsas amil nəzərə alınır. Birincisi, konkret ölkənin ali təhsilinin büdcə maliyyələşdirməsinin ölçüsü. İkincisi, ayrılan və əldə olunan maliyyənin nəticələrinin müqayisəli yolu ilə bu vasitələrdən istifadənin effektivliyi. Göstəricinin hesablaması zamanı əmsallardan (ilk 100-lüyə daxil olan universitetlərə 7, 101-200-lükdə olanlara 6, 201-300-lükdə olanlara 5, 301-400-lükdə olanlara 4, 401-500-lükdə olanlara 3, 501-600-lükdə olanlara 2, 601-700-lükdə olanlara 1 bal verilir) istifadə olunur ki, onlar da adambaşına ÜDM göstəricisi ilə müqayisə edilir. Beləliklə də sonuncu göstərici, hər bir ölkədə maliyyə vəziyyətinin beynəlxalq reytinqin göstəriciləri ilə müqayisə yolu ilə milli investisiyaların ali təhsil sisteminə təsirinin qiymətləndirilməsinə yönəldilib.

| Reytinq | Ölkə | Topladığı bal | Sistemin gücü | Əlyetərlik | Aparıcı ali məktəb | İqtisadi kontekst |
|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 100 | 100 | 100 | 100 | 100 |
| 2. | Birləşmiş Krallıq | 98.6 | 98.7 | 97.6 | 99.5 | 98.3 |
| 3. | Avstraliya | 93.8 | 91.6 | 99.3 | 97.6 | 86.7 |
| 4. | Almaniya | 93.4 | 94.3 | 97.1 | 91.1 | 91 |
| 5. | Kanada | 90.4 | 86.8 | 96.7 | 96.1 | 82 |
| 6. | Fransa | 86.8 | 86.8 | 82.5 | 94.4 | 83.7 |
| 7. | Niderland | 84.9 | 89.3 | 87.7 | 92.7 | 69.8 |
| 8. | Çin | 84.5 | 88.9 | 52.7 | 96.9 | 99.4 |
| 9. | Cənubi Koreya | 83.5 | 82.6 | 72.2 | 95.4 | 83.9 |
| 10. | Yaponiya | 82.1 | 86.7 | 61.2 | 96.5 | 84 |
| 11 | İtaliya | 77.8 | 74.8 | 93.3 | 69.3 | 74 |
| 12 | İspaniya | 75.7 | 74 | 81.1 | 72.7 | 75.2 |
| 13. | İsveçrə | 75.6 | 78.5 | 76.5 | 98.9 | 48.6 |
| 14. | İsveç | 74.8 | 73 | 83.4 | 88.7 | 54.1 |
| 15. | Rusiya | 73.8 | 75.6 | 48.3 | 85.6 | 85.8 |
| 16. | Yeni Zelandiya | 73.7 | 64 | 86 | 88 | 56.6 |
| 17. | Belçika | 73.2 | 67.4 | 83.5 | 89.9 | 51.8 |
| 18. | Honkonq | 71.2 | 73.8 | 69.3 | 96.8 | 44.7 |
| 19. | Tayvan | 70.6 | 70.3 | 62.9 | 89.1 | 60.2 |
| 20. | Finlandiya | 66.6 | 58.3 | 73 | 84.3 | 50.9 |
| 21. | Argentina | 65.7 | 49.5 | 57.5 | 89.3 | 66.6 |
| 22. | Danimarka | 64.1 | 54 | 78.1 | 89.6 | 34.8 |
| 23. | Braziliya | 62.4 | 54.1 | 37.1 | 80.5 | 77.7 |
| 24. | İrlandiya | 58.9 | 49.8 | 71.6 | 86.9 | 27.1 |
| 25. | Malayziya | 58.6 | 50.1 | 46.3 | 81.9 | 56.1 |
| 26. | Hindistan | 58.1 | 62.7 | 2.7 | 68.8 | 98.4 |
| 27. | Avstriya | 55.1 | 43.7 | 72.1 | 73.1 | 31.6 |
| 28. | Sinqapur | 55 | 46.9 | 64.6 | 98.8 | 9.7 |
| 29. | İsrail | 53.7 | 42.3 | 57.9 | 75.2 | 39.3 |
| 30. | Norveç | 51.4 | 43.3 | 65.8 | 75.9 | 20.5 |
| 31. | Meksika | 51 | 32.3 | 38.6 | 80.3 | 52.9 |
| 32. | Çili | 50.8 | 30.7 | 53.7 | 77 | 41.9 |
| 33. | Cənubi Afrika Respublikası | 47 | 32.3 | 27.4 | 63.9 | 64.3 |
| 34. | Kolumbiya | 46.6 | 32.7 | 44.4 | 46.4 | 62.8 |
| 35. | Portuqaliya | 46.3 | 38.7 | 73.7 | 33 | 39.8 |
| 36. | Səudiyyə Ərəbistanı | 45.1 | 38 | 49.9 | 68.5 | 24.1 |
| 37. | Qazaxıstan | 42.5 | 37.6 | 35 | 51.6 | 45.7 |
| 38. | Tailand | 34.9 | 23.1 | 22.5 | 49 | 44.8 |
| 39. | İndoneziya | 34.2 | 23 | 15.4 | 39.8 | 58.5 |
| 40. | Livan | 31 | 15.9 | 16.8 | 51.9 | 39.4 |
| 41. | Çexiya Respublikası | 30.4 | 19.8 | 55.2 | 29.4 | 17.2 |
| 42. | Misir | 27.8 | 9.4 | 50.9 | 10.6 | 40.4 |
| 43. | Türkiyə | 24.4 | 32.4 | 17.3 | 6.6 | 41.2 |
| 44. | Ukrayna | 23.7 | 16.1 | 14.4 | 8.5 | 55.9 |
| 45. | Filippin | 20.8 | 8.7 | 10 | 16.2 | 48.5 |
| 46. | Polşa | 18.6 | 14.1 | 38.5 | 7 | 14.6 |
| 47. | Estoniya | 17.5 | 8.5 | 24.5 | 29.4 | 7.8 |
| 48. | Yunanıstan | 15.1 | 17.3 | 18.6 | 9.4 | 14.9 |
| 49. | Belarus | 15 | 4.6 | 19.9 | 24.1 | 11.2 |
| 50. | Pakistan | 14.7 | 6.5 | 0.2 | 4.5 | 47.6 |



*Harvard Universiteti*



*Oksford Universiteti*

## Süni intellekt müəllim rolunda özünü sınayıb

Çində hər dörd məktəbdən biri (təxminən 60.000 məktəb) əsasında süni intellektin dayandığı tədris proqramlarının test imtahanlarında iştirak edib. Çinin “South China Morning Post” qəzetinin məlumatına görə, süni intellekt proqramının işlənib hazırlanmasına nə az, nə çox, 10 il vaxt sərf olunub. O, şagirdlərin yazdığı esseləri avtomatik qiymətləndirməyi, habelə onların səhvlərinə diqqət yetirməyi bacarır.

Hesabata görə, 92 faiz hallarda süni intellekt və insan tərəfindən qiymətləndirmə üst-üstə düşüb. Bu, əslində, qiymətləndirmədə üzə çıxan anlaşılmazlıqları minimuma endirmək, müəllimlərin qiymətləndirmə prosedurlarına ayırdıqları iş vaxtını azaltmaq üçün ciddi faktdır.

“Gələcəkdə texnologiyalardan, hər şeydən əvvəl, müəllimin yükünün azaldılması üçün istifadə edilə bilər, amma o, heç vaxt müəllimləri əvəz etməyəcək. Maşının ürəyi yoxdur”, - deyə istehsalçılardan biri auditoriyanı sakitləşdirməyə çalışıb. Pekin Tədqiqat Mərkəzində çox güclü kompüterlərdə işləyən proqram insan dilinin başa düşdüyü şəkildə tez öyrənir. O, həmçinin qiymətlə bağlı qeydləri və müəllimlərin şərhlərini də nəzərə ala bilər.

120 milyondan çox uşaq robot tərəfindən qiymətləndirilib, lakin məlum olub ki, onlardan çoxunun valideyninə bu haqda heç nə deməyiblər. Hərçənd ki, bu, qanunvericilik səviyyəsində qadağan və sınaq yekun testləri deyil, cari işləri əhatə edib, artıq cəmiyyətdə müəyyən etik mübahisələr başlayıb.

## Dünyada təhsilə ayrılan vəsaitlərin həcmi rekord həddə artıb

### YUNESKO-nun yeni hesabatı açıqlanıb

YUNESKO-nun rəsmi saytının məlumatına görə, təhsil sahəsində monitorinq üzrə Ümumdünya hesabat qrupu tərəfindən hazırlanmış son proqram sənədində göstərilir ki, 2015 -2016-cı illər arasında təhsil məqsədləri üçün ayrılmış maliyyə vəsaitlərinin həcmi 1,5 milyard ABŞ dolları həcmində artaraq rekord həddə - 13,4 milyard dollara çatıb. Bu, 2002-ci ildən aparılan statistikaya əsasən təhsilə ayrılan vəsaitlərin 13 faiz artması deməkdir.

Mayın 24 -də Parisdə Avropa Ali Təhsil Məkanına üzv ölkələrin təhsil nazirlərinin konfransında (EHEA) çıxış edən YUNESKO-nun Baş direktoru Odri Azule proqram sənədin nəticələri barədə məlumat verib. Sənəddə qeyd edilir ki, “bu artım inkişafın məhək daşı kimi donorlar tərəfindən təhsilin daha sıx tanınmasının pozitiv əlamətidir. Davamlı inkişaf sahəsində təhsilin bütün səviyyələrini əhatə edən 4 ambisiyalı istiqamətə xarici və daxili maliyyələşmənin həcmini artırmadan nail olmaq mümkün deyildir”.

“Təhsilin hədəflərinə kömək: artımın yenilənməsi?” sənədində göstərilir ki, 2016-cı ildə maliyyə yardımının üçdə iki hissəsi baza təhsilinin məqsədlərinə sərf olunub. Baza təhsilinin maliyyələşdirilməsinə ayrılan vəsaitlərin tam yarısı ABŞ, Birləşmiş Krallıq və Ümumdünya bankı kimi dünyada 3 əsas donorun payına düşür. Digər tərəfdən, yardım kimi baza təhsilinin məqsədlərinə ayrılan vəsaitlərdə ümumdaxili məhsulun payına gəlincə, Norveç Birləşmiş Ştatlardan 12 dəfə çox vəsait ayırıb.

Son məlumatlar göstərir ki, gənclərin yarıdan azı orta məktəbi bitirir. Əgər Norveçin nümunəsi üzrə bütün inkişaf etmiş və bir sıra inkişaf etməkdə olan ölkələr öz milli gəlirlərinin 0,7%-i və təhsil ehtiyaclarına göstərilən köməyin 10 faizi həcmində yardım göstərmək öhdəliyi götürsəydilər, onda orta təhsilin ümumi tamamlanmasını təmin etmək üçün kifayət qədər resurslar olardı.

Təhsilin monitorinqi üzrə Ümumdünya hesabat qrupunun direktoru Manos Antoninis prioritetlərin yenidən baxılmasına çağırıb: “Qlobal təhsil sahəsində inkişafı sarsıdan maliyyələşdirmə boşluğunun doldurulması üçün donorların baza və orta təhsilə, eləcə də dünyanın ən kasıb ölkələrinə daha çox diqqət ayırması lazımdır”. Ancaq o xəbərdarlıq edib ki, bu, gəlir səviyyəsi orta həddən aşağı olan ölkələrin təhsil sahəsində üzləşdiyi əhəmiyyətli problemləri həll etməyəcək”.

**Səhifəni hazırladı:** *Oruc MUSTAFAYEV*

## Məktəblilərin əl işlərindən ibarət "Xeyriyyə yarmarkası"

Gənc Müəllimlər Birliyinin təşəbbüsü ilə "Xeyriyyə yarmarkası" təşkil edilib.

Yarmarkanın keçirilməsində əsas məqsəd Şəmkir Distant təhsil mərkəzində inklüziv təhsilə cəlb olunmuş fiziki qüsurlu şagirdlərə əldə olunan gəlirdən Ramazan bayramı münasibəti ilə hədiyyələr təqdim etməkdir.

Yarmarkada məktəblilərin çəkdiyi rəsm əsərləri, hazırladıqları əl işlərindən ibarət müxtəlif bəzək əşyaları, suvenir, maket və başqa maraqlı əşyalar satışa çıxarılıb. Məktəblilərin ifasında musiqi səsləndirilib. Yarmarkada həmcinin gənc müəllimlər birliyində üzv olan skautlar assosiasiyasının nümayəndələri maraqlı oyunlar təşkil ediblər. Həm böyüklərin, həm də uşaqların səbirsizliklə gözlədiyi bu yarmarka şəhərdə əsl bayram əhvali-ruhiyyəsi yaradıb.

Xeyriyyə yarmarkasında rayon rəsmiləri, təhsil şöbəsinin nümayəndələri, müəllimlər, şagirdlər və şəhər əhalisi iştirak ediblər.

**Kənan İBRAHİMOV,**
*Şəmkir Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Nizami Gəncəvi Məqbərəsinə ekskursiya ediblər

Samux Rayon Təhsil Şöbəsinin tabeliyində fəaliyyət göstərən Zazalı kənd tam orta məktəbinin şagirdləri Azərbaycanın dahi şairi Nizami Gəncəvinin Məqbərəsinə ekskursiya ediblər.

Ekskursiyanın təşkil edilməsində məqsəd dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə məktəbliləri daha yaxından tanış etmək olub.

Ekskursiya zamanı məktəblilər Məqbərədə saxlanılan Nizami Gəncəvinin öz əl işlərindən ibarət yazı nümunələri, yaşadığı dövrdə istifadə etdiyi libaslarla yaxından tanış olublar.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Birincilərin "Əlifba bayramı"

Şəki şəhər 11 nömrəli tam orta məktəbdə 1 "a" və 1 "d" siniflərində "Əlifba bayramı" keçirilib. Tədbirdə təhsil şöbəsinin nümayəndələri, müəllimlər, valideynlər və şagirdlər iştirak edib.

Tədbirin keçirilməsində əsas məqsəd şagirdlərə ana, vətən, torpaq məhəbbətini aşılamaq, onların qazandıqları bilik və bacarıqlara qiymət verməkdir.

"Əlifba bayramı"nda böyük səvinclə məharətlərini nümayiş etdirən birincilər şeirlər söyləyib, mahnılar ifa ediblər. Tədbirdə çıxış edən məktəb rəhbərliyi və valideynlər birincilərə təbriklərini çatdırıb, qarşıdakı tədris ilində onlara uğurlar arzulayıblar.

"Əlifba bayramı" birincilərin rəqs və mahnı kompozisiyaları ilə sona çatıb.

**Mahal MƏMMƏDOV,**
*Şəki Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## Kurikulum - uğura aparan yol

**Tağı NƏBİYEV,**
*Ucar rayon Heydər Əliyev adına Qazıqumlaq kənd 2 nömrəli tam orta məktəbin tarix müəllimi*

Azərbaycan dövlətinin bütün sahələr üzrə apardığı müdrik siyasət təhsil sahəsində də özünü qabarıq şəkildə göstərməkdədir.

Son dövrlərdə həyata keçirilən təhsil islahatları ardıcıl, əlaqəli və bir-birini tamamlayıcı olmaqla, nəticəyə hesablanmış fəaliyyət proqramıdır. Azərbaycan təhsilinə kurikulumun tətbiqi, fəal və interaktiv təlimin ənənəvi təhsildən ön plana keçməsi təhsil müəssisələrimizin fəaliyyətlərinin canlanmasına səbəb olub.

Müasir Azərbaycan şagirdlərinin təhsil almaları üçün dövlət tərəfindən ən yüksək səviyyədə şəraitin yaradılması, eləcə də müasir təlim metodlarının tətbiq edilməsi şagirdlərin tutumlu biliyə, müasir dünyagörüşünə sahib olmalarına müsbət təsir göstərir.

Kurikulumun şagirdyönümlü, şəxsiyyətyönümlü olması, eləcə də interaktivliyi onun dəyərini artıran əsas xüsusiyyətlərdəndir. Kurikulumun üstünlüyü şagirdlərin müstəqil həyata hazırlanmasını təmin etməsidir. Kurikulumun tətbiqi şagirdlərlə bərabər müəllimlərin də öz üzərlərində işləmə məsuliyyətini artırmışdır. Ənənəvi təhsildən fərqli olaraq kurikulum, eləcə də fəal-interaktiv təlim şagirdləri hazır bilikləri şablon şəklində mənimsəmək vərdişindən uzaqlaşdırıb tədqiqatçıya çevirərək öz araşdırması nəticəsində əldə etdiyi biliyi analiz edərək özününküləşdirmək vərdişinə yiyələndirir. Məhz buna görə də yeni təlim metodları ilə dərs alan şagird öyrəndiyi biliyin elmi əsaslarını dərk edərək yadda saxlama müddətini kifayət qədər artırmış olur.

Buna səbəb şagirdin yeni təlim metodları nəticəsində dar çərçivədə olsa da bir tədqiqatçıya çevrilməsidir. Əlbəttə, yeni təlim metodlarında müəllimin də xüsusi payı var. Mən tam məsuliyyətlə bildirirəm ki, yeni təlim metodları ənənəvi təhsildən fərqli olaraq müəllimin kifayət qədər geniş və dərin ixtisas biliklərə malik olmasını tələb edir. Elə yeni təhsil konsepsiyasının uğurlu və üstün cəhəti də budur. Məhz bunun nəticəsidir ki, şagirdlər geniş dünyagörüşə, hərtərəfli biliyə malik şəxsiyyət kimi formalaşa bilirlər.

Nəticənin belə olması müəllimlərin fasiləsiz çalışmasını şərtləndirən yeni təhsil metodlarının məntiqi nəticəsi kimi qiymətləndirilə bilər.

Bu nəticə, obrazlı ifadə etməli olsaq son olaraq xalqımızın gələcəyi olan gənclərin kamil, xalqına, dövlətinə yararlı bir şəxsiyyət kimi yetişməsinə əsaslı təsir göstərərək parlaq təhsil baharını gətirib. Son illərin təhsil statistikasına nəzər salsaq böyük məmnunluq hissi ilə qeyd edə bilərik ki, təhsilimizdə özünü göstərən bahar iqlimi xalqımızı və dövlətimizi gücləndirəcək gənclər bağını əlvan çiçəklərlə bəzəmişdir.







# Müəllimin parkı

## Və yaxud bataqlığı gülüstana çevirən Qoşqar Qarayev

**Kənan İBRAHİMOV,**
**Nurəddin BABAYEV**

Məktəb sadəcə universitetlərə tələbə, ya da orduya qəhrəman hazırlamır. Məktəb gələcəyə insan, dövlətə vətəndaş yetişdirir. Bu da bir həqiqətdir ki, vətən təəssübü çəkən oğul, vətəndaş mövqeyi nümayiş etdirən ziyalı, lazım gələrsə, əlinə silah alıb torpaqlarını qoruyan əsgər, lazım gələndə də bel-kürək götürüb torpağa can verən zəhmətkeş olmağı bacaran insan yetişdirmək sadəcə dərs proqramları, dərsliklərlə olmur. Yazılanlar, onları təsdiq edən nümunələr varsa, qüvvətli olur. Həmin örnək bir müəllimdir.

O, öz davranışı ilə şagirdlərinə, həmkarlarına, qonum-qonşularına, hətta həmvətənlərinə nümunədir. İllər öncə Qarabağın işğaldan azad olunması üçün canını ortaya qoyan, indi isə vətənin bataqlığını qurutmaq, boz çöllərini yaşıllaşdırmaq üçün qolunu çirməyən, maaşını belə əsirgəməyən birindən söhbət gedir. Yəqin fikirləşəcəksiniz ki, vətən üçün canından keçməyə hazır birinin pul xərcləməsi fədakarlıq kimi niyə təqdim olunsun? Ancaq nəzərə alanda ki, barəsində danışdığımız şəxs gündəlik gəliri olan biri deyil, ayda bir dəfə ailə büdcəsinə daxil olan maaşla dolanan müəllimdir, o zaman bu təəssübkeşliyin miqyasını təsəvvür etmək elə də çətin olmaz.

### Bir müəllim şagirdlərinə göstərməlidir ki...

Hərbi Dəniz Akademiyasından məzun olan leytenant Qoşqar Qarayev ehtiyatda olan zabitdir, Qarabağ müharibəsi veteranıdır. 2000-ci ildən Goranboy rayon Borsunlu kənd 2 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edir. Həyata keçirdiyi təşəbbüslə nəinki məktəbində, rayonunda, hətta bütün ölkədə nümunə ola bilər: "Uzun illərdir ki, təhsil sistemində çalışıram. Bu müddət ərzində təlim-tərbiyəsində iştirak etdiyim şagirdlərin ölkəmiz üçün faydalı insan kimi böyüməsinə yardımçı olmağa çalışdım. Sağlam gələcək haqqında düşünürsüzsə, buna sadəcə məktəbdəki təhsillə nail olmaq çətindir. Onlara nümunə olmaq lazımdır. Bir müəllim şagirdlərinə göstərməlidir ki, insan hər vəziyyətdə vətəninə, dövlətinə, millətinə faydalı olmağa çalışmalıdır. Kimin nəyə gücü çatırsa, bir işin qulpundan yapışmalıdır. Mən də qulpundan yapışa biləcəyim bu fikri reallaşdırmaq qərarına gəldim".

### Bataqlıqda gül bitirən müəllim

Beləliklə, Qoşqar müəllim öz şəxsi imkanları hesabına yaşadığı kənddə park salıb. Özü də 10 sot ərazini əhatə edən yararsız torpaq sahəsində. Düşünüb ki, həmkəndliləri asudə vaxtlarında gəlib onun saldığı yaşıllıqda dincəlsinlər: "Parkın ərazisi əvvələr bataqlıq idi. Ərazini mənə vermələri üçün bələdiyyəyə müraciət etdim. O gündən gecəmi gündüzümə qatdım. Əvvəl bataqlığı qurutmaq üçün bura təxminən 140 ton torpaq tökdürdüm. Daha sonra parkda dekorativ güllər və həmişəyaşıl ağaclar əkdirdim. Parkın mərkəzində 14 metrlik bayraq ucaltdıq. Bir insan əli ilə çölü gülüstana çevirmək olar, bunun üçün sadəcə istəmək və işləmək lazımdır".

### Ağılda fikir, ürəkdə təpər varsa, cib boş olsa...

İş görmək, vətəninə faydalı insan olmaq üçün qəlbində istək vardı. Ağlına gələn fikri reallaşdırmaq üçün təşəbbüs göstərdi. İnsanın düşünən beyni, iş görmək həvəsi ilə çırpınan ürəyi varsa, qollarında gücü, dizlərində taqəti qalırsa, fikri qətidirsə, cibdə nə qədər pul olmasının elə bir əhəmiyyəti qalmır. Qoşqar müəllim məhz bunu sübut etdi: "Əlbəttə, çətinliklər çox oldu. Həm maddi cəhətdən çətinlik çəkdim, həm də kömək edəcək insanlar baxımından. Bütün çətinliklərin öhdəsindən tək gəldim. Qarşılaşdığım çətinliklər məni fikrimdən daşındırmadı, əksinə, qətiyyətimi artırdı. Gündən-günə daha da əzmlə çalışaraq istəyimi həyata keçirə bildim".

### Müəllimin xəyalları qanadlananda

Park yaşıllaşdıqca, Qoşqar müəllimin xəyalları da qanadlanır. Onun düşüncələrindəki parkın ərazisi indikindən dəfələrlə böyükdür: "Gələcəkdə parkın ərazisini daha da genişləndirmək istəyirəm. Çoxlu planım var. Təməlini qoyduğumuz fəvvarə meydanını başa çatdırmaq, həmişəyaşıl ağacların və güllərin sayını artırmaq istəyirəm".

Sizcə, bir müəllimin qurduğu xəyallar, reallaşdırdığı layihə uşaqsız olarmı: "Parkın ərazisini genişləndirməyə nail olduqdan sonra isə uşaqların da əylənməsi üçün yelləncək və başqa avadanlıqlar quraşdırılmasını istəyirəm".

Beləliklə, Qoşqar müəllim tədris etdiyi fənlə qəhrəman, seçdiyi həyat tərzi ilə layiqli vətəndaş yetişdirməyə xidmət edir. Yolun açıq, təşəbbüslərin real olsun, ey hörmətli müəllim!

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələri haqqında qələmə aldığı uğur hekayəsini, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Məqsəd səmərəli məktəb yaratmaqdır

## Qabaqcıl təcrübənin tətbiqi inkişaf üçün yeni imkanlar yaradır



**Tahirə ŞÜKÜROVA,**
*39 nömrəli tam orta məktəbin direktoru*

Məktəb təkcə şagirdə bilik verilən məkan deyil, həm də onun özünü tanıdığı, arzularının yarandığı, gələcəyə baxışının formalaşdığı yerdir. Ona görə də ümumi təhsil müəssisələrinin fəaliyyəti səmərəli qurulmalı, inkişaf üçün əlverişli mühit yaradılmalıdır ki, məktəblilər gələcəkdə ölkəmizə fayda verə biləcək bir vətəndaş kimi yetişə bilsinlər. Yəni bu günün şagirdi məktəbin ona bəxş etdiyi imkanlardan istifadə edərək gələcəkdə öz həyatını səmərəli qurmalı və bununla da Vətənə, xalqa layiqli bir şəxsiyyət kimi yetişməlidir.

Məktəbdə işi səmərəli qurmaq, uğur əldə etmək və əlverişli mühit formalaşdırmaq üçün ilk növbədə konkret plan hazırlanmalı, hədəflər, eləcə də məqsədə çatmaq üçün həyata keçirilməli olan tədbirlər müəyyənləşdirilməlidir. Təlimdə ehtiyac və maraqlar nəzərə alınmalı, keyfiyyətə üstünlük verilməlidir. Həmçinin, ümumi təhsil müəssisəsi lazımi avadanlıqlarla təmin edilməli, qərarların qəbulu zamanı kollektivin rəyi nəzərə alınmalı, məktəbdaxili qiymətləndirmə mexanizmi yaradılmalı, valideynlərlə sıx əlaqə qurulmalıdır. Bütün bunlarla yanaşı, məktəbdə hər kəsin işinə məsuliyyətlə yanaşması da vacib məsələlərdəndir.

### Müəllim şagird üçün gələcəyə yol açır

Günü-gündən inkişaf edən və yenilənən təhsilimizdə baş verən proseslərdə valideynlərin kənarda qalması mümkün deyil. Buna görə də valideynlərin təhsil ocağı ilə sıx əlaqə saxlaması, məktəbdə və təhsilimizdə gedən proseslərdə bilavasitə iştirakı çox vacibdir.

Rəhbərlik etdiyim təhsil müəssisəsində də bu məsələyə xüsusi diqqət yetirilir. Belə ki, amerikalı alim Edqar Deylin "School building" adlı piramida üsuluna əsaslanan məktəbin İnkişaf Planında valideynlərlə sıx əlaqə qurulub və mütəmadi olaraq valideyn iclasları çağırılır, əldə olunan nailiyyətlər və qarşıda duran məsələlər müzakirə edilir. Eyni zamanda, valideynlər dinlənilir, qərarların qəbulu zamanı onların təklif və tövsiyələri diqqətdə saxlanılır.

Müəllimlərin peşəkarlıq səviyyəsini müəyyənləşdirmək və qiymətləndirmək üçün valideynlərlə şagirdlər arasında anonim sorğular keçirilir. Sorğuların nəticələri əsasında müəllimlərin müntəzəm olaraq öz üzərlərində çalışması və müxtəlif kurslarda iştirak etməsi təmin olunur.

Həmçinin, məktəbdə ildə 1 dəfə müəllimlərin peşəkarlıq səviyyəsi qiymətləndirilir. Qiymətləndirmədə müəllimin özü, Təlimə Dəstək Mərkəzinin nümayəndələri, direktor, eləcə də şagird iştirak edir. Bu zaman müəllimin dərin biliyə malik olması, tədris texnologiyalarına yiyələnməsi, şagirdlərdə fənnə maraq oyatmaq bacarığı və digər bu kimi amillər əsas götürülür. Nəticələr aşağı, orta, yüksək və əla səviyyələrindən ibarət olmaqla, müvafiq balla qiymətləndirilir. Bu hal müəllimlərin fəaliyyətinin artırılması üçün daim çalışmalarına zəmin yaradır, eləcə də onlar arasında sağlam rəqabət mühitini formalaşdırır.

Çin mütəfəkkiri Konfutsi deyib: "Alicənab müəllim şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır, arxasınca dartmır, onda maraq oyadır, məcbur etmir, ona yol göstərir və yolu sərbəst getməyə imkan yaradır". Doğrudan da müəllimlə şagird arasında sərbəst münasibətlərin qurulması, məktəblinin bilik qazanmasının asanlaşdırılması, ona düşünmək imkanının verilməsi və gələcəyə hazırlanması pedaqoji məharətdir. Bu məharəti özündə birləşdirən müəllimlər dərs dedikləri şagirdlərə düşünmək imkanı verir, onlar üçün gələcəyə yol açır. Rəhbərlik etdiyim məktəbdə də müəllimlərlə şagirdlər arasında münasibətlər məhz bu prinsip üzərində qurulub.

### Yeniliklərlə zəngin fərqli iş

Məktəbin pedaqoji kollektivi yaxşı bilir ki, qloballaşan dünyaya savadlı, Vətənini, dövlətini, xalqını sevən, tarixi keçmişini dərindən bilən, hədəflərə çatmağı bacaran şəxsiyyət yetişdirmək qarşıya qoyulan əsas perspektiv məsələlərdəndir. Təhsil müəssisəsinin işi də məhz bu istiqamətdə qurulub.

**Məktəbdə ildə 1 dəfə müəllimlərin peşəkarlıq səviyyəsi qiymətləndirilir. Qiymətləndirmədə müəllimin özü, Təlimə Dəstək Mərkəzinin nümayəndələri, direktor, eləcə də şagird iştirak edir. Bu zaman müəllimin dərin biliyə malik olması, tədris texnologiyalarına yiyələnməsi, şagirdlərdə fənnə maraq oyatmaq bacarığı və digər bu kimi amillər əsas götürülür. Nəticələr aşağı, orta, yüksək və əla səviyyələrindən ibarət olmaqla, müvafiq balla qiymətləndirilir. Bu hal müəllimlərin fəaliyyətinin artırılması üçün daim çalışmalarına zəmin yaradır, eləcə də onlar arasında sağlam rəqabət mühitini formalaşdırır.**

Rəhbəri olduğum məktəbdə hər gün dərs prosesi Azərbaycanın Dövlət himninin oxunması və Milli Qəhrəman Rafiq Nəsrəddinovun büstünün önünə gül dəstələrinin qoyulması ilə başlayır. Bununla şagirdlərə dövlət atributlarına hörmət etmələri, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşən və şəhid olan Vətən övladlarını heç zaman unutmamaları aşılanır.

Bundan əlavə, məktəb həyatının canlanmasına xidmət edən bir sıra tədbirlər, o cümlədən "açıq dərs", "dəyirmi masa", konfrans və seminarlar keçirilir. Məqsəd isə şagirdlərin istedadını üzə çıxarmaq, təfəkkür və məntiqinin inkişafına nail olmaq, onları sərbəst düşüncə və idraki fəallığa sövq etmək, eləcə də mədəniyyətli və ünsiyyətcil şəxsiyyətlər yetişdirməkdən ibarətdir.

Tədbirlər çərçivəsində tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinin məktəblilərə öyrədilməsinə xüsusi fikir verilir. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti şagirdlərə örnək olaraq öyrədilir, akademik Zərifə Əliyevaya həsr olunmuş tədbirlər keçirilir. Həmçinin, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar geniş Tədbirlər Planı hazırlanıb və bu istiqamətdə böyük işlər görülür.

Məktəbin həyata keçirdiyi tədbirlər arasında IX və X sinif şagirdlərinin "Xocalıya ədalət" kampaniyasına qoşularaq Türkiyənin Ankara və Bursa, Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərlərində yerləşən məktəblərin şagirdlərinə Xocalı soyqırımına aid video və foto materiallar göndərmələri xüsusi əhəmiyyət daşıyır. Həmçinin, məktəblilər Xocalı mövzusunda broşürlər hazırlayaraq ictimaiyyət arasında da yayıblar.

Milli Azərbaycan Tarixi Muzeyi ilə əməkdaşlıq çərçivəsində "Şəhidlər ölməz, Vətən bölünməz", "Qəhrəmanlar unudulmur" və digər adlarla tədbirlər keçirilib. Bu tədbirlər şagirdlərə vətənpərvərlik hissinin aşılanması baxımından unudulmaz olub.

Məktəbdə şagirdlərin ədəbiyyata marağının artırılması, mütaliə vərdişlərinin formalaşdırılması və inkişafı məqsədilə görkəmli yazıçılarla görüşlər təşkil olunur, onların yubiley tədbirləri qeyd edilir. Həmçinin, klassik və müasir yazıçıların əsərləri oxunur, müzakirələr aparılır, tamaşalar hazırlanır. Tədbirlərin təşkili zamanı Qarabağ mövzusuna üstünlük verilir. Araşdırmalar da göstərir ki, belə tədbirlər şagirdlərin mütaliəyə olan maraq və həvəsini artırır.

Bir məsələni də qeyd edim ki, məktəb Azərbaycanda bir ilkə imza atıb. Belə ki, təhsil müəssisəsinin müəllim, şagird kollektivi və məktəbin məzunu, hazırda Türkiyənin Aydın Universitetinin rejissorluq fakültəsində təhsil alan Fərid Müslümün birgə əməkdaşlığı ilə yazıçı-publisist Günel Anarqızının "Keçmişə sarı" əsərinin motivləri əsasında bədii film çəkilib. Məktəb kollektivi tərəfindən reallaşdırılan bu yenilik təhsil müəssisəsini bundan sonra müstəqil layihələr həyata keçirməyə daha da həvəsləndirib.

### Hədəfə doğru

Bildiyimiz kimi, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 3-cü istiqamətində təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə nəzərdə tutulur.

Görülən işlərin nəticəsidir ki, 2013-cü ildə rəhbərlik etdiyim 39 nömrəli tam orta məktəb "İlin ən yaxşı ümumi təhsil məktəbi" adına layiq görülüb. Məktəbin məzunlarının buraxılış və qəbul imtahanlarında göstəriciləri isə ilbəil artır. Onlar arasında qızıl medal və Fəxri fərmanlara layiq görülənlər də var.

Bir məsələni də vurğulamaq istərdim ki, məktəbdə uğur qazanılmasında idarəetmənin düzgün qurulmasının mühüm əhəmiyyəti var. İdarəetmənin təşkilində isə məktəb direktorunun üzərinə böyük məsuliyyət düşür. Məktəb direktoru məsuliyyətli və ədalətli olmalı, hər zaman çətinliklərin öhdəsindən gəlməyi bacarmalıdır. Həmçinin, iradəli, səbrli, təmkinli və qarşıya qoyduğu hədəflərə çatmağa inamı olmalıdır. Eyni zamanda, məktəb rəhbəri Vətənin, dövlətin, xalqın maraqlarını öz mənafeyindən üstün tutmalıdır. Çünki məktəb rəhbərinin, müəllimin nöqsanı gələcəyimiz olan şagirdlərin düşüncəsində silinməz izlər qoya bilər, bu isə yolverilməzdir.

Sonda bildirirəm ki, məktəbdə əldə olunan uğurlarla məktəb kollektivi kifayətlənmir, əksinə, "Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində kollektivin hər bir üzvü təhsildə və təlimdə daha yüksək nailiyyətlər əldə etmək üçün inam və əzmlə çalışmaqda davam edir. Hər kəs uğurların davamlı olacağına və səmərəli məktəb modelinin yaxın vaxtlarda formalaşacağına inanır.



# Azərbaycanlı tələbə beynəlxalq konqresdə çıxış edib

**Oruc MUSTAFAYEV**

26-27 may tarixlərində Türkiyənin Əskişəhər Anadolu Universitetində Əskişəhər Azərbaycanlılar Dərnəyi, Türk Dünyası Uyğulama Mərkəzi tərəfindən "100 ilində azərbaycan Cümhuriyyəti" adlı beynəlxalq konqres keçirilib. Konqresdə Türkiyənin ali məktəblərinin müəllim və professor heyətləri, eləcə də Azərbaycandan gəlmiş qonaqlar istirak ediblər. Konqresdə Türkiyədə təhsil alan azərbaycanlı tələbə Aysel Əliyeva da çıxış edib. Qeyd edək ki, Aysel Əliyeva Bakı şəhəri 175 nömrəli məktəbin məzunudur. 6 ildir ki, Türkiyədə təhsil alır. Türkiyə Ayfon Kocatepe Universitetinin turizm fakültəsini bitirib. Hazırda həmin universitetin magistr tələbəsidir. Hələ mart ayından bu beynəlxalq konqresdə iştirak etmək üçün tələbələr tərəfindən 600 məqalə göndərilib. Çıxış üçün 600 məqalədən yalnız 20-si seçilib. Və Ayselin yazdığı elmi məqalə seçilən 20 məqalənin içində 8-ci olub. O, bu beynəlxalq konqresdə uğurla cıxış edib. Çıxışına görə konqresin sonunda təşəkkürnamə ilə təltif olunub. Aysel Əliyevanın çıxışı "Azərbaycanda turizm və ərəb turistlərinin Azərbaycan haqqında düşüncələri" mövzusunda idi. Türkiyədə magistr təhsili alan və təhsilini doktoranturada davam etdirmək istəyən, müxtəlif tədbir və mərasimlərdə ölkəmizi təmsil edib və Azərbaycanın adını şərəflə uca tutan bu gənc azərbaycanlı qızına uğurlar arzulayırıq.

# Bakı məktəbliləri SDU-da

Mayın 30-da Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət"in) birgə həyata keçirdiyi "Məktəblinin dostu" layihəsi çərçivəsində Bakıda yerləşən 284 nömrəli tam orta məktəbin bir qrup şagirdi Sumqayıt Dövlət Universitetində olub.

Şagirdləri SDU-nun humanitar məsələlər üzrə prorektoru, dosent Ramiz Hüseynov qəbul edib. O, ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə sağlam mühitin formalaşdırılması istiqamətində gerçəkləşən müxtəlif layihələrdən, eləcə də "Məktəblinin dostu" layihəsinin əhəmiyyətindən bəhs edib. Bildirib ki, pilot olaraq 2016-cı ilin dekabrından Bakının 30 məktəbində başlanılan "Məktəblinin dostu" layihəsinin məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz, sağlam mühitin yaradılması, ilk tibbi və psixoloji yardımın göstərilməsi, mütəmadi olaraq şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə maarifləndirmə və diaqnostik işlərin aparılmasıdır. Qeyd olunub ki, son zamanlar məktəblə universitet arasında əlaqələrin qurulması artıq ənənə halını alıb. Bu da universitetlə orta məktəb arasında əlaqələri genişləndirir, şagirdlər universitet haqqında geniş məlumat əldə edir və gələcək ali təhsil müəssisələri üzrə seçimləri haqqında fikir formalaşdırır.

Prorektor şagirdlərə universitetin yaranma tarixi, mövcud ixtisaslar və gələcəkdə ölkəmiz üçün vacibliyi nəzərə alınaraq açılacaq ixtisaslar haqqında da ətraflı məlumat verib.

Sonra şagirdlər universitetin tədris binalarına ekskursiya ediblər. Gələcəyin tələbələri gəzinti zamanı universitetin Heydər Əliyev Mərkəzində, ayrı-ayrı fakültələr, auditoriyalar və laboratoriyalarında, TEMPUS otağı, kitabxana və tədris otaqlarında, kompüter və informasiya mərkəzində, Linqvistik mərkəzdə, idman zalında olublar. Həmçinin universitetin həyətində inşa edilən şahmat lövhəsi, süni örtüklü futbol meydanı, voleybol və basketbol meydançaları, stolüstü oyunlar üçün qurulan köşklərlə və burada yaradılan şəraitlə də yaxından tanış olan 284 nömrəli tam orta məktəbin nümayəndələri universitetdə olmaqdan məmnunluqlarını dilə gətirib, görüşə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Bakı İdarəetmə və Texnologiya Kollecində yubiley tədbiri



Fərəhlə qeyd edə bilərik ki, xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü Respublika Günü olaraq təntənə ilə qeyd edir. Bu münasibətlə Bakı İdarəetmə və Texnologiya Kollecində (BİTK) də tədbir keçirilib.

Tədbiri giriş sözü ilə kollecin direktoru, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Faiq Şahbazlı açıb. O, bildirib ki, 1918-ci il mayın 28-də AXC-nin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Cəmi 23 ay ərzində mövcud olan və müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən AXC xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olub. Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlərlə Azərbaycan xalqının tarixində parlaq səhifə yaradıb.

F.Şahbazlı vurğulayıb ki, 1991-ci ildə müstəqilliyini yenidən bərpa, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə gətirilməsindən sonra daha da inkişaf edən, beynəlxalq aləmin nüfuzlu üzvünə çevrilən, Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqazın lider dövləti olan müasir Azərbaycan 1918-1920-ci illərdə cəmi 23 ay ərzində mövcud olan AXC-nin siyasi varisidir. O, tələbə gənclərə üz tutaraq, onları müasir, müstəqil Azərbaycanı daha dərindən sevməyə, daim ölkəmizin inkişaf etməsi, tərəqqisi üçün çalışmağa səsləyib. Tədris istehsalat işləri üzrə direktor müavini, tarix müəllimi Şakir Mikayılov AXC-nin yaranması, həyata keçirdiyi islahatlar, yeni dövlətin beynəlxalq əlaqələri, həmçinin cümhuriyyətin süqutu, buna səbəb olan amillər, o dövrdəki siyasi-tarixi reallıqlar, cərəyan edən proseslər barədə geniş söz açıb.

Çıxışlardan sonra kollec tələbələrinin aparıcılığı ilə bədii hissəyə başlanılıb. Tələbələrin ifasında müstəqilliyimizi, dövlətçiliyimizi təbliğ edən şeirlər, mahnılar səsləndirilib, milli rəqs nümunələri göstərilib.

Sonda kollecin direktoru F.Şahbazlı bədii hissəni təşkil edən müəllim və tələbələrə təşəkkürünü bildirib.



**Günel SEYİDOVA,**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin baş məsləhətçisi*

# Dərslik necə yazılmalıdır...

Məktəbdə sağlam və məhsuldar tədrisin həyata keçirilməsi üçün müasir tədris vəsaitlərinin rolu danılmazdır. Əsaslı biliklərin təmin edilməsində digər tədris vəsaitlərilə müqayisədə dərsliklər ən önəmli yerə sahibdir. Dərslik tədris prosesində istifadə edilən əsas tədris vəsaitlərindən biridir. Dərsliklər tədris baxımından istifadə asanlığı olan, hər şagirdin əldə edəcəyi, biliklərin bilavasitə olaraq verildiyi, davamlı istifadə olunan, hər an müraciət edilən, şifahi təhsilin boşluqlarını doldura bilən bir vasitədir.

“Dərslik necə yazılmalıdır” sualı yəqin ki, hamını maraqlandırır, əsasən də dərslik yazmaq istəyənləri. Dərslikləri həmin sahənin mütəxəssisləri - müəllifləri yazır. Dərsliklər yazılarkən ali və orta ixtisas təhsil müəssisələri üçün hazırlanan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.2010-cu il tarixli 75 və 76 nömrəli müvafiq qərarları ilə təsdiq edilmiş “Ali təhsilin dövlət standartı və proqramı”na və “Orta ixtisas təhsilinin dövlət standartı və proqramı”na uyğun olaraq ali təhsilin bakalavriat və magistratura səviyyələrinin ixtisasları, eləcə də orta ixtisas təhsilinin subbakalavr hazırlığı üzrə Təhsil Nazirliyinin təsdiq etdiyi təhsil proqramlarında göstərilən fənlər, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.06.2010-cu il tarixli 103 nömrəli qərarı ilə təsdiq olunmuş “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)”na uyğun olaraq ümumi təhsil üzrə Təhsil Nazirliyinin ən son təsdiq etdiyi təhsil proqramları (kurikulumları) əsasında yazılmalı, rəssam, korrektor, dil üzrə mütəxəssis, psixoloq tərəfindən baxılmalı, redaktor tərəfindən redaktə edilməlidir. Bəs müəllif (müəlliflər) dərslik yazarkən mövzuları necə seçməlidir?

Müəllif dərslik yazarkən ilk növbədə mövzuların yazılması üçün lazım olan statistik və akademik məlumatları və kitabları əldə etməli, istifadə edəcəyi resursların etibarlı olmasına diqqət yetirməlidir ki, gələcəkdə plagiat hallarına və elmi mübahisə doğuran məsələlərə yol verilməsin. Daha sonra məlumatın elektron və ya yazılı qaynaqlarına daxil olmalı və onları kompüterdə bir qovluqda saxlamalıdır. Mövzuları yazmaq üçün lazım olan əsaslı qaynaqlar əldə edildikdən sonra ən azı bir həftə ərzində bu qaynaqları diqqətli bir şəkildə oxuyaraq mövzuları mənimsəməlidir. Fikirlərini yazmaq üçün motivasiya olan müəllif ilk növbədə bölmələri hazırlamalı, sonra mövzuları müəyyənləşdirməli, mövzularda istifadə ediləcək əsas anlayışları yazmalıdır. Mövzunun yazılmasında istifadə olunacaq məlumatlar diqqətlə yazılmalı, kitabın sonunda ədəbiyyat siyahısında göstərmək üçün lazımi qeydlər edilməlidir. Müəllif mövzu haqqında kifayət qədər biliklərə yiyələndikdən sonra yazma mərhələsinə keçə bilər. Yazı işin ən çətin hissəsidir. Müəllif təhsil prosesində iştirak edirsə, dərslik yazmaq daha asan və səmərəli olacaq. Dərsliklərin təlimdəki funksiyalarının ən yaxşı şəkildə yerinə yetirilməsi üçün kitabların bədii tərtibatı və məzmunu düzgün işlənməli, bütün mövzular eyni üslubda olmalıdır. İlk öncə mövzunun başlığında təhsilalanın diqqətini çəkəcək görüntüdən və ya şəkildən istifadə edilməli, mövzu dövrün maraqlarına uyğun işlənməlidir. Dərsliyin məzmunu düşündürücü, mövzuların həcmi, dil-üslub təhsilalanın yaş səviyyəsinə uyğun olmalı, sadədən mürəkkəbə, asandan çətinə doğru ardıcıllığa və müasirliyə diqqət edilməlidir. Ayrıca mövzuların davamında istifadə olunacaq rəsmlər üçün rəssam - dizayn ekspertindən kömək alaraq lisenziyalı və ya orijinal olaraq çəkilən rəsmlər seçilməlidir ki, irəlidə qarşısına lisenziya və müəllif problemi çıxmasın. Lazımlı olan statistik məlumatlar, şəkillər müəyyən edilməlidir. Müəllif mövzunu formalaşdırdıqdan sonra ilk növbədə düşünməlidir: “Mən bu anda sinifdə olsam, bu mövzuya şagirdin diqqətini necə çəkə və necə təqdimat edə bilər, dərsi necə danışardım?”. Təqdimatı bir musiqiyləmi, bir plakat və ya fotoşəkilləmi, fərqli bir material və ya maraqlı bir obyektləmi etməli? Müəllif mövzunu yazarkən müəllimin sinifdə və ya sinifdənxaric etdirəcəyi fəaliyyətləri, cəlbedici sual və ifadələri səhifənin fərqli yerlərində xüsusi işarələr halında verməlidir. Daxil olmaq üçün onlayn səhifələr varsa, onlar göstərilməlidir. Müəllif təhsilalanın yaddaşında psixolojik izlər buraxması üçün öz resurslarının təhlükəsizliyinə diqqət yetirməlidir. Bununla yanaşı, yazdıqlarının təhsil proqramında (kurikulumda) təyin olunmuş saatların uyğunluğuna diqqət etməli, müəllimin mövzunu sinifdə necə izah edəcəyinə və ya dərs saatında bitirib bitirməyəcəyinə nəzər yetirməlidir. Mövzuda izah ediləcək məsələlərdə bir axıcılıq və sxematiklik olmalıdır. Beləliklə, təhsilalanın mövzunu asanlıqla qavramasına zəmin hazırlanır. Mövzunun sonunda təhsilalana bu mövzudan öyrəndikləri barədə suallar və tədqiqat çalışmaları verilməli, suallar təhsilalanın qazandığı bilikləri özündə yoxlamaqla yanaşı, anlama və tətbiqetmə bacarığını da inkişaf etdirməlidir. Müəllif hər bir mövzu üzrə qoyacağı hədəfə çatmalıdır. Daxil edilmiş yeniliklər istifadəçilər tərəfindən başa düşüləcəkmi? İnformasiya təklifi ilə vərdiş qazanılması arasında tarazlıq gözlənilirmi? Metodoloji göstəricilər sinifdə dərsin təşkilinə dair tələblərə cavab verirmi? Dərsliyin dili anlaşıqlıdırmı və s (bax: “Dərslik necə olmalıdır?” Bakı-2003). Bu suallar hazırlanarkən ekspert köməyinə müraciət edilə bilər.

Hər bir dərs təhsilalanın bilmə, anlama, tətbiq və analiz etmə, həyati bacarıqlarını inkişaf etdirməli, mövzularda millilik, dünyəvilik, dəyəryönümlülük və gender bərabərliyi prinsipləri gözlənilməlidir. Dərslikdə istifadə olunan şrift və ölçüləri, şərti işarələr dünyada qəbul edilmiş standartlara uyğun olmalıdır. Mövzular yazıldıqdan sonra redaktə olunmalı, mütəxəssis-ekspertlər tərəfindən qiymətləndirilməlidir. Yazılanlar səslə oxunub qiymətləndirilə, zəruri hallarda düzəlişlər oluna bilər. Son qiymətləndirmələr edildikdən sonra yazılan mövzular redaktor tərəfindən təkrar baxılmalı və düzəlişlər edilməlidir. Bununla da mövzuların yazılması tamamlanır. Bütün bölmələr və mövzular bu şəkildə yazıldıqdan sonra səhifələrin texniki tərtibat (səhifələrin sayı, format, rənglərin sayı və s.) və dizayn mərhələsinə keçilir. Müəllifin yazdıqları ilə əlaqədar qrafik-rəssamın təcrübəsinə əsasən daha gözəl illüstrasiyalar ortaya çıxa bilər. İllüstrasiyalar müəllif ilə rəssamın sıx əməkdaşlığı şəraitində hazırlanır. Beləliklə də dərsliyin yazılması bitdikdən sonra redaktor tərəfindən yekun olaraq redaktə olunur, mütəxəssislər tərəfindən qiymətləndirilir. Bir dərsliyin yazılma müddəti müəllif və ya müəllif qrupundan asılı olsa da, ideal olaraq 6 ay-1 il müddətinə yazıla bilər.

**Müəllif dərslik yazarkən ilk növbədə mövzuların yazılması üçün lazım olan statistik və akademik məlumatları və kitabları əldə etməli, istifadə edəcəyi resursların etibarlı olmasına diqqət yetirməlidir ki, gələcəkdə plagiat hallarına və elmi mübahisə doğuran məsələlərə yol verilməsin.**




# Mediaplanlama, mediaiqtisadiyyat, informasiya texnologiyaları

**Rüstəm QARAXANLI**

## Müasir jurnalistika təhsilinin aparıcı istiqamətləri

Jurnalistika təhsili ilə bağlı birinci yazımızda qeyd etmişdik ki, İspaniya KİV-i hazırda dünyada ən məşhurlar sırasındadır. Bu ölkədə həm qəzetlər, həm də elektron media kifayət qədər inkişaf edib. O qədər ki, dünyanın əksər media orqanları ispan telekanalları, yaxud dövri mətbuatının yayımladığı xəbər və reportajlara istinad edirlər. Təbii ki, bütün bunlar İspaniyada keyfiyyətli jurnalistika təhsili olmadan mümkün deyildi.

Hesab olunur ki, İspaniya KİV sahəsində ali təhsil almaq üçün ideal ölkədir. Məsələn, Rusiyada fəaliyyət göstərən jurnalistlər müvafiq təhsil almaq məqsədilə mütləq bu ölkənin ali məktəblərinə müraciət etməyi məsləhət görürlər. Peşəkarlardan təhsil görmək gələcək karyeranın uğurlu olması üçün atılmış ilk və ən vacib addımdır. İspan ali təhsil sisteminə görə, məzun mütləq təcrübə keçməlidir. Jurnalist təhsili verən ali məktəblər nəinki istisna deyil, hətta bu istiqamətdə daha irəliyə gediblər: hər bir nüfuzlu universitet mütləq həm İspaniyanın, həm də dünyanın bir sıra aparıcı KİV orqanları ilə müqavilələrə malikdir. Mövcud anlaşmalara əsasən, bu ali məktəblərin məzunları həmin media təmsilçilərində təcrübə və ixtisasartırma kursları keçməlidirlər.

İSPANİYAdakı qanuna görə, ali təhsili yalnız universitetlər (Centro) verə bilər. “Centro”lar üç kateqoriyaya ayrılırlar: Dövlət, özəl və kilsənin himayəsində olan ruhani təhsil ocaqları. İspaniyanın ali məktəblərinin tərkibində digər ölkələrdə universitet təhsilinə alternativ sayılan müxtəlif tipli tədris müəssisələri fəaliyyət göstərir. Jurnalistika təhsilindən danışırıqsa, söhbət aşağıdakılardan gedir:

- Universitet fakültələri (facultades universitarias) - ali təhsilin hər 3 mərhələsini əhatə edir, ancaq texniki təhsil vermirlər;
- Universitet məktəbləri (escuelas universitarias) - tələbəni yalnız ali təhsilin ilk pilləsinə çatdırma səlahiyyətinə malikdirlər;
- Universitet kollecləri - tədris proqramı ənənəvi universitet proqramları ilə analoji xarakter daşısa da, peşəkar yön vermə imkanlarına malik deyillər.

İspaniyada üç təhsil növü var:

- Tələbənin dərslərdə mütləq iştirak etməsini tələb edən ADİ təhsil;
- İki peşə alan şəxslər üçün nəzərdə tutulan AXŞAM təhsili;
- Qiyabi təhsil bazasında təşkil olunan, həm özəl, həm də dövlət xarakterli MƏSAFƏLİ təhsil.

İspaniyada ali təhsil sentyabrın sonu-oktyabrın əvvəlində başlayır. İl iki semestrdən ibarətdir. Ancaq bundan əvvəl «Curso de Orientacion universitaria» (COU) deyilən xüsusi peşəkar təmayüllü kurs keçilməlidir. Kursun əsas məqsədi abituriyenti qəbul imtahanı - “Selectividad”a hazırlamaqdır. Abituriyent ümumi təhsil səviyyəsini göstərmək üçün iki yazılı sınaqdan keçməlidir. Birinci sınağa əsasən, abituriyentin ispan dili və ədəbiyyatı biliyi öyrənilir, xarici dil və fəlsəfə üzrə test də buraya daxildir. İkinci sınaqda isə abituriyentin seçdiyi peşə üzrə 4 fəndən test imtahanı verilir. İspaniyada tələbəliyə namizədlərə tələblər olduqca sərtdir.

İspaniya təhsil sistemində bizə qeyri-adi gələcək fərqlər var. Məsələn, bakalavriat iki kursdan ibarətdir ki, burada tələbələrə humanitar predmetlər, sosial elmlərdən dərs deyilir. Bakalavriatı bitirmiş şəxs ali təhsilin ilk mərhələsini başa vurmuş olur. Magistratura ikinci mərhələdir, onu bitirən şəxs magistr adını alır. Bundan sonrakı mərhələni bitirənə isə universitetin özünün müəyyən etdiyi “Master”, “Diplomado”, “Experto” adları verilir.

İTALİYAda jurnalist təhsilini bir neçə ali məktəb verir. Bunlar Roma Dövlət Universiteti - “La Sapiensa”, Florensiya, Peruca və Milan dövlət universitetləri, Milandakı Bikokki Universitetidir. İtaliyada daha bir ali məktəb - Milandakı “Müqəddəs Ürək” Universiteti də jurnalist hazırlayır ki, adından da göründüyü kimi, bu təhsil ocağı katolik kilsəsinin himayə və təsirindədir. Güman ki, buradakı jurnalist təhsili də müvafiq olaraq katolik kilsəsinin tələb və tələbatları əsasında həyata keçirilir.

Qəbul edilmiş ümumi yanaşmaya əsasən, İtaliyada jurnalist peşəsinə yiyələnən şəxs aşağıdakı keyfiyyətlərə sahib olmalıdır:

- kommunikasiyalar sferasında baza biliklərinə yiyələnməlidir, jurnalistika və mədəniyyət, ictimaiyyətlə əlaqələr və redaksiya-nəşr sahəsində müstəqil qərar qəbul etmək bacarığına malik olmalıdır;
- müasir informasiya və kommunikasiya texnologiyalarından baş çıxarmalıdır;
- PR texnologiyalarını bilməli, bu bacarıqlarından həm özəl sahibkarlıq sektorunda, həm də mədəni irsin mühafizəsi ilə məşğul olan dövlət struktur və təşkilatlarında istifadə etməyi bacarmalıdır;
- elektron və çap media qurumlarında jurnalist və redaktor kimi işləyə bilməlidir;
- iki əcnəbi dil bilməli, onlardan işində həm şifahi, həm də yazılı şəkildə istifadə edə bilməlidir;
- italyan dilini mükəmməl bilməlidir;
- ssenari, reklam və jurnalistika məzmunlu mətnlərin üzərində işləmək üçün baza biliklərinə sahib olmalıdır və s.

İtaliyada jurnalist təhsili 3 il çəkir və sonda məzuna “Kommunikasiya sahəsində mütəxəssis” adı verilir. Qanunvericiliyə əsasən, bu adı almış şəxs aşağıdakı peşələr üzrə fəaliyyət göstərə bilər:

1. Jurnalist - İtaliyada peşəkar jurnalist mütləq Jurnalistlər Birliyinin üzvü olmalıdır. Bu peşə adətən iki istiqamətə ayrılır: jurnalistika ilə yanaşı, yazıçılıq və bu kimi fəaliyyət sahələri ilə də məşğul olan “publisistlər” və sırf jurnalistika sahəsində işləyən “peşəkarlar”. Yeri gəlmişkən, Jurnalistlər Birliyinin üzvü olmaq üçün bu sahədə minimum 18 aylıq fəaliyyət tələb olunur. Ancaq bu da son deyil: üzvlük üçün müraciət edən şəxs jurnalistika sahəsini əhatə edən imtahan-testdən keçməlidir.

2. Baş redaktor, redaksiya layihəsinin rəhbəri. Prinsipcə, bu peşə sahiblərinin səlahiyyət və məsuliyyət dairəsi hər yerdə olduğu kimi, İtaliyada da eynidir.

Son bir neçə ildir FİNLANDİYAnın orta təhsili bir “təhsil möcüzəsi” olaraq müzakirə və mübahisə obyektinə çevrilib və bu mövzuya biz də dəfələrlə toxunmuşuq. Ancaq bu ölkənin ali təhsil sistemi bir növ diqqətdən kənarda qalıb. Odur ki, Finlandiyada jurnalistika təhsili prizmasından ümumi ali təhsil sisteminə qısa nəzər yetirməyə çalışaq.

Beləliklə, Finlandiyada ali təhsil iki paralel sektorlarla təmsil olunur: universitetlər və professional institutlar. Professional institutlar adətən regional çoxtəmayüllü ali məktəblərdilər. Buraya daxil olmaq üçün abituriyentin ya gimnaziya attestatı, ya da orta professional təhsil diplomu olmalıdır. Universitetlərdən fərqli olaraq professional institutlara gimnaziyaları bitirmiş, lakin buraxılış imtahanlarını verməmiş şəxslər də daxil ola bilərlər. Qanunvericiliyə əsasən, bir ali məktəbdə təhsil alan şəxs paralel olaraq digər ali məktəbin diplomunu əldə etmək üçün lazımi kursu keçməsi məqsədilə müvəqqəti icazə hüququna malikdir. Universitetlərdə tələbənin elektron məlumat bazası var ki, paralel təhsilalma prosesində işə salınır.

Şimali Avropa ölkələrindən ilk dəfə məhz Finlandiyada jurnalistika təhsili ali məktəblərdə verilməyə başlanılıb. 1925-ci ildə Helsinkidə əsası qoyulmuş İctimai Kollecdə jurnalistika üzrə tədris proqramı fəaliyyətə başlayıb. İlk illərdə proqram 3 ili əhatə edirdi, ancaq 1930-cu ildə kollec İctimai Elmlər üzrə Ali Məktəbə çevrildi və jurnalistikanı magistr səviyyəsində tədris etməyə, məzunlara jurnalist peşəsi üzrə diplomlar verməyə başladılar. 1964-cü ildə Tamperə köçürülən ali məktəbin tədris proqramı da genişləndi və şaxələndi, 1969-cu ildə Elektron KİV kafedrasının əsası qoyuldu. Hazırda isə bu struktur belə adlanır: Tampere Universitetinin İctimai elmlər fakültəsinin Jurnalistika və kütləvi kommunikasiyalar şöbəsi.

Hazırda jurnalistika və media-sektordakı digər peşələr üzrə təhsil Finlandiyada olduqca populyardır. 1998-ci ildən sonra bu sahədə təhsil verən müəssisələrin sayında üçqat artım olub. Bu gün Finlandiyanın 40 dairəsində 70 təhsil ocağında müvafiq istiqamətdə tədris proqramları fəaliyyətdədir. Ali məktəblərlə yanaşı, bir sıra kolleclərdə də jurnalistika təhsilinə yiyələnmək olar, ancaq bu, peşəkar təhsil sayılmayacaq. Jurnalistika təhsili üzrə ən nüfuzli ali məktəblər bunlardır: Helsinki Universiteti (media və kommunikasiyalar şöbəsi), Tampere Universiteti, Yuvəskülyə Universiteti, Helsinki Universiteti yanında İsveç İctimai Elmlər məktəbi, Turkudakı İsveç Finlandiya Universiteti. Finlandiyada jurnalistika fakültəsinə daxil olmaq kifayət qədər çətin işdir, abituriyentlərin yalnız 5-10%-i buna müvəffəq ola bilir. Halbuki imtahan ilk baxışda elə də çətin görünmür: yalnız bir esse yazılmalıdır!

Finlandiyada jurnalistika üzrə təhsil alanlar sonda bakalavr və magistr dərəcələrinə yiyələnə bilərlər. Universitetlər tələbəyə əsas predmetlə paralel olaraq digərlərini də öyrənməyə icazə verirlər, Tampere Universitetində bu, məcburi xarakter daşıyır. Jurnalistikada paralel predmetlər adətən dillər, fəlsəfə olur. Bakalavriatda əsas predmetin öyrənilməsi prosesinə statistika, sosioloji araşdırma metodları, fəlsəfə və sosiologiyaya giriş də öyrənilir. Jurnalistikada oxuyan ən azı bir xarici dil bilməlidir (İsveç dili xarici sayılmır *-müəl.*).

Finlandiyada kredit sistemi fəaliyyət göstərir. Bir kredit 40 saatdır. Bakalavr adını almaq üçün 120 kredit tələb olunur, magistr adı isə 160 kreditə bərabərdir.

Finlandiyada hesab edirlər ki, ən yaxşı jurnalistlər İsveç İctimai Elmlər Məktəbindən çıxır. Burada tələbələr xəbər jurnalistikası, internet, TV və radio-jurnalistika, ədəbi redaktə, KİV dili kurslarından keçirlər. Ölkənin ən məşhur jurnalistləri bu ali məktəbin məzunlarıdırlar.

Jurnalistika və media üzrə təhsil verən ali məktəblərin adətən öz radioları və telestudiyaları olur. Tampere Universitetində “Radio Moreeni” fəaliyyət göstərir. Avropanın ən iri mediakonsernlərindən biri olan «Sanoma WSOY” və “Yleisradio” teleradio şirkəti universitetlərlə sıx əməkdaşlıqda olmaqla yanaşı, özlərinin məktəblərini də maliyyələşdirilər. Təşkil etdikləri ixtisasartırma kursları adətən pulsuz olur.

Təbii ki, Finlandiyada da jurnalistika təhsili və jurnalistikanın özü problemsiz deyil. “Mediaskop” elektron elmi jurnalı Finlandiyada əsas problem kimi, jurnalist peşəsinə sahib olan şəxslərin çoxluğunu göstərir. Bu isə öz növbəsində amansız rəqabət deməkdir. Üstünlük mediaplanlama, mediaiqtisadiyyat, informasiya texnologiyaları üzrə mütəxəssislərə verilir. Bunlar isə necə deyərlər, bu gün mövcud olan gələcəyin peşələridir. Ekspertlərə görə, praktik-jurnalist Finlandiya reallıqları üçün aktuallığını itirmək üzrədir. Finlandiya gerçəkliyi müasir dünyanın əksidir. Hər bir peşə kimi, jurnalistdən də tələblər artır və onların böyük qismi mahiyyətcə yeni, fərqli tələblərdir.

Şübhəsiz ki, bu reallıq dünyanın bir parçası olan Azərbaycandan da yan keçməyəcək. Oxumaq lazımdır, əziz jurnalistlər və jurnalist olmaq istəyən gənclər!

**Təbii ki, Finlandiyada da jurnalistika təhsili və jurnalistikanın özü problemsiz deyil. “Mediaskop” elektron elmi jurnalı Finlandiyada əsas problem kimi, jurnalist peşəsinə sahib olan şəxslərin çoxluğunu göstərir. Bu isə öz növbəsində amansız rəqabət deməkdir. Üstünlük mediaplanlama, mediaiqtisadiyyat, informasiya texnologiyaları üzrə mütəxəssislərə verilir. Bunlar isə necə deyərlər, bu gün mövcud olan gələcəyin peşələridir. Ekspertlərə görə, praktik-jurnalist Finlandiya reallıqları üçün aktuallığını itirmək üzrədir. Finlandiya gerçəkliyi müasir dünyanın əksidir.**

## Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Ana dilində ilk orta məktəb

### Milli kadrların yetişdirilməsində "Şaiq adına nümunə məktəbi"nin əvəzsiz işi



Abdulla Şaiqin nümunə məktəbinin müəllim və şagirdləri

⇦ Əvvəli səh.1

**Qaratel QAFAROVA,**
*Xalq Təhsili Muzeyi ekspozisiya şöbəsinin müdiri*

Azərbaycan Xalq Cümhuriyyəti yaradılana qədər Azərbaycanda ana dilində orta məktəb yox idi. Ana dili o dövrün orta təhsil ocağı sayılan realnı məktəblərdə həftədə bir-iki dəfə keçirilir və məcburi olmayan fənn hesab olunurdu. İlk dəfə orta təhsilin milliləşməsi AXC hakimiyyəti illərində həyata keçirilmişdi. Pedaqogika tarixindəki bu böyük hadisə qüdrətli sənətkarımız, müəllimlər müəllimi Abdulla Şaiqin adı ilə bağlıdır. Abdulla Şaiq Azərbaycan romantizminin görkəmli nümayəndəsi, anadilli milli məktəblərin banisi, şair, dramaturq və yazıçı, müəllim və publisist, fəal ictimai xadim idi. O özü bütünlüklə xalqa xidmət nümunəsi idi, əsərlərində də müəllim kimi hamıya bunu tövsiyə edirdi. 1924-cü ildə tələbələrindən birinin xatirə albomuna yazmışdır: "Yüksəlmək, həqiqi bəxtiyarçılığa çatmaq özünü deyil, başqalarını yaşatmağa çalışmaqdır. Zira ki, həqiqi bəxtiyarlar cəmiyyət üçün yaşayanlardır".

Vətənini, xalqını, doğma dilini məhəbbətlə sevən Abdulla Şaiq "Xatirələrim"də yazırdı: "Milli vicdan milli məktəblərdə doğar. Məktəb və müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir cocuğa bənzər ki, öz xeyir və şərini düşünə, dost və düşmənini fərq edə bilməz.

Cocuqlara özünü tanıdan, milli hisslərini, ruhlarını yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük bir məfkurə doğuran, gələcəkdə sevgili vətəni üçün ən dəyərli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan məktəblərdir. Məktəblər millətin nur və səadət çırağıdır. Bəli, iqrar etməliyik ki, indiyədək milli məktəblərimiz olmadığından xalqımız naminə heç bir şeyimiz yox idi".

Yazıçılığından artıq müəllimliyi ilə iftixar edən maarif fədaisi Abdulla Şaiq 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin bir-birinin ardınca mədəni tədbirlər həyata keçirdiyi bir zamanda məktəblərin milliləşməsi üçün ilk addımı atdı. Onun təşəbbüsü ilə bütün fənlərin rus dilində tədris edildiyi Bakı I realnı məktəbin nəzdində Azərbaycan dili üzrə üç aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı I realnı məktəbində bütün fənlərin Azərbaycan dilində tədris edildiyi bir sinif (üçüncü sinif) açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular. Ədib öz xatirələrində yazırdı ki, Cümhuriyyət dövründə siniflərin milliləşdirilməsi ilə bilavasitə özü məşğul olmuş, valideynləri yığaraq onların bir-bir razılığını almış, çarizm havası ilə hərəkət edən bəzi rus pedaqoqları ilə mübarizə aparmışdır.

Azərbaycan maarifi tarixində ana dilində ilk təhsil almış şagirdlər, sonralar görkəmli elm, mədəniyyət xadimləri olaraq, həmin məktəbin müəllimlərindən Abdulla Şaiq Talıbzadəni, Camo Cəbrayılbəylini, Qafur Rəşad Mirzəzadəni, Xudaverdi Kələntərlini və başqalarını həmişə böyük məhəbbətlə yad edirdilər. Məktəbi bitirən tələbələr ali məktəblərə imtahansız qəbul olundular ki, bu da öz növbəsində sonralar sovet respublikasında kadr məsələsinin həllinə böyük kömək göstərmişdi.

İlk milli orta məktəbin buraxılışına həsr edilmiş təntənəli iclasda Nəriman Nərimanov da iştirak edirdi. O, üzünü məzunlara tutub demişdi: "Sizə birinci vəsiyyətim budur ki, həyatda çalışqan olun, qorxaq olmayın, həmişə xalqımızın irəli getməsinə çalışın". Həmin sinfi bitirənlər içərisində məşhur bəstəkar, musiqişünas Əfrasiyab Bədəlbəylinin, istedadlı alim, cərrah Fuad Əfəndiyevin, akademik Səftər Quliyevin, böyük mütəxəssis və dövlət xadimi Süleyman Vəzirovun və onlarla başqalarının adlarını çəkmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycanda milli kadrların yetişdirilməsində A.Şaiq tərəfindən milliləşdirilmiş siniflərin əsasında 20-ci illərin əvvəllərində yaradılan "Şaiq adına nümunə məktəbi" böyük iş görmüşdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Abdulla Şaiq tərəfindən orta məktəb siniflərinin milliləşdirilməsi təhsil tariximizə mühüm hadisələrdən biri kimi daxil olmuşdur.

# Məzunlar 40 ildən sonra ADPU-da görüşdülər



**Şakir CƏFƏROV,**
*məzun, filologiya üzrə fəlsəfə doktoru*

Mayın 26-da Azərbaycan Dövlət Pedaqoji Universitetində filologiya fakültəsini 1978-ci ildə bitirmiş məzunların görüşü keçirilib. Tədbirə başlamazdan əvvəl Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Dünyasını dəyişmiş professor-müəllim heyətinin və məzunların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov açaraq məzunları universitet rəhbərliyi adından salamlayıb, onları Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təbrik edib. Universitetdə belə bir tədbir keçirməsindən məmnun olduğunu bildirən A.Zamanov məzunlara və qonaqlara ADPU-nun son illərdəki fəaliyyəti və uğurları barədə məlumat verib. ADPU ilə məzunların sıx əməkdaşlığının vacibliyini vurğulayıb.

ADPU-nun filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov rəhbərlik etdiyi fakültədə tələbələrə yaxşı təhsil almaları üçün yaradılan şəraitdən danışıb.

Sonra söz məzunlara verilib. Məzunlardan - Bakı Slavyan Universitetinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Nuridə Novruzova, Bakı İdarəetmə və Texnologiya Kollecinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Faiq Şahbazlı, şair, filologiya üzrə fəlsəfə doktoru Tahir Şirvanlı, ADPU-nun müəllimi, filologiya üzrə fəlsəfə doktoru Qüdrət Umudov, Masallı rayon Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbin direktoru Nurməmməd Ağayev, Cəlilabad rayon Gülməmmədli kənd tam orta məktəbinin direktoru Həmdulla İbayev və başqaları xoş xatirələrini danışıb, görüşün təşkilinə görə ADPU rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Unudulmaz görüş xoş xatirələrlə məzunların yaddaşına həkk olunub.

# Ermənilərin hədəf seçdiyi təhsil ocağı

**İlham CƏMİLOĞLU**

### Xankəndi şəhər 4 nömrəli tam orta məktəbi xankəndililərin ən doğma məkanlarından birinə çevrilib

80-ci illərin sonlarında ermənilərin Dağlıq Qarabağla bağlı məkrli planlarında qarşıda duran ən başlıca vəzifələri ilk növbədə Xankəndini azərbaycanlılardan təmizləmək idi. Təbii ki, şəhərdə fəaliyyət göstərən, azərbaycanlıların təhsil aldığı təhsil ocaqlarının fəaliyyətinə son qoymaq bu planın tərkib hissəsi kimi önə çəkilmişdi. Sırada isə birinci yerdə Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbi dururdu. Azğınlaşmış ermənilər bu təhsil ocağını hədəf seçmişdi...

Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəb 1945-ci ildən fəaliyyət göstərsə də, əslində, bu təhsil ocağı XIX əsrin sonlarında yaradılıb, sovet rejiminin ilk illərində onun bazasında orta məktəb təşkil edilib və Xankəndi şəhərində yaşayan (məskunlaşan) ermənilər tərəfindən hər bir cəhdlə onun Azərbaycan məktəbi kimi fəaliyyət göstərməsinə maneələr törədilib.

1945-ci ildən müstəqil Azərbaycan məktəbi kimi fəaliyyət göstərən bu təhsil ocağı ağır, çətin və keşməkeşli yollar keçib, fəaliyyətini zirzəmi şəraitində başlayıb, bir müddət keçdikdən sonra birmərtəbəli, heç bir şəraiti olmayan binaya köçürülüb.

Hələ o illərdən erməni millətçiləri bu məktəbin fəaliyyətinə əngəllər yaratmaq üçün bütün vasitələrə əl atıblar.

Məktəbin direktoru Nazim Xudiyevlə söhbətimizə Xankəndi şəhərində fəaliyyət göstərən bu yeganə azərbaycandilli təhsil ocağının tarixindən başlayırıq. O, məktəbin yaranma tarixindən, keçdiyi yoldan ətraflı söhbət açır: "Yarandığı, fəaliyyətə başladığı ilk günlərdən bu təhsil ocağı müxtəlif formalarda erməni millətçilərinin təzyiqlərinə məruz qalıb. Bütün istiqamətlərdə erməniləşdirilən Xankəndi şəhərində Azər-



baycan məktəbinin fəaliyyət göstərməsini qəbul edə bilməyən ermənilər, nəhayət, bu qədim Azərbaycan torpağında yeganə azərbaycandilli orta məktəbin müstəqil fəaliyyət göstərməsini dayandıra biliblər. Belə ki, 1964-cü ildə Nizami Gəncəvi adına 4 nömrəli və rus dilində təhsil verən 5 nömrəli məktəblərin bazasında məqsədli şəkildə beynəlmiləl məktəb yaradılmaqla müstəqil fəaliyyət göstərən yeganə azərbaycandilli təhsil ocağının - Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbin fəaliyyəti dayandırılıb. Yeni yaradılmış məktəbə milliyyətcə qeyri-azərbaycanlı direktor təyin edilib. Bütün çətinliklərə, süni şəkildə yaradılmış maneələrə baxmayaraq, Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbin müəllim kollektivi "beynəlmiləl məktəbdə" də azərbaycançılıq ideyalarını qoruyub saxlaya bilib, bütün qüvvələrini səfərbər edərək Xankəndində azərbaycanlı uşaqların maarifləndirilməsi üçün əllərindən gələni ediblər. Nəhayət, 1969-cu ildə Heydər Əliyevin respublikamızın siyasi rəhbərliyinə gəlməsi ilə N.Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbin müstəqil fəaliyyət göstərməsi bərpa olunub".

Bütün təsir və təzyiqlərə baxmayaraq, məktəbin müəllim kollektivinin yüksək bilik və bacarığı, keyfiyyətli tədris metodu Azərbaycan cəmiyyəti üçün dəyərli vətəndaşlar yetişdirib. N.Xudiyev məktəbin məzunları haqqında qürur hissi ilə danışır: "Bu gün adlarını qürurla çəkə biləcəyimiz məzunlarımız az deyil. Şəraitdən, təzyiqlərdən asılı olmayaraq, məktəbimiz Azərbaycan cəmiyyətinə general-polkovnik Ramil Usubov, Milli Məclisin deputatları - "Azərbaycan Bayrağı" ordenli Elman Məmmədov, Flora Qasımova, Əməkdar müəllim, tibb elmləri doktoru, professor Mübariz Allahverdiyev, Beynəlxalq Energetika Akademiyasının üzvü, fizika-riyaziyyat elmləri doktoru Vidadi Əliyev, filologiya üzrə elmlər doktoru İlhami Cəfərsoy, filologiya üzrə fəlsəfə doktoru Şəfəq Cabbarova, tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Hikmət Xudiyev, tibb elmləri üzrə fəlsəfə doktoru Səidə Zeynalova, Əməkdar mühəndis Kamil Xudiyev, dəyərli tədqiqatçı Aydın Qarabağlı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, istedadlı jurnalist və naşir Vasif Quliyev, Əməkdar mühəndis Ziyəddin Quliyev, Bakı Metropoliteninin ilk dəfə tikilib istifadəyə verilməsində aparıcı mütəxəssislərdən biri olmuş Firudin Əhmədov, "Yaxın, uzaq Xankəndi" kitabının və Xankəndi haqqında silsilə yazıların müəllifi, jurnalist İlham Cəmiloğlu və başqa dəyərli şəxslər bəxş edib".



Məktəb həm də öz qəhrəman məzunları ilə fəxr edir. Təhsil ocağının məzunları respublikamızın ərazi bütövlüyünü, suverenliyini qoruyarkən erməni qəsbkarları ilə mübarizədə şücaətlər göstərib, xalqımızın qəhrəmanlıq tarixinə yeni səhifələr yazıblar. Məktəbin 100-dən artıq şagird və məzunu şəhidlik zirvəsinə ucalıb. Bu təhsil ocağının məzunları olan Azərbaycanın Milli qəhrəmanları Şirin Mirzəyevin, Nizami Məmmədovun həyat yolları bu gün hər bir Azərbaycan gəncinə örnəkdir. Qarabağ mövzusuna toxunan məktəb direktoru fikirlərini belə bölüşür: "Məktəbimizin tarixi, onun müəllim və şagirdlərinə, valideynlərinə qarşı törədilən cinayətlər, sadəcə olaraq, bir təhsil ocağının faciəli tarixçəsi deyil - bu, Azərbaycan xalqının, bütövlükdə bəşəriyyətin faciəsidir. Bu təhsil ocağı yarandığı vaxtdan millətçi erməni dairələrin siyasi və ideoloji təzyiqlərinə məruz qalsa da, azərbaycançılıq ideyalarının ləyaqətli daşıyıcısı kimi 1988-ci ilə qədər fəaliyyətini fədakarlıqla davam etdirib, pedaqoji kollektiv şovinist ermənilərin ögey münasibətlərinə baxmayaraq, əzmkarlıq göstərib. Təəssüflər olsun ki, 1988-ci ilin sentyabr ayında erməni millətçilərinin məktəbin fəaliyyətinə son qoymaq cəhdi baş tutdu. 700-dən çox şagirdin təhsil aldığı, 60-dan artıq müəllimin çalışdığı məktəb fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. Xankəndində yaşayan köməksiz azərbaycanlıların ciddi cəhdlərinə baxmayaraq, məktəbin fəaliyyətini bərpa etmək mümkün olmadı". 25 illik fasilədən sonra xankəndililərin istəyi, doğma məktəblərinin fəaliyyətinin yenidən bərpa olması arzusu həyata keçdi.

N.Xudiyev Azərbaycan təhsilinin inkişafına töhfələr vermiş, özünəməxsus bir tarix yaşamış bu təhsil ocağının xidmətlərinin Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini deyir: "Dövlət başçısının 30 dekabr 2012-ci il tarixli sərəncamı ilə məktəbin fəaliyyəti yenidən bərpa olundu. Sərəncama əsasən, Bakının Sabunçu rayonunun Ramani qəsəbəsində müasir standartlara uyğun məktəb inşa edildi. Və bu gün bu təhsil ocağının rəhbəri kimi əminliklə qeyd edirəm ki, məktəbin müəllim və şagird kollektivi möhtərəm Prezidentin "Gün gələcək, Azərbaycan bayrağı Xankəndində və Şuşada dalğalanacaq" kimi bəyanatından güc alaraq torpaqlarımızın işğaldan azad olunması üçün dövlət başçısının hər bir çağırışına hazırdır".

Hazırda Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbi xankəndililərin ən doğma məkanlarından birinə çevrilib. Tez-tez bu məktəbə yığışan xankəndililəri bu məkanda görüşdürən bir arzu, bir istəkdir - tezliklə doğma torpaqlara qayıtmaq istəyi...

# “Əsl müəllim məsuliyyəti genində daşıyır”

## *Həqiqət Əzimova:* “Arzu etmədən bu peşəni seçənlər daha ağır fəsadlara yol açırlar”

**Həqiqət Əzimova 1951-ci ildə Şabran rayon Pirəbədil kəndində ziyalı ailəsində anadan olub. 1973-cü ildə Azərbaycan Pedaqoji Universitetinin filologiya fakültəsini bitirdikdən sonra, məzunu olduğu T.Abbasov adına Şabran şəhər 1 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətə başlayıb. 1985-ci ildən isə Şabran şəhər R.Yusifov adına 2 nömrəli tam orta məktəbdə fəaliyyətini davam etdirib. Pedaqoji fəaliyyəti müddətində olimpiadalara hazırladığı şagirdlər yüksək nəticələr göstərib, dərs dediyi çoxlu sayda şagird ölkənin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunub. Onlar arasında Həqiqət müəllimin ixtisasını seçənlər də az deyil. Həqiqət Əzimovanın rəhbərlik etdiyi siniflərin qəbul göstəricisi adətən 80%-dən çox olub. O, əzmkar pedaqoji fəaliyyətinə görə dəfələrlə rayon rəhbərliyi tərəfindən təltif olunub. 1985-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən “Baş müəllim”, 1989-cu ildə “Ali kateqoriyalı müəllim” adlarına layiq görülüb, 2008-ci ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilib. Şagirdlərinin və müəllim kollektivinin sevimlisi, rayon ictimaiyyətinin böyük rəğbətini qazanmış Həqiqət müəlliməlo müsahibəmizi təqdim edirik.**

*– Həqiqət müəllim, rayon təhsilinin ləyaqətli vətəndaş yetişdirmə missiyasının sizin çiyinlərinizə düşən payı az olmayıb və bunun öhdəsindən layiqincə gəlmisiz. Bəs məktəb sizin həyatınızda hansı yeri tutur?*

– Mən elə uşaqlıqdan təhsil mühitində olmuşam. Atam müəllim olub. Elə müəllimlik peşəsinə sevgini də ilk olaraq məndə o yaradıb, bu peşəni mənə sevdirib.

Bildiyiniz kimi, Şabran şəhər T. Abbasov adına 1 nömrəli tam orta məktəbi bitirmişəm. Mən orada çox güclü müəllimlərdən dərs almışam. Şagird olanda da məktəbə böyük həvəslə gedirdim, müəllim kimi də indi böyük həvəslə gəlirəm. Bu həvəs məndə bir gün belə azalmayıb. Hər gün eyni həyəcan, eyni şövq, eyni həvəs...

Məktəbi, təhsili mənim həyatımın mərkəzinə müəllimlərim gətirib. Həmin müəllimlər ki, onlar dərsi bizə sinifdə öyrədirdilər. Biz müəllimlərə müqəddəs varlıqlar kimi baxırdıq. Düzdü, onlar bizimlə müəyyən məsafəni saxlayırdılar, amma eyni zamanda diqqət və qayğılarını da hiss edirdik. Mənə elə gəlir, bu, çox həssas məqamdır. Həm o məsafəni saxlamaq, həm də uşaqlara sevgini, diqqətini hiss etdirmək. Mən də bu barədə hər zaman müəllimlərimi örnək götürmüşəm.

İndi görürəm, bəzi müəllimlərdə sanki o tarazlığı qorumağa, müəllim-şagird münasibətlərinə elə həssas yanaşmağa, bunun üzərində hətta düşünməyə belə həvəs yoxdur. Bunun səbəbi isə məlumdu. Qəbul müsabiqəsində olan çatışmazlıqlar. Bəzən müəllimliyə həvəsi olmayan uşaqlar da gedib müəllimlik peşəsinə yiyələnirlər. Bu da bu gün rastlaşdığımız naxoş ab-havaya səbəb olur.

*– Siz lap əvvəldən öz peşənizi dəqiqləşdirmişdiniz?*

– Bəli. Özü də çox gözəl yadımdadı. Biz C.Məmmədquluzadənin “Poçt qutusu” əsərini keçirdik. Müəllim mənə hekayəni oxutmağa başladı. “ Noyabr ayının 12-ci günü idi...”. Hə, bu cümlə mənim yaddaşıma silinməz şəkildə həkk olunub. Həmin gün evə gəldim və dedim ki, mən mütləq ədəbiyyat müəllimi olacam.

Yəni, uşaq özü əmin olmalıdır ki, nəyi istəyir. Çünki peşə insanın ömrü boyu bir hissəsini təşkil edir. Düzgün peşə seçilməzsə həmin insan natamam qalır və bu da cəmiyyətə öz təsirini göstərir. Xüsusən, arzu etmədən müəllim peşəsini seçənlər daha ağır fəsadlara yol açırlar.

Bu sahədə isə həm də aidiyyəti qurumun üzərinə iş düşür. Təklif edərdim ki, ixtisas seçimi qruplar daxilində də yarımqruplara ayrılsın və müəllim peşəsi kimi önəmli və məsuliyyətli bir peşə üçün müəyyən xüsusi həssaslıq göstərilsin. İndi məsələn, yüksək balla müəllimlik peşəsini seçənlər üçün xüsusi təqaüd ayrılır. Bu, çox gözəl addımdır. Amma fikrimcə, yenə də bu sahədə edilməli olan dəyişikliklər var.

Bir də, başqa bir məsələni qeyd etmək istəyirəm. Mənim üçün ən həssas mövzulardan biri də budur.



Azərbaycan dili və ədəbiyyatın qəbul proqramında ayrılması. Azərbaycan dili və ədəbiyyatı ata və anadır. Onları ayırmaq olmaz. Vicdanlı, milli dəyərlərə bağlı vətəndaş yetişdirmək, mütaliəsiz demək olar ki, mümkün deyil. İndi isə mütaliə çox zəifdir. Mən deyərdim ki, hətta yoxdur. Uşaqlar kitabxanaya getmir.

Bunun nədən qaynaqlandığı da məlumdu. Bir tərəfdən, indi informasiya bolluğu dövrüdür, bir tərəfdən də, həmin o bayaq qeyd etdiyim məsələ; ancaq öz qruplarına daxil olan fənləri oxuyurlar və deyirlər ki, bu bizə lazım deyil. Uşaq bunu dərk etmir. Dərk etmir ki, əslində hansısa peşəyə yiyələnsə də, yiyələnməsə də ilk olaraq əsl insan kimi yetişmək, şəxsiyyətini formalaşdırmaq, özünü dərk etmək üçün ədəbiyyat ona mütləq lazımdır.

*– Sizcə, uşaqları necə cəlb etmək olar, kitabxanaya, ədəbiyyata?*

– Birinci, ədəbiyyatı bütün qruplara salsınlar, ikinci, müəllimlər uşaqlarda həvəs yaratmağa çalışsınlar və bunun üçün müxtəlif üsullardan, metodlardan istifadə etsinlər. Mən əvvəllər hər ay “S.Vurğun həftəsi” keçirirdim. Uşaqların hamısına tapşırıqlar verilir, oxuduqları kitab haqqında yazılı rəyləri toplanır, şifahi təqdimatları dinlənirdi. Hər dəfə uşaqlarda daha böyük həvəs müşahidə edirdim. Bilirəm, indi həmin tədbirlərə uşaqları cəlb etmək asan deyil. Amma bunu deyib dayanmaq da bir müəllimə yaraşmaz. Hər zaman bir həll yolu vardır, sadəcə o yolu tapmaq lazımdı. Bir də, məktəbdə rəhbərlik tərəfindən yüksək tələbkarlıq lazımdır. Məktəbdə ciddilik hökm sürməlidir. Cəmiyyət nə qədər inkişaf etsə, nə qədər böyük dəyişikliklər olsa da, hər zaman üçün düzgün olan və dəyişməməli qaydalar var. Bunlardan biri də məktəbdə ciddi, tələbkar ab-havanın hökm sürməli olmasıdır.

*– Ümumiyyətlə, şagird nailiyyətinə aparıb çıxaran yol necə olmalıdır?*

– Bilirsiz, müəllim peşəsi çox şərəfli olmaqla yanaşı, həm də çox məsuliyyətli, həssaslıq tələb edən peşədir. Və məsələ də ondadır ki, əsl müəllim məsuliyyətli olmağa çalışmır, onun məsuliyyətsiz olmaq kimi nə bir fikri, nə bir hissi olur. Əsl müəllim məsuliyyəti genində daşıyır, hər bir nəfəsində.

Mən gənc yaşda bir oğul itirdim. Bu bir ana üçün çox böyük dərddir. Amma mən bu dərdi bir dəfə də olsun məktəbə daşımadım. Məktəbin darvazasına qədər gəlib o dərd mənimlə, içəri girəndə isə artıq mən övladını itirmiş bir ana yox, gələcəyi əllərinə əmanət edilən uşaqların anası - Həqiqət müəlliməm. Övlad dərdimi evdə çəkməliyəm, məktəbdə isə şagirdlərimin oxuması dərdini...

Şagirdin uğuruna aparan yolda pillələri müəllimlər və valideyn düzür. Bunlardan birində çatışmazlıq olarsa, şagird çox çətinlik çəkir və təəssüf olsun ki, bir çox halda uğura yetə bilmir.

Bəzi müəllimlər sinif rəhbəri olmağın mahiyyətini tam dərk etmirlər. Sinif rəhbəri olmaq ikiqat məsuliyyətdir. Daha çox həmin sinfə diqqət etməli, maraqlanmalı, nailiyyət üçün çalışmalısan. O sinifdə oxuyan şagirdlərin hər bir problemi ilə bir müəllim olmaqla yanaşı, sinif rəhbəri kimi maraqlanmalısan.

Sinif rəhbəri olduğum vaxtlarda hər gün sinif jurnalındakı qiymətləri şagirdlərin özləri ilə müzakirə edirdim. “Niyə bu gün filan fəndən aşağı qiymət almısan? Nə çətinliyin var?”, tez-tez valideyn iclası keçirirdim. İndi bəzi valideynlər də daha səthi yanaşırlar övladlarının təhsilinə. Sanki hər şeyi müəllimdən gözləyirlər.

*– Əvvəlki valideynlərlə indiki valideynlər arasında nə fərq var? Münasibət sizi qane edirmi?*

– Atam rayon təhsil şöbəsində Metodkabinet müdiri olub. Çox işləyirdi. Amma buna baxmayaraq bizim təhsilimizlə yaxından maraqlanırdı. Hər gün dərslərimi soruşurdu. İşdən evə gec gəldiyi vaxtlar olurdu. Bir gün məni yuxudan oyadıb “Əlifba”nı soruşdu. Bir səhv elədim. Onda atam başımı sığallayıb dedi: “Ağıllı qızım, mən əllərimi yuyub yeməyə oturunca sən səhv elədiyin hissəni yenidən öyrən”. Elə də oldu. Atam məndən dərsimi soruşub sabaha hazır olduğuma əmin olandan sonra yemək masasına əyləşdi.

Mən hər zaman şagirdlərimin valideynlərinə deyirəm ki, hər şeyi atın kənara, siz indi övladınız üçün gələcək qurmağa çalışırsız, amma onlar üçün ən yaxşı gələcək onların təhsilidir. Buna əsas diqqət edin, övladlarınızın təhsili ilə maraqlanın. Qalan hər şeyi onlar özləri qazanacaq. Savadlı, təhsilli övladlar sizin xoşbəxt qocalığınızdır.

*– Əgər müəllim olmasaydınız?*

– Bunu təsəvvür belə etmək istəmirəm. Mənim həyatım mənasız, rəngsiz olardı. Uşaqların mənim həyatıma qatdığı rəngləri, onlar sayəsində hiss etdiyim qürur duyğusunun yerini başqa bir sənətlə doldurmaq olmazdı.

Mənim artıq 66 yaşım var. Fiziki olaraq qocalsam da, mənən çox cavanam. Bu, şagirdlərimin sayəsindədir. Bəzən fikirləşirlər ki, müəllimin müəyyən olunmuş yaşı tamam olubsa işdən çıxmalıdır. Və çox vaxt gənclər bunu elə etinasızlıqla ifadə edirlər ki... Onların işləməyə ehtiyacı var, bunu mən anlayıram. Mənim indi hər şeyim var, maddi baxımdan heç nəyə ehtiyacım yoxdu.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*



# “Bilik öyrətmənin ən yaxşı üsulu tədqiqatdır”

## *Etibar Əliyev: “Hər bir tədris üsulunda müəllimin səriştəliliyi ön plana çıxır”*

⇦ Əvvəli səh.1

**Niyazi RƏHİMOV**

Etibar Əliyev “XXI Əsr Təhsil Mərkəzi” İctimai Birliyinin sədridir. Onun rəhbərlik etdiyi qeyri-hökumət təşkilatı elm və təhsil sahəsində 15-dən çox layihə icra edib. 200-dən çox elmi-publisistik məqalənin müəllifidir.

### “Müəllim daim tədqiqatla, intellektual axtarışlarla məşğul olmalıdır”

Etibar Əliyev məruzəsində öncə qədim Şərq filosoflarının müəllim haqqında söylədikləri fikirləri səsləndirib. O, Sufi pritçasından sitat gətirərək bildirib: “Bir çox uşağı tərbiyə edən və onlara dərs verən müəllim hünər, fədakarlıq göstərir. Bu, çox ağır və üzücü bir əməkdir. Lakin müəllim bu peşənin məsuliyyətini dərk etməli, təcrübəsiz, savadsız adamların mənəviyyatını pozmamalı və yolverilməz işlər görməməlidir”. Təhsil eksperti müasir müəllim modelindən və onların hazırlanmasından söhbət açaraq qeyd edib ki, tədris üsulları müxtəlifdir və hər bir tədris üsulunda müəllimin keyfiyyəti, səriştəliliyi ön plana çıxır. O, bu baxımdan yüksək komponentləri özündə birləşdirən müəllimin aşkara çıxarılmasının vacib olduğunu deyib: “Bu gün təhsilimizin əsas məqsədi müəllimin effektivliyinin yüksəldilməsi, qiymətləndirmə sistemində islahatların aparılmasıdır”.

### İdeal müəllim modeli

Çıxışında ideal müəllim modeli barədə də danışan E.Əliyev vurğulayıb ki, xalqımızın böyük elm və təhsil xadimi, görkəmli ziyalısı Mehdi Mehdizadə psixologiya və pedaqogikanı müəllimin qoşa qanadı adlandırıb. Çağdaş dövrümüzün müəllimi haqqında danışan E.Əliyev qeyd edib ki, müəllim menecer, müşahidəçi, diaqnostik, təşkilatçı, məsləhətçidir: “Müəllim şərh edir, izah edir, ruhlandırır, ilham verir. Müəllim daim tədqiqatla, intellektual axtarışlarla məşğul olmalıdır. Bilik öyrətməyin ən yaxşı üsulu tədqiqatdır”. Müəllimlərin keçdikləri dərslərdən də danışan E.Əliyev diqqətə çatdırıb ki, yaxşı dərs qurmaq üçün saysız-hesabsız vasitələrdən və üsullardan istifadə etmək mümkündür. O bunu belə izah edib: “Müəllim məsləhət verməli, inandırmalı, rəğbətləndirməli, nəsihət verməli, intizama dəvət etməli və sair üsullara əl atmalıdır. Ən əsası isə uşağın dərk etmək istəyinə zidd olmayan bütün vasitələrdən istifadə etməlidir”.

### Pedaqoji təhsil sistemləri

Pedaqogika elmi haqqında da fikirlərini bildirən E.Əliyev qeyd edib ki, pedaqogika xüsusi tədris fənnidir. O, pedaqogikanın bütün elm sahələrindən fərqli olaraq əbədi predmetinin tərbiyə olduğunu deyib: “Pedaqogika bütün elm sahələrinin içərisində ən mürəkkəbidir. Onlarla elm sahəsinin pedaqogika ilə dolayısı və birbaşa əlaqəsi var. Bu sahə haqqında minlərlə kitablar yazılıb. Lakin xüsusilə qeyd etmək olar ki, tərbiyə problemi hələ də həll olunmamış qalır. Bütün bunlarla yanaşı pedaqogika həm də maraqlı elmdir. Bu, təkcə onun predmeti ilə bağlı deyil. Bu həm də insan həyatının tərəddüdləri, səhvləri və insan taleyinin dramı ilə sıx surətdə bağlıdır ”.

Dünyada bir çox pedaqoji təhsil sistemlərin mövcud olduğunu və hər birinin fərqləndiyini deyən ekspert onu da bildirib ki, pedaqoji hazırlıq proqramları pedaqogika sahəsində fundamental bilikləri formalaşdırmalı, hər bir müəllim üçün vacib olan pedaqoji bacarıq və vərdişləri aşılamalıdır. E.Əliyev yaxşı proqramların pedaqoji təfəkkürü, pedaqoji mədəniyyət və dünyagörüşünü formalaşdırdığını da sözlərinə əlavə edib. Ekspert dünyanın aparıcı ölkələrində pedaqoji təhsil proqramlarının standartları probleminə birmənalı yanaşma olmadığını bildirib və bu sahədə dünya təcrübəsindən misallar gətirib.

### PİRLS-in nəticələrinə görə şagirdlərimiz xeyli irəliləyiblər

Ekspert bildirib ki, PİRLS 4-cü sinif şagirdlərinin mətnlərinin analizi və qiymətləndirilməsi üzrə beynəlxalq tədqiqatlar aparır. O, tədqiqat zamanı şagirdlərə oxumaq və yazmaq üçün kitab, dəftər verildiyini bildirib. E.Əliyev tədqiqatların nəticələrinə görə əvvəlki illərlə müqayisədə şagirdlərimizdə xeyli irəliləmə müşahidə olunduğunu diqqətə çatdırıb.

Diskussiya şəraitində keçən tədbirdə millət vəkili Fazil Mustafa, hüquqşünas Aydın Kərimov, Bakı Slavyan Universitetinin tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov, ADPU-nun nümayəndələri - professor İramin İsayev, dosentlər Məhərrəm Zülfüqarlı, Əli Zalov, Rəcəb Əliyev, Fəxrəddin Yusifov, Eldar Hacıyev, Əhməd Qəşəmoğlu və başqaları çıxış edərək təqdimatı yüksək qiymətləndiriblər. Çıxış edənlər ali məktəb müəllimlərinin peşəkar və mənəvi keyfiyyətləri, ali məktəblərin akkreditasiyası, müəllim hazırlığı, tədris proqramları, alternativ dərsliklər, elmin populyarlaşdırılması və digər vacib məqamlarla bağlı öz fikir və mülahizələrini tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Tədbirin yekununda çıxış edən ADPU-nun rektoru Cəfər Cəfərov vurğulayıb ki, belə elmi-metodiki toplantılar dialoq imkanlarının, yeni fikir və ideyaların ortaya çıxmasına kömək edir. Təhsil xalqın, millətin təhlükəsizliyi məsələsidir. Azərbaycanın gələcəyi, hərtərəfli inkişafı təhsildən asılıdır. Yüksək keyfiyyətli təhsil xalqımızın dünyanın sivil və mütərəqqi xalqları arasında olmasını şərtləndirən əsas amildir. Rektor maraqlı və məzmunlu təqdimata görə E.Əliyevə təşəkkür edib və uğurlar arzulayıb.

# Müasir tədris strategiyaları və layihə metodikasının istifadəsi üzrə təlimlər



“Təhsildə İnnovativ Texnologiyalar” Əlavə Təhsil Mərkəzinin məktəbdənkənar təhsil müəssisələrinin müəllimləri üçün müasir tədris strategiyaları və layihə metodikasının istifadəsi üzrə ixtisasartırma xidməti təlimləri davam edir.

3 mərkəzdə 6 qrup üzrə keçirilən, ümumilikdə 48 akademik saatı əhatə edən, 12 günlük təlim müddətində iştirakçılar tədris materiallarının və dərslərin keçirilməsi üçün layihə metodikasından istifadə bacarıqlarına yiyələnirlər. İştirakçılar həmçinin, layihə çərçivəsində müasir təlim strategiyaları, qiymətləndirmə üsul və alətləri ilə tanış olur, bu mexanizmlərdən səmərəli istifadə edərək dərsi şagirdin marağına və XXI əsrin tələbinə uyğun qurmağı öyrənir, onu daha da zəngin və rəngarəng edirlər. Layihə metodikasını mənimsəyən müəllimlər şagirdləri daha yaradıcı təlimə cəlb etməyə müvəffəq olurlar.

Hazırda Bakı şəhəri 32, 70 və 238 nömrəli tam orta məktəblərdə yerləşən təlim mərkəzlərində məktəbdənkənar təhsil müəssisələrinin 92 nəfər müəllimi iştirak edir.

Təhsil Nazirliyinin sifarişi ilə ümumilikdə 150 nəfər həyata keçirilməsi planlaşdırılan təlimlərdə artıq 119 nəfər iştirakını başa vurub.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dəyərli töhfə

**Yusif ƏLİYEV**

Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil quruculuğunu və pedaqoji fikrin inkişafını öyrənən tanınmış tədqiqatçılardan biri də Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsil fakültəsinin dekanı, Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmovdur. O, Bakıda, Moskvada və İranda AXC hökumətinin təhsil siyasəti və pedaqoji fikir tarixi ilə bağlı 20-dən çox məqalə nəşr etdirmişdir. Məhz onun təşəbbüsü ilə pedaqoji təmayüllü universitetlərdə tədris olunan "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" adlı xüsusi kursun proqramına "AXC dövründə təhsil və pedaqoji fikrin inkişafı" bölməsi daxil edilmiş, gələcək müəllimlərə AXC dövründə təhsil quruculuğu məsələlərinin, Məhəmməd Əmin Rəsulzadənin və Əhməd Cavadın maarifçilik fəaliyyətinin öyrədilməsi nəzərdə tutulmuşdur. AXC-nin 100 illiyi ərəfəsində professor Fərrux Rüstəmov Məhəmməd Əmin Rəsulzadənin "Seçilmiş pedaqoji əsərləri"ni (Bakı, Elm və təhsil, 2018, 288 s.) nəşr etdirmişdir.

Kitabda M.Ə.Rəsulzadənin maarifçiliklə, təhsil-tərbiyə ilə bağlı 66 məqaləsi, Ümumrusiya müsəlmanlarının və "Müsavat" partiyasının qurultaylarındakı məruzələrinin təhsillə bağlı hissələri daxil edilib. Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında", "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında", "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" sərəncamları ilə açılır. Sonra "M.Ə.Rəsulzadənin həyat və fəaliyyətinin qısa xronologiyası" verilir. Professor F.Rüstəmov kitaba "Məhəmməd Əmin Rəsulzadənin həyatı və pedaqoji irsi" adlı geniş ön söz yazıb, böyük siyasət və dövlət adamı olan Rəsulzadənin həyatı və yaradıcılığının mühüm məqamlarını diqqətə çatdırıb. Müəllifin fikrincə, XX əsrin əvvəllərində Azərbaycanda məktəb tarixini, pedaqoji hərəkatı, məktəb təhsilinin inkişaf istiqamətlərini, xeyriyyə cəmiyyətlərinin bu sahədəki xidmətlərini öyrənmək baxımından M.Ə.Rəsulzadənin pedaqoji irsi mühüm əhəmiyyət kəsb edir. Xalqın mədəni inkişafında, tərəqqisində, azadlığa qovuşmasında maarifə böyük ümid bəsləyən M.Ə.Rəsulzadə təhsilə aid yazdığı əsərlərdə təlim-tərbiyənin, məktəbin, təhsilin milliləşdirilməsinin, demokratikləşdirilməsinin əsas prinsiplərini şərh etmiş, milli əxlaqın əhəmiyyətini səciyyələndirmiş, milli məfkurənin, istiqlal ideologiyasının




təşəkkülündə, xalqın savadlanmasında milli məktəbin rolunu və əhəmiyyətini yüksək qiymətləndirmiş, ümumən millətin oxumasını, elm, təhsil sahibi olmasını azadlığın, məsud yaşamağın başlıca şərti hesab etmişdir.

Məhəmməd Əmin Rəsulzadənin "Seçilmiş pedaqoji əsəri"ni nəşr etdirməkdə professor F.Rüstəmovun əsas məqsədi onun pedaqoji irsinin milli müstəqillik ruhumuzun dövlət müstəqilliyinə çevrilməsindəki rolunu bir daha diqqətə çatdırmaqdır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4828, **Sifariş** 1630

**Məsul növbətçi:** Ş.Cəfərov

# 3D-printerdə insan dərisi çap edilib

**Yusif ƏLİYEV**

Kanada həkimləri insan dərisinin bərpası üçün nəzərdə tutulan portativ üçölçülü printeri təqdim ediblər. Qurğu bir neçə dəqiqə ərzində dəri qatını biomaterial vasitəsilə bərpa edə bilir.

**www.life.ru** saytının məlumatına görə, Toronto Universitetinin əməkdaşları tərəfindən hazırlanan "U of T bioprinter" adlı xüsusi qurğu kompakt ölçülərə malikdir və bir neçə dəqiqə ərzində yanıq yarasını sağaltmağa imkan verir. Printerə bədənin yaralı hissələrinə tətbiq oluna bilən süni dəri parçalarına çevrilən biomaterial yüklənir. Bir müddət sonra dəri adaptasiya olunur və yaralar sağalır. Mütəxəssislər bildiriblər ki, "U of T bioprinter" sayəsində dəri donorlarına ehtiyac qalmayacaq.



Layihə iştirakçısı Navid Hakiminin sözlərinə görə, printeri müxtəlif yanıq dərəcələrinə uyğun sazlamaq mümkündür. Qurğu laboratoriya donuzları üzərində uğurla sınaqdan keçirilib. Gələcəkdə alimlər 3D-printeri insanlar üzərində sınaqdan keçirməyi və daha böyük süni dəri parçaları istehsal etməyi planlaşdırırlar.

# Uçan taksi prototipi nümayiş olunub

"Uber" şirkəti və ABŞ Kosmik Agentliyi (NASA) arasında uçan taksilərin hazırlanması haqqında ikinci saziş imzalanıb. Nəqliyyat vasitəsi təyyarə və vertolyot hibridindən ibarət olacaq. Uçan taksinin ilk sınaqlarının Los-Anceles və Dallasda keçirilməsi planlaşdırılır.

**www.lenta.ru** saytının məlumatına görə, nümayiş edilən hava taksisi enmə zamanı yığılan dörd üfüqi fırlanan vintlə təchiz edilib. Beşinci rotor aparatın quyruq hissəsində yerləşir və irəliyə hərəkət üçün istifadə olunur.

Şirkətin planlarına əsasən, uçan taksi 300-400 metr hündürlükdə hərəkət edəcək. Enmə meydançaları hündürmərtəbəli binaların dam örtüklərində yerləşəcək. Onların hər biri 200 uçuş və enmə qəbul edə biləcək. Yeni nəqliyyatın yola sərf edilən vaxtı 30 dəqiqədən 5 dəqiqəyədək azaltmağa kömək edəcəyi nəzərdə tutulur.



Daha əvvəl "Uber" şirkətinin 2020-ci ildə uçan nəqliyyat vasitəsinin işlək modelini Dubayda keçiriləcək "World Expo" sərgisində təqdim edəcəyi ilə bağlı məlumatlar yayılıb.

# Süni intellekt insanın xarakterini müəyyən edəcək

Cənubi Avstraliya Universitetinin tədqiqatçıları insanın gözlərindən onun xarakterini müəyyən edə bilən süni intellektin yaradılması üçün maşın təlimi metodunu tətbiq ediblər.

**www.meddaily.ru** saytının məlumatına görə, tədqiqatda 42 tələbə iştirak edib. Könüllülər onların göz hərəkətlərini izləyən qurğuları daşıyıblar. İştirakçılar, həmçinin şəxsiyyətin əsas xüsusiyyətlərinin (nevrotizm, ekstravertlik, vicdanlılıq, səmimilik və mülayimlik) qiymətləndirilməsi üçün nəzərdə tutulmuş sorğu anketlərini doldurublar.

Tədqiqat nəticəsində məlum olub ki, nevrotiklər gözlərini daha sürətlə qırpırlar, səmimi insanlar daha tez-tez ətrafa baxırlar, vicdanlı insanların isə göz bəbəklərinin ölçüsü nəzərəçarpacaq dərəcədə dəyişir. Bundan başqa, alimlər optimistlərin pessimistlərlə müqayisədə, neqativ emosiyalara səbəb olan görüntülərə daha az baxdıqlarını təyin ediblər. Kompüter mülayim, vicdanlı, ekstravert və hər şeylə maraqlanan insanları daha dəqiq müəyyən edib. Mütəxəssislər texnologiyanın təkmilləşdirilməsi üzərində çalışırlar.



# "Coca-Cola Məktəbli Kuboku" turnirinə yekun vurulub

Təhsil Nazirliyi, AFFA və Coca-Cola şirkətinin birgə layihəsi olan "Coca-Cola Məktəbli Kuboku" turnirinin final mərhələsinə yekun vurulub.

"ABU Arena" idman kompleksində keçirilən final qarşılaşmasında Bakı şəhəri Binəqədi rayonu 126 nömrəli tam orta məktəbinin komandası ilə Qazax rayonu Qazaxbəyli kənd tam orta məktəbin komandası qarşılaşıb. Rəqibini 5:1 hesabı ilə məğlub edən 126 nömrəli tam orta məktəbin komandası "Coca-Cola Məktəbli Kuboku" turnirinin 2017-2018-ci il mövsümünün qalibi olub. Turnirdə 3-cü yeri Mingəçevir şəhər Texniki Humanitar Liseyin komandası tutub.

Final qarşılaşmasından sonra qaliblərin mükafatlandırma mərasimi keçirilib. Məktəbli futbolçulara kubok, medal, diplom, xatirə hədiyyələri tədqim olunub. Turnirin "ən yaxşı oyunçu" adına Binəqədi rayonu 126 nömrəli tam orta məktəbin komandasının üzvü Səbuhi Qurbanov, "ən məhsuldar oyunçu" adına həmin komandanın digər oyunçusu Əmirxan Qurbanov, "fair play" nominasiyasının qalibi adına isə Qazax rayonu Qazaxbəyli kənd məktəbinin komandasının futbolçusu Fidan Məmmədova layiq görülüblər.



Qeyd edək ki, "Coca-Cola Məktəbli Kuboku"nun 2017/2018-ci il mövsümünün məktəbdaxili mərhələsində 100 minə yaxın məktəbli iştirak edib. 7 ildir təşkil olunan "Coca-Cola Məktəbli Kuboku" ölkə üzrə keçirilən ən kütləvi futbol yarışmasıdır.

# Etibarsız sayılır

**Bakı Qızlar Universiteti** tərəfindən 2017-ci ildə Dünyamalıyeva Yetər Azər qızına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu** tərəfindən 1982-ci ildə Şamadov Bulutxan Adil oğluna verilmiş ЖB-028377 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Bağırov Ceyhun Mikayıl oğluna verilmiş BB-I-008262 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Namazova Aytən Mahəddin qızına verilmiş A-144895 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2016-cı ildə Fəxrəddinov Orxan Elçin oğluna verilmiş A-100457 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 5 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Dadaşov Şamil Əsəd oğluna verilmiş A-394274 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 19 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rzayev Kənan Mehman oğluna verilmiş A-345883 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Güzdək qəsəbə tam orta məktəbinin IX sinfini 2005-ci ildə bitirmiş Hüseynova Həliməxatun İntiqam qızına verilmiş A-159602 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 14 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Yakut Rohat Şahin oğluna verilmiş A-500072 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2004-cü ildə Əlipənahova Həvvaxanım Çingiz qızına verilmiş A-041741 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 6 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Dəmirov Vasif Hüseyn oğluna verilmiş B-736451 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Məhərrəmova Nərgiz Mehman qızına verilmiş A-014690 nömrəli şəhadətnamə və 2006-cı ildə verilmiş B-260305 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Hökməli qəsəbə tam orta məktəbinin VIII sinfini 1986-cı ildə bitirmiş Şıxəhmədov İntiqam Vəkil oğluna verilmiş A-111897 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Qaracala qəsəbə tam orta məktəbini 1993-cü ildə bitirmiş Heydərov Faiq Heydər oğluna verilmiş 051776 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Şükürova Anara Selyabr qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli Təbiət, Humanitar Təmayüllü Məktəb-Liseyin IX sinfini 2015-ci ildə bitirmiş Əliyev Elvin Elşən oğluna verilmiş A-565780 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 22 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əmirov Cavid Həmid oğluna verilmiş 319762 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Şağlaküçə kənd tam orta məktəbini 1990-cı ildə bitirmiş Məmmədov Natiq Sakit oğluna verilmiş A-053524 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Cəlilzadə Səriyyə Sərdar qızına verilmiş 080541 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Şükürov Səmail Ramiz oğluna verilmiş A-669099 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Dəymədağıldı kənd tam orta məktəbinin IX sinfini 2003-cü ildə bitirmiş Abdullayeva Aytac Firayıl qızına verilmiş B-604753 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Zümürxan kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Ceyhan (Cəmilova) Sevinc Vaqif qızına verilmiş B-306825 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**4 nömrəli Bakı texniki-peşə məktəbi** tərəfindən 1991-ci ildə Kabanov Dmitri Gennadiyeviçə verilmiş 351639 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılov Sail Cəlil oğluna verilmiş B-485932 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Əmirzeyidli kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Məmmədova Turanə Elyar qızına verilmiş B-565788 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 260 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Cəfərov Fariz Valeh oğluna verilmiş B-131430 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 11 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Babayev Ülvi Əlipənah oğluna verilmiş A-379523 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya İnstitutu** tərəfindən 1992-ci ildə Sadıqova Güllüzar İmran qızına verilmiş ЦB-835103 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1999-cu ildə Süleymanov Musa Rəsul oğluna verilmiş A-037781 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayonu** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Şabanov Eyvaz Cavadoviçə verilmiş 750006 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 292 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədov Cavidan Məhəmməd oğluna verilmiş A-448687 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Ordubad rayon Əndəmic kənd tam orta məktəbini 2004-cü ildə bitrmiş Əsədov İsmayıl Əhməd oğluna verilmiş A-744353 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yevlax Şəhər Təhsil Şöbəsinin müdiri Zərifə Məmmədova Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin baş məsləhətçisi Əhliyət Adıgözəlova qayınatası

**ƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov və şöbənin kollektivi Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin baş məsləhətçisi Əhliyət Adıgözəlova qayınatası

**ƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL LearnEnglish

# The proof of the pudding is in the eating

by A. J. Dalton (amended by Jon Porter)



**1** They say a country's cuisine is a reflection of its culture and national character. If this is true, then the UK is a very diverse country, since every region has its own traditional foods. For example, traditional Scottish cuisine is famous for its robust character: haggis, Aberdeen Angus beef, shortbread and whisky. Wales is well known for its lamb and leeks. Ireland is synonymous with Guinness, Irish whiskey and Irish stew. Dishes that originated in one particular region of England have become popular in many other areas. Yorkshire is known for its savoury Yorkshire pudding, Cornwall for its Cornish pasty, Lancashire for its black pudding (blood sausage), and so on.

**2** There are of course dishes common to the whole UK as well. While midweek breakfasts tend to be quicker or healthier these days, many people still enjoy a full English breakfast (fried eggs, bacon, sausage, baked beans, fried mushrooms and fried tomato) at the weekend, followed by a Sunday roast (a roasted joint of meat, with roast potatoes, vegetables and gravy) for lunch, perhaps then followed by fish and chips or a pork pie for dinner. For dessert, there are dozens of famous British cheeses to choose from (e.g. Stilton and Cheddar), cakes or sponge and fruit puddings with custard (a vanilla sauce).

**3** With such a range of foods and approaches to cooking, why then did British cuisine have a bad international reputation for so long? There are a number of possible reasons. One is that during the Second World War and for decades after it, there was food rationing in the UK, meaning cooks and chefs were limited by the ingredients that were available, so they lost some of their traditional skills. Another is that British food tends to be 'heavy' because of the colder climate – Britons need big meals to keep the body warm. As a result, British cuisine is often unsuitable for, and unpopular among, people from warmer countries in Europe and around the rest of the world. Finally, for a long time, British food did not compare well to the cuisine of its nearest neighbour, France. France introduced the refined style of cooking known as 'nouvelle cuisine', and French wines, thanks to France's warmer climate, were always considered better than British wines.

**4** Yet British cuisine has enjoyed a better reputation over the last few decades. Why is that? One definite reason is that the wide range of ethnic groups in the UK has given British cuisine new ingredients, flavours, 'fusion' combinations and techniques. Curry, which is originally a South Asian dish, is now officially the most popular food in the UK, whereas a roast dinner or fish and chips used to be the most popular. With significant numbers of Polish people coming to the UK recently, Polish food shops can be found in almost every British city. Most cities have a Chinese quarter as well.

**5** Another reason for the improvement in British cuisine is climate change. The UK is warmer now than it ever has been. Today, farmers can grow new herbs, such as coriander, to meet the demands of increased curry sales. In addition, there has been a boom in growing garlic in Scotland. Even British wine is now respected by the French people, since it is easier to grow and ripen grapes in the UK. And with such a strong import culture, the UK can get its hands on a variety of exotic ingredients from around the world at any time of the year.

**6** One last reason for the improvement, however, is the large number of cookery programmes on British television. British people are more educated about food than ever before. British chefs such as Gordon Ramsay and Jamie Oliver are internationally famous and have television shows all over the world.

**7** So what are the results? In 2013, British restaurants received more Michelin stars than in any other previous year. The Michelin Guide (first established in France) sets the international standard for restaurant cuisine, so it would seem that the UK has finally shed its reputation for poor food and is now a culinary attraction in its own right!

## Activity 1: Summaries

There are seven paragraphs in the article. Match them to the summarising statements below.

- **a** The media has helped the British people to know much more about food.
- **b** Britain today is very multicultural, which has introduced foreign influences into British cuisine.
- **c** British cuisine has always included a lot of variety.
- **d** History and climate have played a large part in determining the character of British cooking.
- **e** British agriculture has also begun to change.
- **f** There are traditional meals for different times of the day.
- **g** British cuisine now wins international awards.

## Activity 2: Matching

Match the words with a similar meaning. One answer is given.

- **1 meal (c)**
- **2** considerably
- **3** well known
- **4** since
- **5** techniques
- **6** today
- **7** large
- **a** now
- **b** because
- **c dish (1)**
- **d** skills
- **e** famous
- **f** much
- **g** significant

## Activity 3: Categories

Put the following foods into the correct category, either 'savoury', 'sweet' or 'drink'.

whisky, black pudding, Yorkshire pudding, custard, tea, Guinness, curry, sponge pudding, cake

## Answers

**Activity 1**
a 6, b 4, c 1, d 3, e 5, f 2, g 7

**Activity 2**
2 f, 3 e, 4 b, 5 d, 6 a, 7 g

**Activity 3**
Drink: tea, whisky, Guinness
Savoury: Yorkshire pudding, black pudding, curry
Sweet: sponge pudding, custard, cake

**Fun corner**
1 c, 2 a, 3 a, 4 c, 5 b, 6 c, 7 b

# Fun corner

**Find the odd one out in each set of three words.**

**1** Dairy products
**a** milk
**b** cheese
**c** biscuits

**2** Vegetables
**a** apple
**b** potato
**c** peas

**3** Fruit
**a** carrot
**b** banana
**c** pear

**4** Puddings
**a** trifle
**b** tart
**c** roast

**5** British breakfast
**a** cereals
**b** fish and chips
**c** toast

**6** Meat
**a** pork
**b** beef
**c** beans

**7** Carbohydrate
**a** rice
**b** eggs
**c** bread

# Word of the day

A '**foodie**' is a slang term for someone who knows a lot about food and likes to visit high-quality restaurants.




Want to find more learning activities?
Visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2016